

**“Biz inkişaf dinamikamızı daha da sürətləndirməliyik və Azərbaycanda dayanıqlı inkişaf davam etməlidir.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Aprel - Iyun (2016-cı il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az/jurnal**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 18.07.2016
60x84 1/8 formatda 96 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© “Azərbaycan Prokurorluğu”, 2016

# MÜNDƏRİCAT

## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR


4 Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

13 Prezident İlham Əliyevin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib

17 Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

19 Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak edib

21 Milli Məclis Mehriban Əliyevanın təşəbbüskarı olduğu "28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar layihəsini qəbul edib


## RƏSMİ TƏDBİRLƏR


23 Baş Prokurorluqda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirilmişdir

26 Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ümummilli lider Heydər Əliyevin 93 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir

28 Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir

29 Baş prokuror AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi ilə görüşmüşdür

30 Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Baş Prokurorluqda olmuşlar

30 Türkiyə Ali Məhkəməsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur

32 Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

33 Türkiyə Ali Məhkəməsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə tanış olmuşlar

35 Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur

37 Azərbaycanın korrupsiyaya qarşı mübarizə modeli beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir

38 Antikorrupsiyaya həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir

39 Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir


## TƏHLİLLƏR, TƏKLİFLƏR


42 N.Bayramov – Cinayət haqqında xəbərin "xüsusi qərardad"la göndərilməsi barədə


## İCTİMAİYYƏTƏ HESABAT


47 Prokurorluq işçiləri növbəti ağacəkmə kampaniyası keçirmişlər

48 Amnistiya aktının tətbiqi ilə bağlı Baş Prokurorluqda seminar keçirilmişdir

48 Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir

49 Baş Prokurorluğun Elm-Tədris Mərkəzində stajorlar üçün hazırlıq kursu keçirilmişdir

50 Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur

51 Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi beynəlxalq təcrübəni uğurla öyrənir

52 Ekstradisiya və hüquqi yardım məsələlərinə həsr edilmiş beynəlxalq seminar keçirilmişdir

52 Azərbaycan Prokurorluğu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsi (ACN) ilə əməkdaşlığını uğurla davam etdirir

53 Mülki müdafiə məsələləri üzrə məşğələ keçirilmişdir

53 Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məsələlərinə həsr edilmiş seminar keçirilmişdir

55 Məxfi kargüzarlıq işinin təşkili mövzusunda seminar keçirilmişdir

56 Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanları qarşısında duran vəzifələrə aid seminarlar keçirilmişdir

57 Naxçıvan Muxtar Respublikası Prokurorluğunda gələcək hüquqşünaslarla görüş keçirilib


## PROKURORLUĞUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ


58 Azərbaycan Respublikasının Baş Prokurorluğu kibercinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

58 Azərbaycan Prokurorluğunun nümayəndə heyəti beynəlxalq forumda iştirak etmişdir

58 Ekstradisiya və hüquqi yardım sahəsində əməkdaşlıq beynəlxalq tədbirdə müzakirə olunmuşdur

59 Baş Prokurorluğun nümayəndəsi mədəniyyət abidələrinin qorunmasına həsr olunmuş beynəlxalq tədbirdə iştirak etmişdir

59 Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

59 Hüquqi statistika üzrə beynəlxalq tədbir keçirilmişdir


## NORMATİV HÜQUQİ AKTLAR


60 Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**



– İlk növbədə xahiş edirəm ki, Ermənistanın silahlı təxribatının qarşısını alaraq qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsini bir daha sükutla yad edək.

Allah şəhidlərimizə rəhmət eləsin! Əyləşin. Allah onların yaxınlarına səbir, yaralı hərbçilərimizə şəfa versin.

Bildiyiniz kimi, bu ayın əvvəlində Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Təxribatın qarşısı alındı, düşmənə layiqli cavab verildi. Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bildi. Bu qanlı toqquşma bir daha onu göstərir ki, Ermənistan işğalçı siyasətini davam etdirir, sülh istəmir və çalışır ki, danışıqlar prosesi pozulsun. Bunu deməyə bizdə kifayət qədər əsas var, ilk növbədə, danışıqların 20 ildən çox müddət ərzində aparılması onu göstərir ki, Ermənistan sadəcə olaraq danışıqları sonsuz proses kimi görmək istəyir. Digər tərəfdən, danışıqlarda müəyyən irəliləyiş olan zaman Ermənistan müxtəlif yollarla danışıqları pozmağa cəhd göstərir. Son tarixin nümunələri bunu göstərir. 2014-cü ilin sonlarında Fransa Prezidentinin təşəbbüsü ilə Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirilmişdir. Hər iki tərəf görüşü müsbət qiymətləndirmişdir. Görüşdən sonra biz danışıqlarda daha da müsbət dinamikanı gözləyirdik. Ancaq o danışıqlardan iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda – Ağdam rayonunun ərazisində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu, sırf təxribat xarakterli bir addım idi. Azərbaycan Silahlı Qüvvələri bu təxribata bir neçə gün cavab vermirdi, ancaq ondan sonra Ermənistan silahlı qüvvələri bizim mövqelərimizə hərbi helikopterlərlə hücum çəkmişdir. Azərbaycan Ordusu məcbur olub helikopterin birini vurmuşdur. Bu da Ermənistana bir bəhanə kimi lazım idi ki, yenə də

Azərbaycanı təcavüzdə günahlandırsın. Ondan sonra demək olar ki, bir ildən çox müddət ərzində danışıqlar, ümumiyyətlə, aparılmırdı. Minsk qrupunun xahişi ilə keçən ilin dekabrında Azərbaycan və Ermənistan prezidentləri görüşdülər, amma o görüşün heç bir nəticəsi olmamışdır. Vasitəçilər çalışırlar ki, məsələ öz həllini tapsın. Bilirsiniz ki, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərliyi səylər göstərirlər, bəyanatlar verirlər. O cümlədən status-kvo haqqında çox dəyərli bəyanatlar verilir ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Ancaq Ermənistan buna məhəl qoymur.

Bilirəm ki, həmsədr dövlətlər bu il danışıqların davam etdirilməsi istiqamətində yeni təkliflər irəli sürmüşlər. Amerika Birləşmiş Ştatlarında olarkən Amerikanın siyasi rəhbərliyi ilə o cümlədən Dağlıq Qarabağ münaqişəsi geniş şəkildə müzakirə edilmişdir. Qeyd etmişlər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bütün həmsədr ölkələr – ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəkləməsin. Görünür ki, danışıqlarda mümkün ola biləcək müsbət dinamika Ermənistanın bu təxribata getməsini şərtləndirdi. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan öz torpaqlarını müdafiə edir, bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan verməyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın.

Bildiyiniz kimi, qanlı toqquşmalardan sonra beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı narahatlığını ifadə etdi. Həmsədr ölkələrin rəhbərliyi sülh danışıqlarına sadiqlik göstərilməsi, məsələnin sülh yolu ilə həlli haqqında bəyanatlar verdilər və biz də bunu istəyirik. Biz məsələnin sülh yolu ilə, siyasi yollarla öz həllini tapmasını istədiyimizi dəfələrlə bəyan etmişik. İstəyimiz odur ki, məsələ həllini tapsın. Bu gün də biz bəyan edirik ki, danışıqlar prosesinə sadiqik. Ümid edirik ki, bu danışıqlar məsələnin həllinə gətirib çıxaracaq. Məsələnin həlli çox sadədir – erməni silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim əsas vəzifəmizdir. Azərbaycan həm siyasi, həm iqtisadi və bütün başqa sahələrdə gücləndikcə, əlbəttə ki, bu münaqişənin həlli daha da yaxın olacaqdır. Biz inkişaf dinamikamızı daha da sürətləndirməliyik və Azərbaycanda dayanıqlı inkişaf davam etməlidir. Son illər ərzində iqtisadi və siyasi sahələrdə əldə edilən uğurlar onu göstərir ki, biz düzgün yoldayıq. Hər zaman olduğu kimi, birinci rübdə də bizim çox fəal xarici siyasətimiz olmuşdur. Ancaq hesab edirəm ki, biz birinci rübdə daha da fəal işləmişik. Mən birinci rübdə bir çox xarici səfərlərdə olmuşam – həm rəsmi, həm işgüzar səfərlərdə. Davos İqtisadi Forumunda, Münxen Təhlükəsizlik Konfransında, Londonda Suriyaya dəstək konfransında iştirak etmişəm. Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə, Amerika Birləşmiş Ştatlarına səfərlərim olubdur. Bütün bu səfərlərin coğrafiyası özlüyündə bir göstəricidir. Onu göstərir ki, Azərbaycan çox fəal və çoxşaxəli xarici siyasət aparır, bizim dostlarımızın sayı artır. Hətta bir-biri ilə o qədər də yaxın münasibətlərdə olmayan ölkələrlə Azərbaycan çox səmərəli, qarşılıqlı hörmət və maraqlar üzərində iş qurubdur.

Beləliklə, bizə beynəlxalq ictimaiyyət tərəfindən olan inam artır. Azərbaycan çox etibarlı tərəfdaş kimi tanınır və bölgədə sabitləşdirici rol oynayır. Onu da qeyd etməliyəm ki, birinci rübdə Azərbaycana 10 xarici dövlət və hökumət başçısı səfər etmişdir. Onların arasında rəsmi səfərlər olubdur və IV Qlobal Bakı Forumunda iştirak etmək üçün dövlət və hökumət başçıları gəlmişlər.

Bir daha demək istəyirəm ki, bu, bizim uğurlu xarici siyasətimizi göstərir. Bu siyasət davam etdiriləcək. Bir daha qeyd etmək istəyirəm ki, dünya birliyi Azərbaycana böyük hörmətlə və rəğbətlə yanaşır. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl biz BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq. Bu, o vaxt da bizim üçün təsadüfi deyildi və bu gün də əldə edilən uğurlar bunu bir daha göstərir.

Bununla bərabər, yeni regional əməkdaşlıq formatı yaranır, formalaşır. Azərbaycan-İran-Rusiya regional formatı, xarici işlər nazirləri görüşmüşlər. Ondan bir-iki gün əvvəl İranda Azərbaycan-İran-Türkiyə xarici işlər nazirləri görüşmüşlər. Digər üçtərəfli formatlar var. Azərbaycan-Gürcüstan-Türkiyə formatı var. Yəni, bütün bu üçtərəfli təşəbbüslər regionda təhlükəsizliyin təmin edilməsi və əməkdaşlığın dərinləşməsi üçün çox vacibdir. Gördüyünüz kimi, Azərbaycan hər bir formatda iştirak edir.

Birinci rübdə iqtisadi islahatlar daha da sürətlə aparılmışdır. Ümumiyyətlə, mən bildirməliyəm ki, 2016-cı il dərin iqtisadi islahatlar ili olacaqdır. İlin əvvəlindən biz bu istiqamətdə çox fəal işləyirik. Bir çox sərəncamlar, qanunlar imzalanmış və qəbul

edilmişdir. Biznes mühitinin yaxşılaşdırılması, ixrac potensialımızın artırılması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın artırılması – bütün bu istiqamətlər üzrə çox ciddi qərarlar qəbul edilmişdir. Maliyyə nizam-intizamı, şəffaflıq – demək istəyirəm ki, bundan sonra da bu istiqamətdə əlavə tədbirlər görüləcək.

Azərbaycanda bütün iqtisadi-maliyyə sektoru aparıcı dövlətlərin təcrübəsinə əsaslanaraq ən mütərəqqi prinsiplər əsasında inkişaf etməlidir. İlk növbədə, idarəetmə mexanizmləri təkmilləşdirilməlidir, şəffaflıq tam şəkildə təmin edilməlidir. Beləliklə, bizim gəlirlərimiz artacaq və artmalıdır, baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşüb və hələ də çox aşağı səviyyədədir. Bu, təbii ki, bizim gəlirlərimizə çox ciddi təsir göstərir. Ancaq hesab edirəm ki, biz qeyri-neft sektorunun inkişafı sayəsində bu vəziyyətdən uğurla çıxa biləcəyik.

Birinci rübün iqtisadi göstəriciləri o qədər də müsbət deyil. Ümumi daxili məhsul aşağı düşübdür. Bu da təbiidir. Biz bunu gözləyirdik. Ancaq hesab edirəm ki, il ərzində ümumi daxili məhsul artmalıdır. Hər halda biz buna çalışırıq və çalışacağıq. Bunu deməyə əsas verən odur ki, ilin birinci rübündə Azərbaycanda qeyri-neft sənayesi beş faizdən çox artmışdır. Bu, onu göstərir ki, ümumi daxili məhsulun azalması, ilk növbədə, neftin qiymətinin aşağı düşməsi və ondan yaranan vəziyyət ilə bağlıdır. Əlbəttə ki, bizim gəlirlərimiz azalıbdır. Dövlət tərəfindən yatırılan investisiyalar azalıbdır. Əlbəttə, biz bu vəziyyəti nəzərə alırıq.

Ancaq qeyri-neft sənayesinin beş faizdən çox artması, əlbəttə, həm göstəricidir, həm də yaxşı ümidlər verir ki, Azərbaycanda qeyri-neft sektoru daha da sürətlə inkişaf edəcək. Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edir. Biz buna nail olmuşuq və gələcəkdə əlbəttə, çalışmalıyıq ki, qeyri-neft sektoru bizim ixrac strukturumuzda da daha böyük çəkiyə malik olsun.

Birinci rübdə 37 min yeni iş yeri yaradılmışdır. Onlardan 31 mini daimi iş yeridir, 13 min iş yeri bağlanmışdır. Biz burada da müsbət balans görürük. Onu da qeyd etməliyəm ki, yeni iş yerlərinin yaradılması daha çox dövlət sektorunda baş verib. Bu da mənim göstərişimlə öz həllini tapan məsələdir. Çünki tikinti sektorunda, digər sektorlarda bəzi işlər ixtisara düşüb. Belə olan halda işsizlik səviyyəsini aşağı səviyyədə saxlamaq üçün mən qərar qəbul etdim ki, dövlət şirkətləri, dövlət qurumları yeni iş yerlərini açsınlar. İctimai işlər açılır və birinci rüb ərzində bu qədər iş yerlərinin açılması, əlbəttə ki, insanların sosial müdafiəsinə hesablanıb.

Sosial siyasət həmişə prioritet olmuşdur və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar.

İndi dünyada böhran yaşanır. İqtisadi və maliyyə böhranı hələ ki, başa çatmayıb. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, ancaq bu böhrandan ən az itkilərlə çıxan ölkələrdən biridir. Bir misal da gətirə bilərəm ki, neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, bu il Azərbaycanda maaşlar və pensiyalar artırılıb, 10 faiz artım var. Bu da nadir hadisələrdən biridir. Adətən hətta neft və qazla zəngin olmayan ölkələr ya maaşları dondururlar, ya kəsirlər, ya maaşların verilməsində problemlər yaşanır. Ancaq biz dünyada hökm sürən bu böhrana baxmayaraq, maaşları və pensiyaları artırmışıq. Digər sosialyönümlü addımlar atılır, o cümlədən yeni təşəbbüslər, iş yerlərinin yaradılmasının yeni formaları artıq işə düşür. Əminəm ki, Azərbaycanda işsizliyin səviyyəsi həmişə olduğu kimi, çox aşağı səviyyədə olacaqdır.

Beləliklə, ciddi dərin iqtisadi islahatlar aparılır və bu islahatlar dərinləşməlidir. Çox güclü sosial siyasət aparılır ki, iqtisadi islahatlar həyata keçirilərkən insanlar bundan əziyyət çəkməsinlər. İnsanların rifah halının yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaqdır.

Bu il regional inkişaf istiqamətində də çox böyük layihələr icra edilməlidir. Nəzərdə tutduğumuz layihələrin icrası üçün təqribən 2 milyard manata qədər vəsait lazım olacaqdır. Onun bir hissəsi dövlətin güzəştli kreditləri, bir hissəsi isə sahibkarların hesabına təmin edilməlidir. Hər halda biz qarşıya bu hədəfi qoymuşuq. Çalışmalıyıq ki, bu hədəfə çata bilək. Beləliklə, ölkə iqtisadiyyatına, qeyri-neft sektoruna qoyulacaq investisiyalar özlüyündə daha da böyük canlanmaya, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq və yeni ixrac məhsullarımız da olacaqdır.

Biz birinci rübdə digər sahələrdə də çox fəal işləmişik. Nəqliyyat sektorunda. Qeyd etdiyim kimi, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması üçün çox fəal işləmişik. Bu dəhlizin yaradılması üçün Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlığı əsas şərtdir. Bildiyiniz kimi, həm İran Prezidenti, həm Rusiya Prezidenti ilə görüşlərdə bu məsələlər mənim tərəfimdən qaldırılmışdır, müzakirə edilmişdir və deyə bilərəm ki, burada ümumi razılıq var. Bu nəqliyyat dəhlizi həm iqtisadi cəhətdən, həm təh-

lükəsizlik, həm turizm baxımından bizə çox lazımdır. Beləliklə, biz digər böyük ölkələr üçün öz tranzit imkanlarımızı təqdim edəcəyik və Azərbaycan xəzinəsi, büdcəsi bundan çox böyük iqtisadi mənfəət götürəcək. Çünki bu, nəinki üç ölkə arasında olan və ola biləcək ticarəti sürətləndirəcək, eyni zamanda, Pakistan, Hindistan, Şimali Avropa ölkələri bu dəhliz vasitəsilə birləşəcəklər və bizim ərazimizdən keçən yüklərin həcmi böyük dərəcədə artacaq.

Əlbəttə ki, Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması üçün bütün işlər görülür. Biz burada da yenə də üçtərəfli, amma digər formatda işləyirik – Azərbaycan-Gürcüstan-Türkiyə formatında. Mənim keçən ilin sonunda Gürcüstana, bu il Türkiyəyə səfərlərim bu dəhlizin yaradılması üçün çox faydalı olmuşdur. Baxın, Azərbaycan yenə də iki dəhlizin ortasındadır. Əgər bizim qonşu ölkələrlə çox müsbət dostluq, tərəfdaşlıq əsasında qurulmuş münasibətlərimiz olmasaydı, bu layihələrin heç biri reallaşmazdı. Mən həmişə demişəm ki, qonşularla münasibətlərimiz bizim üçün çox önəmlidir. Bizim Ermənistandan başqa heç bir qonşu ölkə ilə problemimiz yoxdur. Əksinə, bizim qonşularla əlaqələrimiz gündən-günə artır, güclənir və bu, həm təhlükəsizlik, həm sabitlik, iqtisadi inkişaf, əməkdaşlıq üçün əsas şərtdir. Bir daha demək istəyirəm ki, Azərbaycanın bu sahədə oynadığı rol yüksək qiymətləndirilir və artıq gözəl nəticələr var.

Bununla bərabər, bizim bütün ölkələrlə, beynəlxalq qurumlarla əlaqələrimiz inkişaf edir. Bilirsiniz ki, birinci rübdə Avropa Komissiyasının yüksək vəzifəli şəxsləri, iki vitse-prezident Azərbaycana gəlmişlər. Burada həm energetika, həm siyasi, iqtisadi və digər təhlükəsizlik məsələləri müzakirə edilmişdir. Keçən il Avropa Komissiyasının prezidenti Azərbaycana səfər etmişdir. Biz indi yeni əməkdaşlıq formatı üzərində işləyirik. Mənim Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirakım özlüyündə bir göstəricidir. Orada 50-dən çox ölkə iştirak edirdi, o cümlədən Azərbaycan. Nəzərə alsaq ki, Azərbaycan nüvə dövləti deyil, Azərbaycanda atom elektrik stansiyası yoxdur, demək olar ki, nüvə sənayesi hələ inkişaf etməyib, Azərbaycanın bu mötəbər tədbirə dəvət edilməsi ABŞ hökuməti, Prezidenti tərəfindən bizə olan hörmətin təzahürüdür və bizim bu bölgədə oynadığımız rolu əks etdirir. Çünki bu da qeyd edilir ki, Azərbaycan nüvə materiallarının qanunsuz trafikinin qarşısının alınması məsələlərində çox etibarlı tərəfdaşdır.

Səfər zamanı ABŞ-ın siyasi rəhbərliyi ilə çox yaxşı, səmərəli və səmimi söhbətlərim, danışıqlarım olmuşdur. Bu danışıqlar bir daha onu göstərir ki, bizim aramızdakı əlaqələr hər iki tərəf üçün çox önəmlidir. Biz bir çox sahələrdə birgə işləyirik və bu əlaqələr hər iki tərəf üçün yeni imkanlar açır. Burada həm siyasi əlaqələr, həm də energetika sahəsində əməkdaşlıq, təhlükəsizlik məsələləri və ticarət, iqtisadi məsələlər də gündəliyin əsas məsələləridir.

O ki qaldı enerji siyasətimizə, birinci rübdə Bakıda "Cənub Qaz Dəhlizi"nin ikinci Məşvərət Şurası keçirilmişdir. Artıq ikinci dəfədir ki, bu tədbir Bakıda keçirilir. Bu da bizim təşəbbüsümüzlə mümkün olmuşdur. Biz iki il bundan əvvəl təşəbbüs göstərmişdik ki, belə bir toplantı keçirilsin və indi bu, artıq ənənəvi xarakter daşıyır. İkinci Məşvərət Şurasının toplantısı çox böyük uğurla keçirilmişdir, çox vacib qərarlar qəbul edilmişdir. Qəbul edilmiş Bəyannamədə Azərbaycanın bu sahədəki liderlik rolu bir daha qeyd olunmuşdur. "Cənub Qaz Dəhlizi"nin icrası cədvəl üzrə gedir, lazımi investisiyalar qoyulur. Burada ölkələr və şirkətlər arasındakı əlaqələndirmə yüksək səviyyədədir. Əminəm ki, bu strateji layihə vaxtında icra ediləcək.

Birinci rübdə IV Qlobal Bakı Forumu keçirilmişdir. Forumda 50-dən çox ölkənin təmsilçisi, fəaliyyətdə olan və keçmiş dövlət, hökumət başçıları iştirak etmişlər. Bu Forum artıq dünyanın aparıcı beynəlxalq forumları arasında yer alan gözəl bir müzakirə meydançasıdır. Bu forumların Bakıda keçirilməsi, əlbəttə ki, bizim önəmimizi daha da artırır. Bu ayın sonunda isə Bakıda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Hesab edirəm ki, bu da Azərbaycanda multikulturalizm, sivilizasiyalararası dialoqun aparılmasında əldə edilmiş uğurların nəticəsidir. Bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu sahədə əldə olunmuş uğurlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir.

Birinci rübdə əlbəttə ki, digər önəmli hadisələr baş vermişdir. İndi onların hamısı haqqında danışmağa sadəcə olaraq vaxt yoxdur. Bir sözlə, baxmayaraq ki, bu gün dünyada iqtisadi-maliyyə böhranı davam edir, gəlirlərimiz azalıbdır, ancaq çox operativ addımlar, dərin iqtisadi islahatlar və düşünülmüş müdrik xarici siyasət nəticəsində biz bütün riskləri minimum səviyyəyə endirdik. Mən ümid edirəm ki, müsbət dinamika 2016-cı ildə davam edəcək. İkinci rübdə iqtisadiyyat daha da sürətlə inkişaf edəcək və biz ilin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələləri həll edəcəyik.

***

Sonra energetika naziri Natiq Əliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov və Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev çıxış etdilər.



Dövlətimizin başçısı iclasda yekun nitqi söylədi.

**Prezident İlham Əliyevin yekun nitqi**

– Bir daha qeyd etmək istəyirəm və şübhə etmirəm ki, ilin sonuna qədər ölkə qarşısında duran bütün vəzifələr icra ediləcək. Azərbaycan uğurlu inkişaf yoluna davam edəcək.

O ki qaldı qarşıda duran növbəti vəzifələrə, ilk növbədə əlbəttə ki, biz ordu quruculuğuna daha da böyük diqqət göstərməliyik. Son illər ərzində bu istiqamətdə çox böyük addımlar atılmışdır, böyük işlər görülmüşdür. Ordumuzun maddi–texniki bazası möhkəmlənmişdir. Bu gün Azərbaycan Ordusu həm maddi-texniki təchizat, eyni zamanda, döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Biz müharibə şəraitində yaşayırıq. Bizim torpaqlarımız işğal altındadır. Əlbəttə, belə olan halda, ilk növbədə ordu quruculuğuna daha da böyük diqqət göstərilməlidir, göstərilir və göstəriləcəkdir.

Əlbəttə ki, buna nail olmaq üçün iqtisadiyyat daha da sürətlə inkişaf etməlidir. Ona görə, dediyim kimi, iqtisadi islahatlar, iqtisadi inkişaf bizim ümumi inkişafımızı müəyyən edir. İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyini şərtləndirir. Biz bu gün müstəqil xarici siyasət aparırıq. Qeyd etdiyim kimi, bu siyasət xoşməramlıdır. Biz istəyirik ki, dünyada münaqişələr aradan götürülsün, qarşıdurma ocaqları olmasın, sabitlik yaransın, xüsusilə bizim bölgəmizdə. Ona görə, bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan dünya miqyasında uğurlu, müstəqil xarici siyasət aparan ölkələrdən biridir. Əlbəttə ki, bunun da təməli, əsası həm iqtisadi müstəqillik, həm də xalq-iqtidar birliyidir. Ona görə, iqtisadi sahədə lazım olan bütün tədbirlər görüləcək və beləliklə, ölkəmizin dayanıqlı inkişafı təmin ediləcəkdir.

Qeyd etməliyəm ki, biznes mühitinin yaxşılaşdırılması üçün sahibkarlara daha da böyük dəstək vermək istiqamətində çox önəmli addımlar atılmışdır. Xüsusilə qeyd etmək istəyirəm ki, yoxlamalarla bağlı mənim göstərişlərim yerinə yetirilir. Qeyd etməliyəm ki, 2016-cı ilin birinci rübü ərzində sahibkarlıq subyektlərində vergi istisna olmaqla, cəmi 34 yoxlama keçirilmişdir. Müqayisə üçün deyim ki, 2015-ci ilin birinci rübündə 19 min 300 yoxlama keçirilmişdir. Bu il isə 34. Bu rəqəmlərə şərh verməyə ehtiyac yoxdur. Beləliklə, Azərbaycanda azad sahibkarlığın, azad rəqabətin inkişafı sürətlə gedir. Biz hələ bu yolun başlanğıcındayıq. Əminəm ki, görülən tədbirlər və gələcəkdə iqtisadi sahədə şəffaflığın təmin edilməsi nəticəsində Azərbaycanda sahibkarlıq daha da sürətlə inkişaf edəcək. Azərbaycana xarici sərmayə daha da böyük həcmdə gətiriləcəkdir. Çünki xarici sərmayələri cəlb etmək üçün hüquqi baza, şəffaf iq-

tisadi və maliyyə sistemi olmalıdır və qanunun aliliyi təmin edilməlidir. Əgər biz başqa ölkələrin təcrübəsinə baxsaq, görərik ki, sürətli inkişaf yoluna qədəm qoymuş ölkələr bu yolla gediblər və beləliklə, öz ölkələrini xarici sərmayə üçün çox cəlbedici ölkələrə çevirə biliblər. Bu gün istənilən ölkə xarici sərmayəni cəlb etməyə çalışır, hətta böyük maliyyə resurslarına malik olan ölkələr. Çünki bu, həm əlavə vəsaitdir, maliyyə resursudur, həm də əlavə imkanların yaradılmasıdır və biz də bu yolla getməliyik.

İnvestisiyaların təşviqi üçün addımlar atılmışdır. Bu ilin yanvar ayında müvafiq Fərman imzalanmışdır. İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Fərman yanvar ayında imzalanmışdır. Əminəm ki, bu Fərman əsasında Azərbaycana qoyulacaq sərmayələrin həcmi böyük dərəcədə artacaq.

Bank sektorunun möhkəmlənməsi və sağlamlaşdırılması prosesi gedir. Bu istiqamətdə də çox önəmli addımlar atılmışdır. Maliyyə nəzarəti haqqında, digər istiqamətlər üzrə önəmli addımlar atılmışdır. Hesab edirəm ki, bu, bank sektorunun inkişafına xidmət göstərəcək. Əmanətlərin tam sığortalanması haqqında qərar qəbul edilmişdir. Bu, həm sosial xarakter daşıyır, həm də əlbəttə ki, bank sektoruna əhali tərəfindən inamı artırır. İndi bütün əmanətlər sığortalanıb. Hesab edirəm ki, gələcəkdə dollarlaşma meyillərinin qarşısı da alınacaq. Əfsuslar olsun ki, indi əmanətlərin böyük hissəsi dollarla saxlanılır. Bu da əlbəttə ki, ölkə iqtisadiyyatı üçün müsbət hal deyil.

Manatın məzənnəsi sabitləşib. Hesab edirəm ki, tədricən bu istiqamətdə də vəziyyət müsbətə doğru inkişaf edəcək. Ancaq bu, təbii prosesdir. Əlbəttə ki, yerli valyutaya inam daha da artdıqca insanlar özləri öz qərarlarını verəcəklər. Burada heç kim heç kimi məcbur edə bilməz. Sadəcə olaraq, dövlət və hökumət elə addımlar atmalıdır ki, insanlar öz əmanətlərini manatla saxlamaqda daha da maraqlı olsunlar.

Qeyri-neft sektorunun sürətli inkişafı bundan sonra da təmin edilməlidir. Mən giriş sözümdə qeyd etdim. İki milyard manata yaxın dəyəri olan layihələr tərtib edilib. İndi iş adamları bu layihələri icra etməlidirlər. Burada əlbəttə ki, özəl bankların rolu da kifayət qədər böyükdür. Ümumiyyətlə, bank sektorunun sağlamlaşdırılması konkret olaraq bu məsələyə də xidmət göstərəcəkdir. Banklar indi kreditlər vermək üçün layihələr axtarırlar ki, o layihələr özlüyündə gəlir gətirsin. Ona görə, burada dövlət və özəl sektor tərəfdaşlıq şəraitində işləyir. Biz bir məqsədi güdürük ki, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf etsin.

Yerlərdə sahibkarlara tam şərait yaradılmalıdır. Mən dəfələrlə bu barədə fikirlərimi bildirmişəm. Yerli icra orqanları bu şəraiti yaratmalıdırlar. Yerli icra orqanlarının rəhbərlərinin fəaliyyətini ilk növbədə o bölgələrdə, o rayonlarda iqtisadi inkişafın templəri müəyyən edəcəkdir. Çünki indi əsas vəzifə hər bir rayonun sosial-iqtisadi inkişafıdır. Yeni iş yerləri, yeni istehsal sahələri, ixracyönümlü istehsal sahələri yaradılmalıdır. Hər bir rayonda sənaye zonaları yaradılacaq.

Mənə verilən məlumata görə, rayonlarda kifayət qədər istifadəsiz torpaq sahələri var. Biz bu məsələ ilə də ciddi məşğul olmalıyıq. Burada həm inzibati tədbirlər, eyni zamanda, stimullaşdırıcı tədbirlər görülə bilər. Torpaqları əldə edən, ancaq uzun müddətdir ki, ondan istifadə etməyən şirkətlər, insanlar özlərini daha da məsuliyyətlə aparmalıdırlar. Əgər o torpaqlardan istifadə etmirlərsə, onda müəyyən mexanizmlər tətbiq edilməlidir. Biz imkan verə bilmərik, – hələ ki, özümüzü ərzaq məhsulları ilə tam təmin etməmişik, – bu torpaqlar uzun illər istifadəsiz qalsın. Mən bu vəzifəni də qarşıya qoyuram. Burada həm yerli, həm mərkəzi icra orqanları birgə işləməlidirlər.

Sosial mənzillərin tikintisi proqramı yaxın zamanlarda ictimaiyyətə təqdim ediləcəkdir. Bu, yeni təşəbbüsdür. Bəzi ölkələrdə bu praktika var. Biz müsbət praktikanı öyrənirik, öyrənmişik. Buna böyük ehtiyac və tələbat var. Sosial mənzillərin tikintisi prosesi yaxın zamanlarda başlanacaqdır.

Regionlarda işsizliyin azaldılması və maddi imkanları aşağı olan aztəminatlı əhalinin mənzil probleminin həlli üçün bütün şəhərlərdə, rayon mərkəzlərində sosial mənzillərin tikintisinə başlanacaqdır. Xüsusilə qeyd etmək istəyirəm ki, nəinki Bakıda və böyük şəhərlərdə, bütün şəhərlərdə, bütün rayon mərkəzlərində. Dünya təcrübəsindən istifadə etməklə, vətəndaşların belə evlərə sahib olma qaydaları və həmin mənzillərdə yerləşdirilən insanlara mülkiyyət hüququnun verilmə prosedurları müəyyən ediləcəkdir. Sosial Mənzil Fondunun yaradılmasında əsas məqsəd belə mənzilləri aztəminatlı əhaliyə aşağı qiymətlərlə və uzun müddətə kreditlə təqdim etməklə onların mənzil problemlərinin həllindən və sosial rifah hallarının yaxşılaşdırılmasından ibarətdir. Bu tipli mənzillərin tikintisi həm Bakı şəhərində, həm də bütün digər rayon və şəhərlərdə geniş şəkildə aparılacaqdır. Sosial mənzillərin tikintisi əlavə iş

yerlərinin yaradılması, mənzilə ehtiyacı olan əhali qrupunun belə ehtiyaclarının ödənilməsi ilə yanaşı, bu mənzillərin əhaliyə təqdim edilməsi nəticəsində yeni zəruri istehlak ehtiyaclarının yaranacağı nəzərə alınmaqla, paralel şəkildə iqtisadiyyatın 20-dək digər sahələrinin də inkişafına səbəb olacaqdır. Təbii ki, bu, inşaat sektoruna çox böyük təkan verəcək. İnşaat sektorunda vaxtilə işləmiş, ancaq indi işlərini itirmiş insanlar yenə də işlə təmin ediləcək və bunun çox geniş multiplikativ səmərəsi olacaqdır.

İş yerlərinin yaradılması üçün əlavə tədbirlər görüləcək. Mən giriş sözümdə qeyd etdim ki, biz operativ tədbirləri görməklə qısa müddət ərzində 31 min daimi iş yeri yaratmışıq, daha çox dövlət sektorunda. Özəl qurumlara da tövsiyə olundu ki, çalışsınlar ixtisarlara yol verməsinlər. Burada biznesin sosial məsuliyyəti ön plana çıxır. Eyni zamanda, əlavə tədbirlərin görülməsi nəticəsində, xüsusilə özəl sektorda minlərlə, on minlərlə yeni iş yeri yaradılmalıdır, qeyd etdiyim kimi, inşaat və kənd təsərrüfatı sektorlarında. Kənd təsərrüfatı ilə bağlı planlarımızı mən bir qədər sonra bildirəcəyəm.

Burada qeyd olundu, ünvanlı dövlət sosial yardımı ilə bağlı məsələlər öz həllini tapır. Ancaq biz elə şərait yaratmalıyıq ki, insanlar işlə təmin olunsunlar. Düzdür, ünvanlı dövlət sosial yardımı çox mühüm sosial təşəbbüsdür və biz bunu icra edirik. Ancaq bəzi hallarda bu, ələbaxımlıq meyillərini də gücləndirir. Ona görə də biz burada çox ciddi və düşünülmüş siyasət aparmalıyıq ki, insanlar işləyib pul qazansınlar. Bu məqsədlə biz rayonlarda, Bakı şəhərində, böyük şəhərlərdə ictimai işlər açırıq. Bu məqsədlə dövlət şirkətlərinə göstəriş verilmişdir ki, minlərlə yeni iş yeri açsınlar. Ancaq bəzi hallarda biz görürük ki, vətəndaşlar o iş yerlərindən istifadə etmək istəmirlər, daha çox dövlətdən ünvanlı yardım almaq istəyirlər. Ona görə, burada çox dəqiq siyasət aparılmalıdır. Doğrudan da kimin ehtiyacı varsa ona dövlət daim diqqət göstərəcəkdir. Amma əmək qabiliyyətli vətəndaşlar, gənc vətəndaşlar əgər iş varsa getsinlər o işlərdə işləsinlər, maaş qazansınlar və beləliklə, gələcəkdə öz həyatlarını qursunlar. Çünki ələbaxımlıq, ümumiyyətlə, yaxşı hal deyil. Azərbaycan artıq yoxsulluğa qarşı mübarizədə böyük uğurlar əldə edibdir. Azərbaycanda yoxsulluq aşağı səviyyədədir. Əlbəttə ki, işləmək üçün iş yerləri olmalıdır, bunlar da yaradılır. Həm dövlət, həm özəl sektorlarda özünəməşğulluğun təmin olunması üçün vəsait ayrılıb. Ona görə, bu, çox ciddi məsələdir və öz həllini tapmalıdır.

Dövlət xətti ilə infrastruktur layihələrinin icrası davam etdirilir. Qazlaşdırma, elektrik təchizatı, su təminatı, kənd yollarının tikintisi. Bu il 40-dan çox kənd yolu layihəsi icra ediləcəkdir. Bu məqsədlə təqribən 250 milyon manat vəsait nəzərdə tutulur. Bütün bölgələrdə kənd yollarının tikintisi bu il daha da geniş vüsət alacaq. Bu, həm sosial layihədir, iqtisadi layihədir, eyni zamanda, o layihələrin icrasında minlərlə, on minlərlə yeni iş yeri açılır ki, vətəndaşlar da iş yerləri ilə təmin olunsunlar. Ümumiyyətlə, inşaat sektorunun canlandırılması üçün biz çox ciddi işləməliyik. Bakı şəhərində qəzalı vəziyyətdə binalar kifayət qədər çoxdur. İndi pilot layihələri icra edilir. Birinci layihə Sabunçu rayonunda icra edilməyə başlanmışdır. Vətəndaşlar da bundan çox razıdırlar. Onlar müvəqqəti olaraq başqa yerlərə yerləşdirilirlər. O evlər sökülür, onların yerində gözəl, müasir binalar tikilir. Onlara köhnəlmiş, qəza vəziyyətində olan mənzillərdən canlarını qurtarmaq üçün imkan verilir. Onlar yeni evlərdə, mənzillərdə yaşayacaqlar. Orada onların yaşayış sahəsi daha da geniş olacaq və iqtisadi cəhətdən bu, çox əhəmiyyətlidir. Amma ilk növbədə biz bunu sosial layihə kimi icra etməyə başlamışıq. İndi bu proses digər rayonlarda, Qaradağ rayonunda, hər bir rayonda başlanıbdır. Bakının hər bir rayonunda qəzalı vəziyyətdə olan binalar var. Onlar əlbəttə ki, sökülməlidir və orada yaşayan insanlar ya dövlət, ya da özəl sektor tərəfindən daha yaxşı evlərlə təmin edilməlidirlər. Burada həm dövlət, həm özəl sektor birgə işləyə bilər. Buna nail olmaq üçün sadəcə şərait yaradılmalıdır və yaradılır. Hesab edirəm ki, bu il bu proses çox kütləvi xarakter alacaq. Sosial mənzillərin tikintisi, eyni zamanda, qəzalı vəziyyətdəki bu evlərin yerində gözəl, çoxmərtəbəli binaların tikintisi inşaat sektoruna çox böyük təkan verəcəkdir.

Mən giriş sözümdə qeyd etdim ki, nəqliyyat sektorunda Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin yaradılması istiqamətində işlər gedir. Şərq-Qərb dəhlizinin yaradılması üçün Azərbaycan qonşu ölkələrə bir təklif də irəli sürdü ki, biz burada daha da böyük həcmdə yükləri cəlb etmək üçün vahid tarif siyasəti aparaq. Həm gürcüstanlı, həm də türkiyəli həmkarlarımızla bu məsələ müzakirə olundu. Mənim keçən ilin sonlarında Çinə dövlət səfərim çərçivəsində bu məsələ geniş müzakirə edildi. Qədim İpək Yolunun bərpası layihəsi çox böyük önəm daşıyır. Biz sadəcə olaraq dəmir yollarının tikintisi, yaxud da ki, birləşdirilməsi ilə öz işimizi bitmiş hesab etməməliyik. Biz elə bir düzgün və razılaşdırılmış tarif siyasəti aparmalıyıq ki, bütün yüklər bizim ərazimizdən keçsin. Bunu biz təkbaşına edə bilmərik.

Halbuki biz bunu edirik və bilirsiniz ki, biz yükləri operativ qaydada, bəzi hallarda 40 faiz güzəştlə daşıyırıq. Ancaq bunu bu dəhlizdə iştirak edən bütün ölkələr etməlidir. Əgər biz tarifləri endirsək, digər ölkələr endirməsə, qaldırsa onda sadəcə olaraq biz itirəcəyik. Ona görə, biz Əlaqələndirmə Şurasının yaradılması, vahid tarif siyasətinin aparılması təşəbbüsünü irəli sürdük ki, yük göndərən bilsin bu yolun haqqı, qiyməti nə qədərdir. Artıq yenə də Azərbaycanın təşəbbüsü əsasında bu prosesə də təkan verildi.

Bu il Ələt Beynəlxalq Dəniz Limanının yaradılması istiqamətində əlavə işlər görülməlidir. Bilirsiniz ki, biz bunu mərhələ-mərhələ edirik. İndi birinci mərhələnin birinci hissəsi başa çatıb, amma tezliklə birinci mərhələ tam şəkildə icra edilməlidir. Əlavə vəsait ayrılmalıdır ki, bizim burada infrastruktur və logistika imkanlarımız artan tələbatla uzlaşsın. Çünki bütün bu yolların, dəhlizlərin yaradılması bunu diktə edir. Çox yaxşı ki, vaxtilə biz bu layihəyə start vermişik. Ələt limanı Xəzər dənizinin ən böyük ticarət limanı olacaqdır. Bildiyiniz kimi, Xəzəryanı qonşu ölkələrdə də limanların tikintisi gedir və burada da əlaqələndirmə çox vacibdir. Biz bu istiqamətdə də lazımi tədbirlər görürük.

Ekoloji tədbirlərin davam etdirilməsi çox önəmlidir. Son illər ərzində həm Bakı şəhərində, həm bölgələrdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Hesab edirəm ki, Bakı şəhərinin sakinləri bunu hər gün hiss edirlər. Bakının havası təmizləndi. Bakıda indi havanın meyarları yüksək səviyyədədir. Bunu hər bir vətəndaş hiss edir. Bəziləri unudurlar ki, əvvəlki vəziyyət necə idi. Ancaq biz bunu xatırlayırıq. Bir neçə strateji layihə öz həllini tapmışdır. Onların içərisində mən əlbəttə ki, Balaxanı zibilxanasının ləğvini və burada böyük zibilyandırma zavodunun tikintisini xüsusilə qeyd etmək istəyirəm. Vaxtilə şəhərimizin havasını ən çox zəhərləyən elə Balaxanı zibilxanası idi. Yanırdı, şəhərimizi tüstü bürüyürdü və o zonada havanın çirklənməsi həddindən artıq yüksək idi. Bu, çox böyük ekoloji və sağlamlıq layihəsi oldu. Şadam ki, bu, öz həllini tapdı, orada bütün yerlər təmizləndi. Sahə abadlaşdı və gözəlləşdi. İndi orada Balaxanı Texnologiya Parkı yaradılır.

Böyükşor gölünün təmizlənməsi layihəsinin birinci mərhələsi keçən il başa çatmışdır. O da Balaxanı zibilxanasına yaxın olan bir ərazidə yerləşir. Onilliklər ərzində buraya lay suları, neftlə çirklənmiş sular, kanalizasiya suları axıdılırdı. Ora bir ekoloji fəlakət zonası idi. İndi köçəri quşlar o gölə qonur. Ətrafında gözəl bulvar yaradılıbdır. Abadlıq işləri aparılır, insanların sağlamlığı, istirahəti üçün çox gözəl bir məkana çevrilib. İndi Böyükşor gölünün təmizlənməsinin ikinci mərhələsi də gündəlikdədir.

Bibiheybət buxtasının təmizlənməsi də uğurla başa çatdı. Vaxtilə bu da bir ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada gözəl parklar salınıb. Birinci Avropa Oyunları yarışlarının bir hissəsi orada keçirilibdir. Böyük Su İdmanı Sarayı, digər idman qurğuları tikilibdir. Bayraq Meydanından ta Bibiheybət buxtasınadək yaşıllıq zonaları, bulvar salınıbdır. Bu da əlbəttə ki, şəhərimizi çirkləndirirdi – Balaxanı bu tərəfdən, Qaraşəhər başqa tərəfdən. Orada da böyük təmizləmə işləri aparılmışdır, torpaq qatları götürülmüşdür. Orada vaxtilə neftayırma zavodunun bütün tullantıları yığışırdı. İndi biz Qaraşəhəri Ağ Şəhərə çeviririk. Yəni, bunlar doğrudan da nəhəng layihələrdir. İndi biz Bakıda möcüzələr yaradırıq ki, şəhərimiz gözəlləşsin, ekoloji vəziyyət yaxşılaşsın, insanlar sağlam olsunlar. İçməli su layihəsi həyata keçirilibdir. Dünyanın ən böyük ultrasüzgəcli sutəmizləmə qurğusu Azərbaycanda tikilib və istifadəyə verilibdir. İndi əhalimizin böyük hissəsi Dünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyan layihələrdir.

Bakıda yerləşən yod zavodunun bütün qalıqları çıxarılıb. O da bir tərəfdən ekologiyanı zəhərləyirdi. Baxın, bunlar insanların sağlamlığına nə qədər ziyan vururdu. İndi bunların heç biri yoxdur. Hamısını qısa müddət ərzində biz etmişik. Böyük vəsait xərcləmişik, nəyə görə? Çünki insanlar sağlam olsunlar, hava təmiz olsun, ekoloji vəziyyət yaxşılaşsın. Həm Bakıda, həm regionlarda milyonlarla ağac əkilib və bu proses davam etdirilir.

Kənd təsərrüfatının inkişafı bizim üçün həmişə prioritet olub, indiki şəraitdə bunun önəmi daha da artır. Mən şadam ki, ümumi dünya iqtisadi böhranına baxmayaraq, birinci rübdə Azərbaycanda kənd təsərrüfatının istehsalı artıb – 2,7 faiz. Ərzaq təhlükəsizliyi məsələsi əsas prioritetdir və ümid edirəm ki, yaxın zamanlarda biz özümüzü ərzaqla tam şəkildə təmin edəcəyik. Bu məqsədlə son illər ərzində böyük işlər görülür və daha da böyük işlər görülməlidir. Fermerlərə dəstək verilir, subsidiyalarda yeni yanaşmalar təklif olunur. Əminəm ki, hər bölgə, rayon üzrə xüsusi bir subsidiya siyasəti aparılmalıdır. Çünki Azərbaycan çoxiqlimli bir ölkədir. Doqquz iqlim zonamız var. Məxsusi olaraq hər bir zona üçün xüsusi kənd təsərrüfatı məhsulları yetişdirilməlidir və hər bir rayonun, hər bir iqtisadi zonanın öz subsidiya paketi olmalıdır. Belə olan

halda kənd təsərrüfatı ixtisaslaşmış şəkildə və daha böyük səmərə ilə inkişaf edəcək.

Biz kənd təsərrüfatı məhsullarının ixracını daha da sürətləndirməliyik. Bu məqsədlə təşviq sistemi işə salınır. Bu, bizim üçün birinci təcrübədir. Xaricə öz məhsulunu çıxaran qurumlara, şirkətlərə dövlət kompensasiya verəcəkdir. Baxaq, bu sistem necə işləyəcək. Bir çox ölkələrdə bu, özünü doğrultdu və hesab edirəm ki, bizdə də özünü doğrultmalıdır. Ancaq yenə də bu, bizim üçün bir sınaqdır. Biz bu təşəbbüsü etdik ki, ixracı stimullaşdıraq və ümid edirəm, buna nail olacağıq.

Ərzaq təhlükəsizliyi bizim üçün həmişə prioritet olubdur, bu gün də prioritetdir. Bu, imkan verir ki, biz özümüzü öz məhsullarımızla, keyfiyyətli və təmiz məhsullarla təmin edək, idxaldan asılılığı azaldaq, valyuta xaricə getməsin. Bu, birinci mərhələdir. İndi nəzərə alsaq ki, bizim valyuta gəlirlərimiz böyük dərəcədə azalıb, – əgər neftin qiyməti üç-dörd dəfə düşübsə, bu, o deməkdir ki, bizim valyuta gəlirlərimiz üç-dörd dəfə azalıbdır, – ona görə biz bunu kənd təsərrüfatı məhsullarının ixracı ilə müəyyən dərəcədə kompensasiya etməliyik. Biz vaxtilə Azərbaycanda çox inkişaf etmiş sahələri bərpa etməliyik. Ulu öndər Heydər Əliyevin zamanında – 1970-ci illərdə Azərbaycanın ümumi daxili məhsulunda neft amili çox aşağı faiz təşkil edirdi. İndi mənə məlumat verilir, məsələn, yüngül sənaye 23 faiz təşkil edirdi, kənd təsərrüfatı, maşınqayırma bəlkə ondan da daha böyük faiz təşkil edirdi.

Biz o vaxt kənd təsərrüfatının sürətlə inkişaf edən sektorlarını inkişaf etdirməliyik, ilk növbədə pambıqçılığı. Çünki pambıq elə məhsuldur ki, onun üçün bazar axtarmağa ehtiyac yoxdur. İndi dünyada bazarlar uğrunda mübarizə gedir. Xüsusilə, son vaxtlar sanksiyalarla əlaqədar müəyyən bazarlar bəzi məhsullar üçün bağlanıb. Əlbəttə ki, bunun bizə aidiyyəti yoxdur. Ancaq indi biz öz kənd təsərrüfatı məhsullarımızı başqa bazarlara çıxarmaq üçün gərək səylər göstərək. Ancaq pambıq məhsulunu birjalarda satmaq üçün heç bir problem yoxdur. Vaxtilə yenə də ulu öndər Heydər Əliyevin zəhməti, səyləri nəticəsində pambığın istehsalı Azərbaycanda bir milyon tona qalxmışdır. O, 1969-cu ildə hakimiyyətə gələndə, indi mənim dəqiq yadımda deyil, təqribən 100 min, 200 min ton pambıq istehsal olunurdu. Sonralar isə bir milyon, ildə orta hesabla 800 min, 900 min ton pambıq istehsal edilirdi.

Keçən il Azərbaycanda cəmi 35 min ton pambıq yığılıbdır. Bir milyon hara, 35 min hara?! Özəl qurumlar bunu təkbaşına edə bilməyəcəklər. Pambıqçılığı inkişaf etdirmək üçün dövlət birinci rol oynayır, ikinci yerli icra orqanları və ondan sonra özəl qurumlar. Ona görə, göstəriş verilmişdir ki, vəziyyət təhlil edilsin və təhlil edilib. Mənə artıq təkliflər verilibdir. Biz pambıqçılığı bərpa etməliyik. Keçən il 18 min hektar əkilibdir. Bu il mən qarşıya vəzifə qoymuşam ki, 50 min hektar əkilsin və əkin yəqin ki, yaxın zamanlarda başlanacaqdır. Əgər keçən il biz 35 min ton pambıq yığa bilmişiksə, bu il 50 min hektar əkilərsə və məhsuldarlığı lap aşağı səviyyədə, 20 sentnerdən götürsək, bu, 100 min ton pambıq edəcək – keçən ildəkindən üç dəfə çox. Ancaq indi yeni texnologiyalar, o cümlədən suvarma texnologiyaları mövcuddur və biz məhsuldarlığı artırmaqla daha da böyük nəticəyə çata bilərik. 1970-1980-ci illərdə 200-250 min hektar pambıq əkilirdi, keçən il 18 min hektar. Ona görə, məhsuldarlığın artırılması və əkin sahələrinin dövriyyəyə buraxılması, normal suvarmanın təmin edilməsi, toxumla təminat məsələləri öz həllini tapmalıdır və biz bu il 100 min ton pambıq gözləyirik. Ancaq bir il ərzində, gələn ilin əkininə qədər bütün lazımi tədbirlər görülməlidir ki, 2017-ci ildə, – mən indi rəqəm demək istəmirəm, – Azərbaycanda 100 min tondan bir neçə dəfə çox pambıq yığılmalıdır. Pambıq satılacaq, ölkəmizə lazım olan valyuta gələcəkdir.

Bununla bərabər, baramaçılıq kimi çox vacib olan kənd təsərrüfatı sahəsini də itirmişik. Əlbəttə, burada qiymətlər çox önəmli rol oynayır, bu, zəhmətkeşlərdən hansı qiymətə alınacaq. Pambıqçılıqda da biz bunu artırmışıq, lazım olarsa bir daha artıracağıq və şərait yaratmalıyıq. Həmçinin baramaçılıq sektoru da inkişaf etməlidir. Sovet vaxtında bir sıra rayonlarda bu sahə çox uğurla inkişaf edirdi, bol məhsul əldə olunurdu və insanlar yaxşı pul qazanırdılar. Mən digər sahələr üzrə konkret tapşırıqlar vermişəm, o cümlədən tütünçülük, çayçılıq sürətlə inkişaf etməlidir.

Üzümçülük. Son illər ərzində dövlətin dəstəyi hesabına bu sahə inkişaf edir, üzüm bağları salınır, genişləndirilir. İri fermer təsərrüfatlarının fəaliyyəti xüsusilə taxılçılıq sahəsində dönüşə gətirib çıxaracaq ki, biz taxıl idxalından asılı olmayaq. Mən hesab edirəm ki, buna nail olmaq mümkündür. Bununla bərabər, aqroparklar salınır, yeni emal müəssisələri yaradılır. Azərbaycan dünya bazarlarına keyfiyyətli və bol kənd təsərrüfatı məhsulu çıxaran, ixrac edən ölkə kimi tanınmalıdır. Qarşıya bu vəzifə qoyulub və əminəm ki, biz bu məqsədə çatacağıq.

Bir sözlə, bu il biz gərgin işləməliyik ki, bütün vəzifələr icra edilsin, Azərbaycan iqtisadiyyatı inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar. Sağ olun.

# Prezident İlham Əliyevin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib

## Təhlükəsizlik Şurasının iclası

Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib
Dövlətimizin başçısı iclasda çıxış edib.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı



– Bu gün Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Təmas xəttində yerləşən mövqelərimizə hücum çəkmişdir. Təmas xəttinə yaxın yerlərdə yerləşən yaşayış məntəqələrini atəşə tutmuşdur.

Bu silahlı təxribat nəticəsində itkilərimiz olmuşdur. Hərbiçilərimiz və mülki şəxslər həlak olmuşlar. Xahiş edirəm ki, həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edək.

***

Həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

***

Prezident **İlham ƏLİYEV:** Allah rəhmət eləsin. Allah onların qohumlarına, yaxınlarına səbr versin. Yaralananlara Allahdan şəfa diləyirəm.

Göstəriş verirəm ki, Nazirlər Kabineti həlak olanların ailələrinə maddi yardım göstərmək üçün təkliflər irəli sürsün və Müdafiə Nazirliyi döyüş əməliyyatlarında fərqlənmiş, Vətən uğrunda qəhrəmancasına döyüşmüş insanları təltif etmək üçün mənə təkliflər təqdim etsin.

Bu, Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır. Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan-Ermənistan sərhədində, Qazax istiqamətində də oxşar təxribat törədilmişdir. Bizim mövqelərimizə Ermənistanın təxribatçı qrupları hücum çəkmişlər. Bu hücum nəticəsində iki hərbçimiz həlak olmuşdur. Düşmənə layiqli cavab verilmişdir. Düşmən yerinə oturduldu.

Yəni, bunu demək istəyirəm ki, bugünkü təxribat da Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin təzahürüdür. Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu gün bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu.

Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda, daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, – onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, – biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq.

Ermənistanın bu hərəkətlərinin də səbəbi mənim üçün sirr deyil. Mən dəfələrlə həm Azərbaycan ictimaiyyətinə, həm bu məsələ ilə bağlı olan vasitəçilərə, vasitəçilik edən ölkələrin başçılarına öz fikirlərimi bildirmişdim. Ermənistan sülh istəmir. Er-

mənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda, keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər.

Xatırlayırsınız, 2014-cü ildə Fransa Prezidenti cənab Olland Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü təşkil etmişdi. Görüş çox konstruktiv şəraitdə keçmişdi və görüşün nəticəsi ümidlər verirdi. Orada biz, eyni zamanda, təmas xəttində təhlükəsizlik, etimad tədbirlərinin gücləndirilməsi haqqında danışırdıq. Ancaq o görüşdən iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda – Ağdam rayonunun ərazisində özlərinin dediyi kimi, 47 min şəxsi heyətin iştirakı ilə hərbi təlimlər keçirməyə başlamışdı. Bu, sırf təxribat xarakterli bir addım idi. Bunun nə mənası var idi? Xüsusilə Parisdə keçirilmiş uğurlu sayılan görüşdən sonra.

Bir neçə gün Azərbaycan Ordusu özünü çox təmkinlə aparırdı. Mən də göstəriş vermişdim ki, biz təxribatlara uymayaq. Ancaq ondan sonra düşmən daha da azğınlaşmışdır, bizim mövqelərimizə hücum çəkmişdir, hərbi helikopterləri işə salmışdır. Azərbaycan Ordusu helikopterin birini məhv etmişdir. Bu, Ermənistana lazım idi. Onların təxribatı idi. Lazım idi desinlər ki, Azərbaycan atəşkəsi pozur. Azərbaycan burada özünü aqressiv aparır və sair.

Bugünkü təxribat da, bax, bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur. Ondan sonra Azərbaycan Ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, biz sadəcə olaraq təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq.

Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Əfsuslar olsun ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir. Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya və Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər: status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır.

Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçılar işğal edilmiş torpaqlardan çıxmalıdır. Ermənistan rəhbərliyi bunu istəmir. Əsas məsələ bundan ibarətdir. Onlar istəyirlər ki, bu, sonu olmayan prosesə çevrilsin. İstəyirlər ki, danışıqlar bundan sonra da iyirmi il davam etsin. Onlar özlərini danışıqlar masası arxasında qeyri-səmimi aparırlar. Bu yaxınlarda Rusiya Prezidenti və Rusiyanın xarici işlər naziri digər həmsədrlərlə birlikdə müəyyən təkliflər irəli sürmüşlər. Biz bunu alqışlayırıq. Həm görüş əsnasında və rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı öz fikirlərini bildirmişlər.

Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilmişdir. Görüşlər onu göstərir ki, Amerika tərəfi münaqişənin tezliklə həll olunması üçün çox maraqlıdır. Bilirəm ki, Ermənistan rəhbərinə də müəyyən siqnallar, mesajlar verilmişdir. Yəni, son vaxtlar həmsədrlər, onların dövlətlərinin başçıları çalışırlar ki, məsələ həll olunsun. Nüvə Sammiti hələ başa çatmamış Ermənistan bu çirkin təxribatı törədir, sülh prosesinə çox böyük zərbə vurur. Bundan istifadə etməyə çalışır ki, Azərbaycanı günahlandırsın.

Onların sərəncamında olan satqın kütləvi informasiya vasitələri, satqın siyasətçilər, korrupsiyaya uğramış politoloqlar, şərhçilər indi sıraya düzülüblər ki, Azərbaycanı ittiham etsinlər. Əgər indi bəzi ölkələrin mətbuatına nəzər salsanız, görərsiniz ki, birtərəfli məlumat gedir. Azərbaycan ittiham olunur. Döyüşlərlə bağlı təhrif edilmiş məlumatlar verilir.

Ermənistan ordusu bu gün çox böyük zərbə almışdır. Atəşkəs rejimindən sonra ilk dəfədir ki, onlara belə sarsıdıcı zərbə vuruldu. Bunun günahkarı onlar özləridir. Ancaq çalışırlar ki, həm ictimai rəyi çaşdırsınlar, itkiləri gizlətsinlər. Eşitdiyimə görə, Ermənistan rəhbəri ictimaiyyətə itkilərlə bağlı qeyri-dəqiq məlumat ötürməyə çalışır. Bu, açıq-aydın onu göstərir ki, bunlar sadəcə olaraq öz xalqını aldatmaq istəyirlər. Bu gün Ermənistan tərəfi bütün imkanlardan – diaspor təşkilatlarından, müxtəlif ölkələrdə onların agentlərindən, korrupsiyaya uğramış siyasətçilərdən istifadə edir ki, bütün günahı Azərbaycanın boynuna qoysun.

Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz

torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm.

Ermənistan bütün beynəlxalq normaları pozubdur. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, digər təşkilatların qərar və qətnamələrini saymır. İşğal edilmiş torpaqlarda bütün binaları, tarixi, dini abidələrimizi vəhşi kimi dağıdıb. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş torpaqlarda iki dəfə olmuşdur. Onların məlumatları bizdə var. Bizim məscidlərimiz, qəbirlərimiz, tarixi abidələrimiz, binalarımız, muzeylərimiz dağıdılıb. Bütün qiymətli əşyalar talan edilib. Bu, misli görünməmiş vəhşilikdir. Bu gün İrəvanda ən yüksək kabinetlərdə oturan cəlladlar vəhşicəsinə Xocalı soyqırımını törətmişlər. Onlar bunun cavabını verməlidirlər, yoxsa yox?!

Biz səbr, dözümlülük, konstruktivlik göstəririk. Baxmayaraq ki, biz 20 ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Yenə də çalışırıq ki, məsələ sülh yolu ilə öz həllini tapsın. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz müharibə istəmirik. Biz istəmirik ki, qan tökülsün. İstəmirik ki, gənc insanlar həlak olsunlar. Biz istəmirik ki, anaların göz yaşları tökülsün. Azərbaycan, Ermənistan analarının göz yaşları tökülməsin. Ancaq biz öz haqqımızı tələb edirik.

Bir daha demək istəyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq həll etmək istəyirik. Biz bundan sonra da sonu bəlli olmayan prosesdə sadəcə olaraq görüntü naminə iştirak etmək fikrində deyilik. Bunu vasitəçilərə də demişik, bunu Ermənistan tərəfi də bilir. Ona görə də məsələnin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır. Bunun başqa yolu yoxdur. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyini düşünürsə, bu addımı atmalıdır. Ermənistanda hökm sürən kriminal diktatura rejimi öz ölkəsini uçuruma aparır. Ermənistanda demoqrafik vəziyyət kritik həddə çatıbdır. İqtisadiyyat dağılıb, bütün azadlıqlar tapdalanır, diktatura hökm sürür. Kriminal rejim ilk növbədə erməni xalqının qənimidir. Ona görə onların gələcəyi yalnız qonşu ölkələrlə normal münasibətlərdən keçir. Ancaq hansı normal münasibətlərdən söhbət gedə bilər ki, XXI əsrdə qonşu ölkənin torpaqlarının 20 faizini işğal edəsən, soyqırımı törədəsən, sonra isə soyqırımına məruz qalan xalqı günahlandırasan ki, atəşkəsi pozur.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi Azərbaycanda rahat yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycan bir çox ölkələr üçün nümunədir, multikulturalizm məkanıdır, tolerantlıq diyarıdır.

Bütün münaqişələr öz həllini bir prinsip əsasında tapmalıdır. Xalqların öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktı məhz bunu diktə edir. Ona görə bir daha demək istəyirəm ki, biz münaqişənin həlli ilə bağlı öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Bununla bərabər, biz danışıqlara sadiqik, bundan sonra da çalışacağıq ki, bu münaqişə sülh yolu ilə öz həllini tapsın. Bununla bərabər, biz Ordumuzun gücünü daha da artıracağıq. Ona görə artıracağıq ki, bax, bu təxribatlar, erməni təxribatları cavabsız qalmasın. Hesab edirəm ki, bu gün – aprelin 2-si onlar üçün yaxşı dərs olacaqdır.

***

Sonra müdafiə naziri **Zakir Həsənov** məruzə etdi.

Bildirildi ki, aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələri müxtəlif istiqamətlərdən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma keçmiş və yaşayış məntəqələrimizi atəşə tutmuşlar. Bu təxribat xarakterli hücumların nəticəsində hərbi qulluqçularımız qəhrəmancasına həlak olmuşlar. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri bütün istiqamətlərdən əks hücuma keçərək düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurmuşlar.

Nazir Zakir HƏSƏNOV dedi:

– Möhtərəm Prezident, cənab Ali Baş Komandan, məruzə edirəm ki, son zamanlar erməni silahlı qüvvələri cəbhəboyu yerləşən ərazilərdə, kəndlərdə təxribatları artırıbdır, əhaliyə qarşı iriçaplı silahlardan və artilleriya qurğularından istifadə edir. Son hadisələr göstərir ki, əhali arasında itkilər çoxalıb. Bu təxribatların qarşısını almaq üçün əməliyyat şəraitini qiymətləndirərək qərar qəbul olunmuşdur ki, erməni silahlı qüvvələrinin atəş nöqtələrinə və artilleriya qurğularına zərbələr endirilsin və onların hərbi birləşmələri bizim kəndlərdən daha uzaq yerə çəkilməyə məcbur edilsin. Bununla yanaşı,



ehtimal olunan istiqamətdə erməni silahlı qüvvələrinin ehtiyatlarının hərəkətini də nəzərə alaraq, aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupları 3 istiqamətdə planlı şəkildə tədbirlər həyata keçirmişdir. Əməliyyat şəraitini nəzərə alaraq, Talış və Seysulan kəndləri, bir də Horadiz istiqamətində olan təpələr aparılan döyüş əməliyyatları ilə ələ keçirilmişdir. Bu əməliyyatın əsas məqsədi təxribatların qarşısının alınması və bizim yaşayış məntəqələrinə atəş nöqtələrinin təsirinin azaldılması idi.

Məruzə edirəm ki, əməliyyat vaxtı erməni silahlı qüvvələri Madagiz, Ağdərə və digər yaşayış məntəqələrindən ehtiyatları hərəkətə gətirərək döyüş bölgəsinə yerləşdirmək məqsədilə əməliyyat keçirmişlər. Bunun da qarşısının alınması məqsədilə Silahlı Qüvvələrimiz həmin istiqamətlərdə döyüş tədbirləri həyata keçirmiş və zərbələr endirmişlər. Erməni silahlı qüvvələri bu zərbələr nəticəsində həm canlı qüvvə, həm də texnika sarıdan çox böyük itkilər vermişdir. Məruzə edirəm ki, Silahlı Qüvvələrimiz əməliyyat şəraitini nəzərə alaraq həmin istiqamətlərdə və yüksəkliklərdə öz mövqelərini möhkəmləndirmişdir. Gün ərzində erməni silahlı qüvvələrinin təxribatlarının qarşısı uğurla alınmışdır. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qalmışdır. Bizdə olan məlumata görə, 100-ə yaxın düşmən məhv edilmiş və bir neçə yüz düşmən yaralanmışdır. Çoxlu sayda zirehli texnika, artilleriya qurğuları sıradan çıxarılmışdır. Əməliyyat şəraitini və erməni silahlı qüvvələrinin əsas hərbi hissələrinin Madagiz yaşayış məntəqəsində yerləşməsini nəzərə alaraq oraya da zərbələr endirilmişdir. Onu da məruzə edirəm ki, bir neçə hərbi top hissəsi Madagiz yaşayış məntəqəsindən bizim mövqelərə, bir də yaşayış məntəqələrinə birbaşa zərbələr endirirdilər.

Məruzə edirəm ki, bütün əməliyyat şəraiti nəzərə alınmaqla, Silahlı Qüvvələrimiz tədbirləri davam etdirir, cəbhəboyu əməliyyat şəraitini tam nəzarət altında saxlayır və gözlənilən bütün təxribatların qarşısını almağa hazırdır.

***

Prezident **İlham ƏLİYEV:** Onu da bildirmək istəyirəm ki, bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyənin Baş naziri Əhməd Davudoğlu mənə telefonla zəng etmiş, həlak olanlarla bağlı başsağlığı vermiş, eyni zamanda, öz dəstəyini ifadə etmişlər. Bununla bərabər, Belarus Prezidenti Aleksandr Lukaşenko da mənə zəng etmiş, vəziyyətlə maraqlanmış və öz narahatlığını ifadə etmişdir.

İndi biz məsələləri daha geniş şəkildə müzakirə edəcəyik, gələcək planlarımız haqqında danışacağıq. Bir daha demək istəyirəm ki, bu gün – aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır. Azərbaycan Ordusunu, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bu böyük qələbə münasibətilə təbrik edirəm.

# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

## Ulu öndər Heydər Əliyevin məzarına ziyarət





Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür.





Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və gül dəstələri qoydular.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak edib

**Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyası keçirilmişdir**



Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Artıq 13-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə silsilə təbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri yad olunur. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri də ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə silsilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.





Hər il xalqımızın xilaskar oğlunun doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Milli Məclis Mehriban Əliyevanın təşəbbüskarı olduğu “28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında” qərar layihəsini qəbul edib

**Milli Məclisin “28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında” qərar layihəsinin müzakirəsinə həsr olunan xüsusi iclası**



Mayın 20-də parlamentin Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüskarı olduğu “28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında” qərar layihəsinin müzakirəsinə həsr olunan xüsusi iclası keçirilib.

İclası Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov açıb.

Mehriban Əliyeva iclasda çıxış edib:

– Hörmətli həmkarlar, ölkəmizin ən dəyərli humanizm ənənələrinə əsaslanaraq, 28 May – Respublika Günü münasibətilə amnistiya elan olunmasını təklif edirəm.

2007-ci ildən başlayaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları əsasında 30 minə yaxın məhkum müxtəlif növ cəzalardan azad edilmişdir. 2007-ci, 2009-cu və 2013-cü illərdə Fondun təşəbbüsünü dəstəkləyən və minlərlə insana azadlıq bəxş edən həmkarlarımın hər birinə dərin minnətdarlığımı bildirirəm.

Heydər Əliyev Fondu özünün 12 illik fəaliyyəti ilə həm ölkəmizdə, həm xaricdə böyük hörmət və inam qazanmış bir təşkilatdır. Fond hər bir addımında, hər bir fəaliyyətində insanpərvərlik və humanizm ideyalarını rəhbər tutur, qayğı və yardıma ehtiyacı olan insanlara daim kömək etməyə çalışır. Təsadüfi deyil ki, bu gün bizə üz tutan insanlar Heydər Əliyev Fondunu son ümid yeri kimi qiymətləndirirlər və biz bu ümidi hər zaman doğrultmağa çalışmışıq.

Bu gün azadlıqdan məhrum olmuş minlərlə həmvətənimizin ən böyük ümidi azadlığa çıxmaq, ailələrinə qovuşmaq və normal həyat tərzini qurmaqdır. Onları bağışlamaq, onlara yeni şans vermək həyatlarında başqa yolu, cinayətə yer olmayan, qanunlara hörmətlə yanaşma prinsiplərinə əsaslanan yeni ömür yolunu vermək de-



məkdir. Cinayət törədən hər bir insan öz səhvini, təbii ki, dərk etməlidir və gələcəkdə bu səhvlərə yol verməməlidir. Eyni zamanda, həm dövlətimiz, həm ictimaiyyətimiz, hər birimiz azadlığa çıxan insanlara onların normal həyat tərzini qurmasında yardım etməliyik.

Hörmətli həmkarlar, amnistiya aktının layihəsinə əsasən, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum edilmiş bütün şəxslər cəzadan azad ediləcəklər. Bundan əlavə, bir sıra cinayətlərə görə məhkum edilmiş qadınlar, yetkinlik yaşına çatmayanlar, əlillər, qoca və ahıllar, öhdəsində yetkinlik yaşına çatmayan və ya əlil övladı olanlar və bəzi digər kateqoriyalardan olan şəxslər azadlıqdan məhrumetmə cəzasından azad ediləcəklər. Xüsusilə diqqətinizə çatdırmaq istərdim ki, amnistiya aktı Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə iştirak etmiş şəxsləri, həmçinin bu döyüşlərdə həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumlarını əhatə edəcək. Bundan başqa, islah işləri, ictimai işlər, cərimə cəzalarına məhkum edilmiş şəxslərə də amnistiya şamil ediləcək. Ümumilikdə, 10 min məhkumun amnistiya aktının təsiri altına düşəcəyi, onlardan 3 min 500-ə yaxın şəxsin cəzaçəkmə müəssisələrindən azad ediləcəyi gözlənilir.

Hörmətli həmkarlar, hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək olar, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz yenidən cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün onlara şans verməliyik.

Əminəm ki, amnistiya aktı bir daha Azərbaycan dövlətinin gücünü nümayiş etdirəcək. Ümidvaram ki, amnistiyanın şamil olunacağı şəxslər cəmiyyətimizin layiqli vətəndaşları olmaq şanslarını istifadə edəcəklər. Diqqətinizə görə çox sağ olun.

Müzakirələrdən sonra “28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında” qərar layihəsi səsə qoyularaq yekdilliklə qəbul edilib.

# Baş Prokurorluqda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirilmişdir



Mayın 6-da Baş Prokurorluqda xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Mərasim iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində müstəqil Azərbaycan Respublikasının memarı və yaradıcısı Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoymuşlar.

Mərasimdə məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, Azərbaycan Respublikasının müasir inkişaf tarixi dahi şəxsiyyət Heydər Əliyevin adı, onun dövlətçilik siyasəti ilə ayrılmaz şəkildə bağlıdır. Müstəqilliyimizin xilaskarı kimi tarixə düşən Heydər Əliyevin siyasi irsi bugünkü uğurlarımızın əsasını təşkil edir. Bütün nəsillərə örnək olan bir ömür yaşamış ulu öndər Heydər Əliyevin ictimai-siyasi və dövlət xadimi kimi Azərbaycan xalqı qarşısında ən böyük xidməti ondan ibarət olmuşdur ki, o, sovet sisteminin mövcudluğu şəraitində Azərbaycan Respublikasının gələcək müstəqilliyinin iqtisadi əsaslarını yaratmış və xalqımızı öz müstəqilliyi uğrunda mübarizəyə hazırlamış, dövlətçiliyimiz üçün məhv olma qorxusu yarandığı illərdə həyatını təhlükə qarşısına qoyaraq, radikal müxalifət və digər destruktiv qüvvələrin cinayətkar hərəkətlərinin qarşısını almaqla dayanıqlı sabitlik və əmin-amanlıq şəraitini formalaşdırmış, Azərbaycanın qüdrətli bir dövlətə çevrilməsini şərtləndirən misli görünməmiş yenidənqurma və quruculuq işlərini həyata keçirmişdir.

Heydər Əliyevin 15 iyun 1993-cü ildə Azərbaycana xilasedici qayıdışı müstəqil tariximizin dönüş nöqtəsinə çevrilməklə, xalqın itirilmiş inamını özünə qaytarmış və gələcəyə olan ümidlərini artırmış, Azərbaycan parçalanıb dağılmaq, müstəqilliyini itirmək və vətəndaş müharibəsi təhlükəsindən xilas olmuş, qısa bir müddət ərzində dövlət və hakimiyyət böhranına, xaos və anarxiya şəraitinə son qoyulmuş, torpaqlarımızın işğalı prosesinin qarşısını alan atəşkəs barədə razılaşma əldə edilmişdir. Çoxsaylı dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı qətiyyətlə alınmaqla əmin-amanlıq şəraiti forma-



laşdırılmış, insanların dinc yaşaması üçün təhlükə yaradan cinayətkarlığın hakimiyyətə meydan oxuması, qanunsuz silahlı birləşmələrin mövcudluğu kimi neqativ təzahürlər aradan qaldırılmaqla kriminogen durum stabilləşdirilmişdir.

Azərbaycanda dayanıqlı ictimai-siyasi sabitlik yaradıldıqdan sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkə miqyasında hərtərəfli iqtisadi islahatlara, bazar iqtisadiyyatına hərtərəfli keçidi şərtləndirən yeni iqtisadi siyasətin reallaşdırılmasına başlanılmışdır. Yeni neft strategiyasının uğurla reallaşdırılmasının nəticəsi olaraq, 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi»nin imzalanması və digər mühüm layihələrin reallaşdırılması təmin edilməklə, irimiqyaslı xarici investisiyaların respublikamıza axınına şərait yaradılmış, genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi, uğurlu makroiqtisadi sabitləşmə siyasəti nəticəsində inflyasiyanın artım tendensiyasının qarşısı alınmış, Azərbaycanın dünya iqtisadiyyatına hərtərəfli inteqrasiyası, ən əsası əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-2003-cü illər ərzində Azərbaycan Respublikasında hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda mühüm addımlar atılmaqla, milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü hüquqi islahatlar aparılmışdır. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə əsaslanan və memarı Heydər Əliyev olan müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ilə hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməli qoyulmuşdur, hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi yaradılmaqla qanunvericilik, icra və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Çoxpartiyalılıq əsasında demokratik seçkilər keçirilməsi təcrübəsinin formalaşdırılması, söz və mətbuat azadlığı, siyasi partiyalar və qeyri-hökumət təşkilatlarının maneəsiz fəaliyyəti üçün bütün imkanların yaradılması demokratik dövlət quruculuğu yolunda atılan mühüm addımlar olmuşdur.

Diqqətə çatdırıldı ki, Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyin maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarının müəllifi kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur. Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yeni inkişaf və təkmil-



ləşmə dövrünün əsasını qoyan «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramının» əhəmiyyəti qeyd edildi.

Bildirildi ki, Dövlət başçısı cənab İlham Əliyevin yürütdüyü dövlətçilik siyasəti, ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsini əbədiləşdirən möhtəşəm tədbirlər kimi, onun müəyyənləşdirdiyi strateji inkişaf kursunun reallaşdırılmasını və doğma Azərbaycanımızın hərtərəfli tərəqqisini təmin edir. Belə ki, bütövlükdə Azərbaycanın və ayrı-ayrılıqda hər bir regionun hərtərəfli sosial-iqtisadi inkişafına nail olunmuş, sivil dövlət və vətəndaş cəmiyyəti formalaşdırılması yolunda irəliyə doğru inamlı addımlar atılmış, yüksək iqtisadi inkişaf göstəricilərinə nail olan ölkəmizin dünya dövlətləri birliyinə inteqrasiyası prosesləri sürətlənmiş, milli maraqlarımıza uyğun olan möhtəşəm iqtisadi layihələrin reallaşdırılması təmin edilmişdir. Son illər ərzində ciddi və yüksələn xətlə inkişafa nail olan Azərbaycan Respublikasında bu müsbət tendensiyalar 2016-cı ildə də eyni intensivliklə davam etməkdədir.

Xüsusi vurğulandı ki, Silahlı Qüvvələrin formalaşdırılması, ordumuzun ən müasir hərbi texnika ilə təchiz olunması, qürur duyduğumuz Azərbaycan Ordusunun qazandığı nailiyyətlər də ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurlarındandır. Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən hərbi islahatların aparılmasına göstərilən gündəlik diqqət və qayğı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh danışıqları ilə həll edilməsi yolunda böyük səbr və təmkinlə həyata keçirilən tədbirlərin erməni təcavüzkarlarının məkrli niyyəti üzündən baş tutmayacağı təqdirdə Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızı erməni işğalçılarından təmizləyə biləcəyinə xalqın inamını daha da artırır.

Çıxışının sonunda Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, sivil və demokratik məzmunlu dövlət təsisatı kimi yenidən formalaşmasına görə ulu öndər Heydər Əliyevin şəxsiyyətinə borclu olan Azərbaycan Prokurorluğunun kollektivi onun ideyalarına sadiqdir və bütün səylərini həmin ideyaların həyata keçirilməsinə, dövlət müstəqilliyimizin, sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin yekununda ümummilli liderin xatirəsinə həsr olunmuş Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış «Vətənə, xalqa həsr edilən ömür» adlı film nümayiş etdirilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Pokurorluğunda ümummilli lider Heydər Əliyevin 93 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir

Mayın 7-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 93 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, Heydər Əliyev Muzeyində olmuşlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev məruzə ilə çıxış edərək qeyd etdi ki, 10 may günü hər zaman fəxrlə yad edilən bir gündür. Ona görə ki, xalqımızın ümummilli lideri, böyük dövlət xadimi, dahi siyasətçi, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev 1923-cü ilin bu günündə qədim Naxçıvan şəhərində dünyaya gəlmişdir. XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Çağdaş tariximizdə Azərbaycan dövlətinin özünütəsdiq faktına çevrilmiş Heydər Əliyev fenomeni respublikaya rəhbərliyi dövründə möhkəm təməllərə əsaslanaraq fundamental dövlətçilik ənənələri formalaşdırmış, milli müstəqilliyimiz əbədiləşmişdir.

Qeyd olundu ki, bu dahi insanın ümummilli lider obrazı ilk növbədə onun şəxsi keyfiyyətlərində özünü təcəssüm etdirir. Ulu öndərin şəxsi keyfiyyətlərinin prinsipiallıq, qətiyyətlilik və siyasi iradə komponentləri onun üzərinə götürdüyü tarixi missiyanın uğurunu zərurətə çevirən başlıca amil kimi nəzərdən keçirilir. Ümummilli liderin siyasi kursu Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda demokratik cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi dəyərlərin inkişafı istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Tarixin konkret məqamında ümummilli lider Heydər Əliyevin siyasi kursunun davam etdirilməsininin labüdlüyünü şərtləndirən amillər Azərbaycanın dövlətçilik maraqlarının həyata keçirilməsinə yönəlməsindən ibarət olmuşdur. Belə bir zamanda Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun, milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zərurəti həmin konsepsiyanın uğurlarını öz həyatında yaşayan Azərbaycan xalqının sosial sifarişi kimi ortaya çıxmışdır. Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdıran Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidməti də məhz bundan ibarətdir ki, ümummilli lider müəllifi olduğu ənənələrin davamlılığını təmin etmiş, dərin zəkası hesabına respublikamızın gələcək uğurlarına təminat yaratmışdır.

Ulu öndər Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası dövrü  müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin uğurla və ardıcıl olaraq yerinə yetirilməsini özündə ehtiva edir. Azərbaycanın böyük və sürətli inkişaf mərhələsinə qədəm qoyaraq yeni cəmiyyət parametrləri kəsb etməsi ölkənin inkişafının sadəcə prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə formasında özünü büruzə verirdi. 1970-80-ci illərdə Azərbaycan cəmiyyətinin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halına, Azərbaycan tarixinin isə yeni inkişaf mərhələsinə keçməsi inkaredilməz reallıqdır. Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halına və deməli, yeni tarixi mərhələyə daxil olması da, artıq başqa siyasi reallıqlar çərçivəsində, 1993-cü ildə Heydər Əliyevin qayıdışı ilə birbaşa əlaqədardır.

Heydər Əliyevin ölkənin müasir tarixində xidməti

və həyata keçirdiyi missiyası sistemində özünü büruzə verən əsas cəhətlərdən biri onun Azərbaycanın intibahının əsasını qoymasıdır. Həm də artıq qeyd edildiyi kimi, bu, sadəcə, ənənəvi həyat irəliləyişinin ardıcıllığı sistemindən irəli gələn adi inkişaf yox, keyfiyyət dəyişikliyinə gətirib çıxarmağa qadir olan sürətli yüksəlişdir. Əslində, bu, Heydər Əliyevin quruculuq missiyasının təntənəsi kimi müasir Azərbaycanın yaradılması deməkdir.

Qeyd olundu ki, demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərcmərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu. Ulu öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi. 1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Qanunçuluğun möhkəmləndirilməsini özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardım səviyyəsinin yaxşılaşdırılması təşəbbüsü ilə çıxış etmişdir. Onun qətiyyətli rəhbərliyi altında dövlət–vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyət formalaşdırılmış, dövlət idarəçiliyi demokratikləşdirilmişdir. Özünəməxsus şərəfli tarixi keçmişi, qanunların icrasına ümumi nəzarət, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəngin ənənələri olan Azərbaycan prokurorluğunun fəaliyyəti də siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə ulu öndərimizin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Məhz onun məqsədyönlü fəaliyyəti və həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycanda milli prokurorluq orqanları qanunçuluğun aliliyini təmin edən mükəmməl bir dövlət təsisatı kimi demokratik məzmunda yenidən formalaşmış və inkişaf etmişdir.

Qeyd olundu ki, adı Azərbaycanın tarixinə dahi xilaskar və böyük qurucu kimi həkk edilən Heydər Əliyevin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin inkişafının nəinki ideya mənbəyi, habelə möhtəşəm səfərbəredici amildir. Ümummilli liderin təlatümlərdən çıxararaq qurub-yaratdığı Azərbaycan indi ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir. Xilaskarlıq missiyasının yaratdığı quruculuq ab-havası yeni, müasir Azərbaycanın real siyasi və iqtisadi gerçəklərində təzahür edir.

Muxtar respublika prokuroru sonda əminliklə ifadə etdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşmış Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, onun əbədiliyi və daimiliyi üçün bütün təminatlar yaratdığı dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində həmişə yaxından iştirak edəcəkdir.

Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluqda əməliyyat müşavirəsi keçirilmişdir

Mayın 19-da Baş prokuror Zakir Qaralovun sədrliyi ilə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn və prokurorluq orqanları qarşısında duran vəzifələrin müzakirəsinə dair əməliyyat müşavirəsi keçirilmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Zakir Qaralov dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilmiş uğurlu islahatlar, ardıcıl olaraq reallaşdırılan dövlət proqramları, yürüdülən praqmatik siyasət, dövlət idarəçiliyində şəffaflığın təmin olunması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, ictimai iştirakçılığın genişləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, yeni texnologiyaların və elektron xidmətlərin tətbiqi üzrə genişmiqyaslı və davamlı tədbirlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Baş Prokurorluğun Tədbirlər Planı təsdiq edilməli və nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrası istiqamətində zəruri tədbirlər görülməlidir.

Müşavirədə məruzə ilə çıxış edən Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirlər, icra edilmiş Fəaliyyət Planları, ixtisaslaşmış orqanlar, o cümlədən bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı olan – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılması, fəaliyyəti, strukturu və ştat tərkibinin formalaşması, habelə korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq qurumlarla faydalı əməkdaşlıq barədə ətraflı məlumat vermişdir.

Qeyd edilmişdir ki, qəbul olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməklə anti-korrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, həyata keçirilən iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi, vətəndaşların maarifləndirilməsi, vətəndaş cəmiyyəti nümayəndələri ilə təmasın daha da gücləndirilməsi, korrupsiya halları ilə üzləşmiş vətəndaşların ixtisaslaşmış cinayət təqibi orqanı kimi Baş İdarəyə birbaşa və maneəsiz müraciət etmək imkanının təmin edilməsi, vətəndaşların dövlət orqanlarına etimadının artırılması, "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi, dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsinin aparılması, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlar və xarici ölkələrin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq əlaqələrinin təkmilləşdirilməsi, açıq hökumət prinsipləri, dövlət idarəçiliyində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini özündə ehtiva etmişdir.

Müşavirədə Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynov "Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan elektron xidmət növlərinin siyahısının təkmilləşdirilməsi məqsədilə prokurorluq orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində görülən işlər barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, Baş Prokurorluqda hazırlanmış "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının tətbiqi təmin olunmaqla informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə edilərək mərkəzi aparatla tabe prokurorluqlar arasında video-konfras sistemi quraşdırılmaqla onlayn rejimdə vətəndaşların qəbulu həyata keçirilmişdir. Eyni zamanda Baş Prokurorluğun veb-saytının proqram hissəsinin daha müasir və təhlükəsizlik standartlarına cavab verən proqramla əvəz edilməsi prosesinin yekunlaşdırılması və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirilən tədbirlərin davam etdirildiyi müşavirə iştirakçılarının diqqətinə çatdırılmışdır.

Müşavirədə prokurorluq orqanlarında əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər bir nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması Baş Prokurorluğun əlaqədar struktur qurumları və bütün tabe prokurorluqlardan tələb edilmişdir.

Bundan başqa, prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilməklə vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi, bu sahədə müasir informasiya kommunikasiya texnologiyalarından istifadə edilməsi, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin gündəlik nəzarətdə saxlanılmaqla, "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" əmrin qeyd-şərtsiz icrası və həmin fəaliyyət istiqaməti üzrə işin düzgün təşkili ilə bağlı konkret tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror bildirmişdir ki, qarşıdakı dövr ərzində Baş İdarə beynəlxalq standartlar nəzərə alınmaqla korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini artırmalı, antikorrupsion qanunvericiliyin təkmilləşdirilməsi, o cümlədən istintaq sövdələşməsi, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi kimi müddəaların cinayət qanunvericiliyinə daxil edilməsi, eləcə də, elektron informasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi üçün zəruri tədbirlərin görülməsi təmin edilməlidir.

Müşavirənin yekununda "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Baş Prokurorluğun Tədbirlər Planı təsdiq edilmişdir.

## Baş prokuror Avropa Şurasının Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi ilə görüşmüşdür

Aprelin 7-də Baş prokuror Zakir Qaralov Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Ştefan Şennakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş prokuror Ermənistanın silahlı qüvvələri tərəfindən beynəlxalq hüququn normaları pozularaq 25 ildən artıq müddət ərzində Azərbaycan ərazilərinin işğal altında saxlanılması, 1 milyondan artıq azərbaycanlının öz torpaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilməsi, işğal altında olan ərazilərdə bütün infrastruktur və mədəniyyət abidələrinin dağıdılması barədə ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar və dünya dövlətləri işğal faktını təsdiqləmiş, bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü prinsipi rəhbər tutularaq həll edilməsi, qaçqınların öz doğma torpaqlarına qayıtmasını tələb edən çoxsaylı qərarlar qəbul olunmuşdur.

Görüşdə aprelin 2-dən başlayaraq Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni silahlı qüvvələrinin vəziyyəti gərginləşdirərək atəşkəs rejimini pozması nəticəsində Tərtər, Agdam və Füzuli rayonları ərazində yerləşən mülki əhali arasında ilkilərin olması və dinc əhalinin yüzlərlə mülkiyyətinə ziyan vurulması barədə məlumat verilmişdir.

AŞPA ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dinamik inkişaf etdiyini bildirən Baş prokuror, Prezident cənab İlham Əliyevin ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı mütərəqqi qanunvericilik aktları, həyata keçirilən islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün yaradılmış normativ-hüquqi baza və korrupsiyaya qarşı mübarizə sahəsində görülən konkret işlər barədə ətraflı məlumat verərək əməkdaşlığın bundan sonra da möhkəmləndirilməsinə böyük önəm verildiyini xüsusi vurğulamışdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinin prokurorluq orqanları qarşısında prioritet vəzifə olduğunu diqqətə çatdıran Baş prokuror, respublikamızda İnsan hüquqları üzrə Avropa Konvensiyasının implementasiyası, insan hüquqlarının qorunması istiqamətində aparılan işləri xüsusi qeyd etmişdir.

Azərbaycan Respublikasına səfərindən məmnunluğunu ifadə edən Ştefan Şennak ətraflı məlumata görə öz təşəkkürünü bildirməklə ölkəmizin Avropa Şurası ilə əməkdaşlığını təqdir etmiş və məhkəmə-hüquq sistemində aparılan islahatlardan məmnun olduğunu bildirmişdir.

Görüşdə insan haqlarının müdafiəsinin daha da gücləndirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Baş Prokurorluqda olmuşlar

İyunun 16-da Baş prokuror Zakir Qaralov Azərbaycan Respublikasında səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak ilə görüşmüşdür.

Baş prokuror cari ilin aprel ayından başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən beynəlxalq hüququn normalarını kobudcasına pozaraq qadağan edilmiş kimyəvi tərkibli hərbi sursatlardan istifadə edilməsi, qoşunların təmas xəttində atəşkəs rejimini pozması nəticəsində Tərtər, Ağdam və Füzuli rayonlarının ərazisində yaşayan mülki əhali arasında itkilərin olması, dinc əhalinin yüzlərlə əmlakına ziyan vurulması barədə məlumat vermişdir.

Görüşdə Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verildiyi, bu istiqamətdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm işlərin görüldüyü xüsusi vurğulanmışdır.

Həmməruzəçilər son dövrlər Azərbaycan Respublikası Prezidentinin "Məhkum olunmuş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamının və Amnistiya aktı haqqında qərarın qəbul edilməsini humanizm prinsipinin bariz nümayişi kimi qiymətləndirmişlər.

Görüş zamanı Azərbaycanda fikir, söz və məlumat azadlıqlarının, siyasi plüralizm prinsiplərinin həyata keçirilməsinin təmin olunması sahəsində xeyli işlərin görüldüyü qonaqların diqqətinə çatdırılmaqla digər maraq kəsb edən məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılmışdır.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iştirak etmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Türkiyə Ali Məhkəməsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur

Ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 18-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovla görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirərək bu əlaqələrin Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamları ilə dəqiq ifadə edildiyi, iki qardaş ölkənin dövlət başçılarının siyasi iradələri ilə reallaşan nəhəng enerji və nəqliyyat layihələrinin bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına, xalqlarımızın rifahına xidmət göstərəcəyi xüsusi vurğulanmışdır.

Baş prokuror son dövrlər qardaş ölkədə baş vermiş qanlı terror hadisələri nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı başsağlığı verərək tez bir zamanda cinayətkarların müəyyən edilərək layiqli cəza alacağına ümidvar olduğunu bildirmişdir.

Görüşdə aprelin əvvəllərində Azərbaycanın işğal altında olan ərazilərindəki erməni hərbi birləşmələrinin Silahlı Qüvvələrimizin cəbhəboyu mövqelərini artilleriya qurğularından intensiv atəşə tutmaqla beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozaraq mülki əhaliyə qarşı törədilmiş cinayətlər, həmçinin hərbçilərimizin yüksək döyüş hazırlığı sayəsində erməni təxribatının qarşısının qətiyyətlə alınması qonaqların diqqətinə çatdırılmışdır.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri nor-




mativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi və Dövlət ittihamının müdafiəsi üzrə idarənin fəaliyyəti, həmçinin prokurorluq orqanlarının qarşısında duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat vermişdir.

Səmimi qəbul üçün minnətdarlığını ifadə edən İsmayıl Rüştü Cirit rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırladaraq, dövlətlərimiz arasında strateji münasibətlərin mövcudluğu və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə hərtərəfli dəstək verməsini xüsusi qeyd etmişdir.

Nümayəndə heyətinin üzvləri – Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Mehmet Akarca və Ədliyyə Akademiyasının rektoru Yılmaz Akçil çıxış edərək dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hüquq mühafizə orqanları sahəsində də uğurla inkişaf etdiyini vurğulamış və əlaqələrin daha da möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etmişlər.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Tədbirdə Türkiyənin ölkəmizdəki səfiri İsmail Alper Coşkun iştirak etmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir




Azərbaycan Respublikası Baş Prokurorluğu və Hərbi Prokurorluğunun təşkilati üzvü və çoxsaylı prokurorluq əməkdaşlarının fərdi üzvü olduğu, dünya prokurorlarını bir qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir.

Həmin qurumla əməkdaşlıq çərçivəsində aprelin 26-da Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun dəvəti ilə ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru xanım Yanne Holst Hübner və Assosasiyanın Baş müşaviri cənab Rasmus Vandal Fəxri Xiyabana gələrək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür. Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Sonra nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur. Qonaqları salamlayan Baş prokuror Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş qanunverici və institusional tədbirlər, o cümlədən "ASAN xidmət" mərkəzləri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin uğurlu fəaliyyətləri barədə ətraflı məlumat vermiş, Assosiasiya ilə səmərəli əməkdaşlıqdan məmnunluğunu bildirmişdir.

Ölkəmizin ən çox terrordan əziyyət çəkən dövlətlərdən biri olduğunu diqqətə çatdıran Baş prokuror separatçı erməni hərbi birləşmələri tərəfindən beynəlxalq hüququn normaları pozularaq 25 ildən artıq müddət ərzində Azərbaycan ərazilərinin işğal altında saxlanılması, 1 milyondan artıq soydaşlarımızın öz doğma torpaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilməsi, işğal altında olan ərazilərdə bütün infrastruktur və mədəniyyət abidələrinin dağıdılması barədə geniş məlumat vermişdir.

Görüşdə aprelin əvvəllərindən başlayaraq Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni silahlı qövvələrinin vəziyyəti gərginləşdirərək atəşkəs rejimini pozması nəticəsində cəbhəboyu əra-

zilərdə yaşayan mülki əhali arasında itkilərin olması və dinc əhalinin yüzlərlə mülkiyyətinin dağıdılması nəzərə çatdırılmışdır.

Təmsil olunduqları qurumla Azərbaycan Prokurorluğu arasında sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaqlar Azərbaycanın Beynəlxalq Prokurorlar Assosiasiyasında təmsilçiliyinin fəallığı və təşəbbüskarlığı, qurumun fəaliyyətinə verdiyi mühüm töhfələr və görülən digər səmərəli tədbirləri yüksək qiymətləndirmişlər.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

Daha sonra nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında quruma fərdi üzv qəbul edilmiş gənc prokurorluq əməkdaşları ilə görüşmüş və onlara Assosiasiyanın üzvlük vəsiqələrini təqdim etmişlər.

Xanım Y.Hübner və cənab R.Vandalla görüş zamanı Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvü, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Assosiasiyanın elektron səhifəsində rus versiyasının və Korrupsiyaya qarşı Mübarizə aparan Prokurorlar Şəbəkəsinin (NACP) səmərəli fəaliyyətinin təmin edilməsi və qarşılıqlı əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar fikir mübadiləsi aparmışdır.

Səfər çərçivəsində qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olmuşlar.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Türkiyə Ali Məhkəməsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə tanış olmuşlar

Ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi tərkibinə Ali Məhkəmənin Baş prokuroru Mehmet Akarca və digər məsul əməkdaşların daxil olduğu nümayəndə heyəti aprelin 19-da Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuşdur.

Baş prokuror Zakir Qaralov qonaqları salamlayaraq Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional, cinayət təqibi və qabaqlayıcı tədbirlər barədə, habelə Baş İdarənin strukturu və fəaliyyət istiqamətlərinə dair ətraflı məlumat vermişdir.

Korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaş-







lığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının vacibliyini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim böyük önəm verildiyini diqqətə çatdıran Baş prokuror, korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədi ilə iki ölkə prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd etmişdir.

Sonra qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, kriminalistika otağı, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı “Qaynar xətt” əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar.

Baş İdarədə yaradılmış yüksək iş şəraitindən məmnunluğunu ifadə edən İsmail Rüştü Cirit ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirmişdir.

Görüş zamanı qonaqlara korrupsiya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq qurumlar, habelə digər ölkələrin müvafiq qurumları ilə yaradılmış işgüzar münasibətlər barədə məlumat verilmiş, görülmüş işlər böyük marağa səbəb olduğundan gələcəkdə əməkdaşlığın daha sıx aparılmasına dair fikir mübadiləsi aparılmışdır.

Qonaqlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirlər, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur





Azərbaycan Respublikasının Baş Prokurorluğu və Səudiyyə Ərəbistanı Krallığının hüquq mühafizə orqanları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi məqsədi ilə Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin Təlim fakültəsinin dekanı Məhəmməd Həsən Əlsarra və Əd-Diriyə dairəsinin prokuroru Müsəid bin Əbdülrəhman bin Ayəfin başçılıq etdikləri tərkibinə müxtəlif dairələrin prokurorlarının və digər məsul əməkdaşlarının daxil olduğu geniş nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Aprelin 25-də nümayəndə heyəti Fəxri Xiyabana gələrək Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür. Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş



həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Daha sonra nümayəndə heyəti Azərbaycan Respublikasının Baş Prokurorluğunda olmuşlar.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafı, hər iki dövlət başçılarının siyasi iradələri nəticəsində ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndiyini qeyd edərək Prezident cənab İlham Əliyevin 5-7 aprel 2015-ci il tarixlərdə Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri zamanı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz əs-Səud ilə görüşünü xüsusi vurğulamışdır.

Qafqaz ölkələri və Mərkəzi Asiya regionunda ölkəmizin təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə seçilməsini yüksək qiymətləndirən Baş prokuror bu münasibətlə Səudiyyə Ərəbistanı Krallığının siyasi və təhlükəsizlik məsələləri üzrə Şurasının başçısı, Baş nazirin birinci müavini, daxili işlər naziri və Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin Şura sədri Əmir Məhəmməd bin Naif Əl Səuda öz minnətdarlığını ifadə etmiş, BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Mühakiməsi sahəsindəki Proqramlarının bir hissəsini təşkil edən dünya üzrə 17 mərkəzdən biri olan bu mötəbər təhsil müəssisəsinin ölkəmizin məhkəmə-hüquq sistemi ilə tanışlığının hüquq ictimaiyyəti üçün əlamətdar hadisə olduğunu bildirmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Səudiyyə Ərəbistanı Krallığının həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi, cari il aprelin 14-15-də İslam Əməkdaşlıq Təşkilatının İstanbul Sammiti çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünün bir daha pislənməsinə dair Yekun Bəyannamənin qəbulu zamanı Səudiyyə Ərəbistanının obyektiv və ədalətli mövqeyinin əhəmiyyəti xüsusi qeyd edilmişdir.

Səudiyyə Ərəbistanında yerləşən İslam dininin

müqəddəs məkanlarını hər il minlərlə azərbaycanlının ziyarət etməsinin iki ölkə arasında münasibətlərin genişlənməsində mühüm rol oynamasını qeyd edən Zakir Qaralov iki ölkə arasında hüquqi sahədə əlaqələrin getdikcə genişləndiyini söyləyərək son illər Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi sahələrdə ardıcıl və sürətli inkişafa zəmin yaradan məhkəmə-hüquq islahatlarının həyata keçirildiyini vurğulamışdır. Baş prokuror bu müsbət inkişafın hüquqi sahədə əməkdaşlıqda da müşahidə olunduğunu bildirmişdir.

Azərbaycanda uğurla həyata keçirilən hüquqi islahatlara böyük maraq göstərdiyini diqqətə çatdıran Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin Təlim fakültəsinin dekanı Məhəmməd Həsən Əlsarra hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu vurğulayaraq, ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin sürətlə inkişaf etdiyini bildirdi. Azərbaycan və Səudiyyə Ərəbistanı arasında qardaşlıq əlaqələrinin sıx olduğunu bildirən qonaq ölkəmizin çox qısa zamanda yüksək nailiyyətlər əldə etməsini qeyd edərək, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən tədbirləri alqışlamışdır.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olmuşdur. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş guşə və eksponatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırlanmış guşə qonaqlarda xüsusi təəssürat oyatmışdır.

Qonaqlara Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsində ölkəmizin məhkəmə-hüquq sistemi haqqında geniş məlumat verilmiş, təcrübə mübadiləsi məsələləri müzakirə edilmişdir. Daha sonra nümayəndə heyəti Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.

Nümayəndə heyətinin səfəri aprelin 30-na kimi davam etmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycanın korrupsiyaya qarşı mübarizə modeli beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir

İyunun 21-22-si Parisdə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) "Şərqi Avropa və Mərkəzi Asiyada korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş islahatların təsirinin gücləndirilməsi" mövzusunda yüksək səviyyəli toplantısı və şəbəkənin rəhbər qrupunun 20-ci görüşü keçirilmişdir.

Azərbaycan Respublikası Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti və ölkəmizin Fransadakı səfirliyinin məsul əməkdaşları tədbirlərdə iştirak etmişlər.

Avropa və Mərkəzi Asiya regionuna daxil olan ölkələrin yüksək vəzifəli dövlət rəsmiləri, eləcə də nüfuzlu beynəlxalq və qeyri-hökumət təşkilatlarının çoxsaylı nümayəndələrinin qatıldıqları tədbirlərdə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının III raundu çərçivəsində 2012-2015-ci illərdə həyata keçirilmiş tədbirlər və əldə edilmiş nəticələr müzakirə olunmuşdur. Azərbaycan Prezidentinin siyasi iradəsinə uyğun olaraq atılan mühüm addımlar nəticəsində qazanılan uğurlar, İstanbul Fəaliyyət Planının icrası istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəal iştirakı, həmçinin korrupsiyaya qarşı mübarizədə "ASAN xidmət" mərkəzlərinin mühüm rolu xüsusi vurğulanmışdır.

Respublikamızın əldə etdiyi müsbət təcrübə önə çəkilərək IV Monitorinq raundu çərçivəsində Azərbaycanın Gürcüstan ilə yanaşı, ilk olaraq qiymətləndirmə mərhələsinə daxil ediləcək ölkə olması müəyyənləşdirilmişdir. Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirləri və bu sahədə həyata ke-

çirilən beynəlxalq əməkdaşlıq görüşlərdə iştirak edən qurumların nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir.

Tədbirdə Şəbəkənin qarşıda duran IV Monitorinq raundunun, həmçinin AVN-in fəaliyyətinin təşkili ilə bağlı bir sıra məsələlər işçi qaydada müzakirə edilmişdir.

Görüşdə OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli əlaqələndiricisi Kamran Əliyev sessiyalardan birinə rəhbərlik etmişdir. Müzakirələrdə iştirak edən Baş prokurorun müavini ötən dövrdə dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilmiş iqtisadi islahatlar, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş hüquqi və institusional tədbirlər, eləcə də Baş İdarənin fəaliyyəti barədə məlumat vermişdir. O, Azərbaycanın İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini və onu tam dəstəklədiyini vurğulamışdır.

Tədbirlər çərçivəsində iştirakçı ölkələrin hüquq mühafizə orqanlarının və beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə səmərəli fikir mübadiləsi aparılmışdır. İştirakçılara Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri əks etdirən materiallar paylanılmışdır.

## Antikorrupsiyaya həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir

Mayın 10-13-də Çin Xalq Respublikasının Tiançin şəhərində Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) 9-cu illik tədbirləri keçirilib.

Konfransda Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədovun rəhbərliyi ilə Baş Prokurorluğun və Ədliyyə Nazirliyinin məsul əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil olunub.

IAACA-nın tədbirləri onun rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclası ilə başlanıb. Əsas təşkilati məsələlərin baxıldığı iclasda məruzə ilə Fikrət Məmmədov çıxış edib və müvafiq qərar qəbul olunub.

Konfransda dünyanın 70 dövlətindən 300-ə yaxın nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə, ixtisaslaşmış antikorrupsiya orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri, tanınmış hüquqşünaslar iştirak ediblər. Mötəbər forumun açılışında Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi və Hüquqi Məsələlər üzrə Komissiyasının rəhbəri Menq Çianju, IAACA-nın prezidenti və Çinin baş prokuroru Çao Cianminq, Tiançin partiya komitəsinin katibi və şəhərin meri Xuonq Ksinquo, BMT-nin və digər beynəlxalq təşkilatların yüksək səviyyəli rəsmiləri çıxış ediblər.

Antikorrupsiya qurumlarının fəaliyyətinə həsr olunmuş Konfransın əsas plenar sessiyasına Azərbaycanın ədliyyə naziri sədrlik edib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev plenar sessiyada İdarənin işi, onun səmərəliliyinin artırılması, beynəlxalq əməkdaşlığa verilən töhfələr barədə təqdimatla çıxış edib, Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində ölkəmiz tərəfindən beynəlxalq antikorrupsiya internet şəbəkəsinin aparılmasını qeyd edib. Konfransda çıxış edənlər ölkəmizin korrupsiyaya qarşı qlobal mübarizədə fəal iştirakını, bu sahədə qeyd olunan şəbəkənin mühüm rolunu vurğulayıblar.

Əsas təşkilati və kadr məsələlərini həll edən Ümumi Yığıncaq keçirilib. Tədbirdə Assosiasiyanın rəhbərliyi adından IAACA-nın vitse-prezidenti Fikrət Məmmədov əsas məruzəçi qismində çıxış edərək təşkilatın yeni prezidenti vəzifəsinə Qətərin baş prokurorunun namizədliyini təqdim edib, həmçinin İcraiyyə Komitəsinin tərkibinə dair təkliflər irəli sürüb. Bütün təkliflər Ümumi Yığıncaq tərəfindən təsdiq olunub. Forumun yekununda korrupsiyaya qarşı əhatəli tədbirlərə dair Bəyannamə qəbul olunub.

Tədbir çərçivəsində Fikrət Məmmədovun Çinin baş prokuroru Çao Cianminq ilə görüşü keçirilib. Görüşdə Azərbaycan və Çin arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub, ölkə Prezidenti cənab İlham Əliyevin ötən ilin dekabrında Çinə dövlət səfərinin və müxtəlif, o cümlədən hüquq sahəsi üzrə imzalanmış sənədlərin qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə böyük təkan olduğu vurğulanıb. Çinin Baş prokuroru Assosiasiyaya prezidentliyi dövründə ölkəmizin IAACA-nın inkişafına davamlı töhfələrini və dəstəyini yüksək qiymətləndirib.

Konfrans zamanı həmçinin bir sıra dövlətlərin baş prokurorları və antikorrupsiya orqanlarının rəhbərləri, habelə beynəlxalq təşkilatların rəsmiləri ilə görüşlər keçirilərək əməkdaşlığa dair danışıqlar aparılıb.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Ucar rayonunda vətəndaşların qəbulu



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov aprelin 15-də Ucar rayon prokurorluğunun inzibati binasında Mingəçevir şəhəri, Ucar, Yevlax, Ağdaş, Bərdə və Zərdab rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Ucar rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən

qəbulda Baş prokuror bölgədə yaşayan 40 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

## Goranboy rayonunda vətəndaşların qəbulu



Baş prokuror Zakir Qaralov mayın 20-də Goranboy rayon prokurorluğunun inzibati binasında Gəncə şəhəri, Goranboy, Samux, Göygöl, Daşkəsən, Kəlbəcər və Xocalı rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Goranboy rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 39 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün əlaqədar struktur qurumların rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq tapşırıqlar vermişdir.

## Lerik rayonunda vətəndaşların qəbulu



Baş prokuror Zakir Qaralov iyunun 24-də Lerik rayon prokurorluğunun inzibati binasında Lerik, Masallı, Lənkəran, Astara və Yardımlı rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Lerik rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 26 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

***

Göstərilənlərlə yanaşı, qeyd edilən rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları onların diqqətinə çatdırılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Cinayət haqqında xəbərin "xüsusi qərardad"la göndərilməsi barədə

Cinayət-prosesual qanunvericiliyi cinayət haqqında məlumatların ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsinin bir formasını müəyyən edib, bu "məlumat" formasıdır, nə qərar, nə qərardad, nə xüsusi qərardad və ya digər prosessual forma. İlk baxışdan görünə bilər ki, bu, əhəmiyyətsiz bir detaldır, əsas məsələ məzmunda, yəni cinayət haqqında informasiyadadır. Lakin bir qədər diqqətlə baxanda bu detalda şeytanın gizləndiyi üzə çıxır.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 265.4-cü maddəsində müəyyən edilib ki, "Məhkəmə işə baxarkən, tərəflərin və ya digər şəxslərin hərəkətlərində cinayətin əlamətlərini aşkara çıxararsa, o, bu barədə xüsusi qərardad çıxarmaqla prokurora xəbər verir"[1]. Məlum olduğu kimi, "cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamağını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını" Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi müəyyən edir (Cinayət-Prosessual Məcəlləsinin 1.1-ci maddəsi). Bu səbəbdən MPM-nin 265.4-cü maddəsi ilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) konkret norması arasında əlaqə olmalıdır, əlaqənin bir başında xəbəri göndərən məhkəmə durursa, o biri başında onu qəbul edən prokuror durmalıdır. Belə inteqral əlaqə prosesin harmoniyasını təmin etməlidir, məsələn, basketbolda olduğu kimi, oyunçunun biri topu atdıqda o birisi onu tutmalıdır, tuta bilməsə, planlaşdırılmış hücum baş tutmayacaq.

CPM-də cinayət haqqında məlumatların "xüsusi qərardad" prosessual formasına salınıb göndərilməsi nəzərdə tutulmayıb. Bu, gözə görünən ilk uyğunsuzluqdur. Bu Məcəllənin 204-206-cı maddələrində məlumatların qeyri-prosessual formalarda – fiziki şəxslərin məlumatlarının yazılı və ya şifahi şəkildə; hüquqi şəxsin (vəzifəli şəxsin) məlumatlarının məktub, yaxud təsdiq edilmiş teleqram, telefonoqram, radioqram, teleks və ya digər qəbul edilmiş müraciət formasında; kütləvi informasiya vasitələrinin məlumatlarının mətbuatda, radioda, televiziyada əks etdirildikdən sonra göndərilməsi müəyyən edilib.

Ayrıca olaraq mülki mühakimə icraatında işə baxan məhkəmənin prokurora məlumat göndərməsi ("xüsusi qərardad" və ya sadə bir məktub, yaxud digər formalardan asılı olmayaraq) CPM-də nəzərdə tutulmayıb. Bu Məcəllənin 207.6-ci maddəsinin məzmunundan görünür ki, buradakı məhkəmə, çox güman ki cinayət mühakimə icraatı məhkəməsidir.

CPM-nin 208.0.5-ci maddəsində nədənsə məhkəmənin cinayət haqqında məlumat alması "təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi" hesab edilib. İnanmırsınızsa, diqqət yetirin: "208.0. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi cinayət işinin başlanmasına aşağıdakı hallarda səbəb olur: (...) 208.0.5. məhkəmə cinayət haqqında məlumatı ədalət mühakiməsinin hər hansı icraatı üzrə həyata keçirilməsi zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda". Heç olmasa, 208.0-cu maddədə sadalanan subyektlərin sırasına "məhkəmə" əlavə edilməli idi ki, bir maddəyə yerləşdirilmiş norma daxili ziddiyyətli olmasın. Qanunvericinin məntiqi aydın deyil: məhkəmə cinayət təqibi həyata keçirməyən subyekt ola-ola onun cinayət haqqında məlumat alması avtomatik olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən cinayət işi başlanmasına necə səbəb olur (bir anlığına "bilavasitə aşkar etmə" subyektinin kimliyini kənara qoysaq)?!

Çatmayan mexanizmi MPM-nin 265.4-cü maddəsi bərpa etmir. Mülki prosesdə təhqiqatçı, müstəntiq və prokuror yoxdur ki, cinayəti "bilavasitə aşkar" etsinlər. Cinayət haqqında məlumatı məhkəmə aşkar edibsə, onda CPM-nin 208.0-cı maddəsində "məhkəmə" göstərilməli və ona cinayət işi başlamaq səlahiyyəti verilməli idi. Sonuncu prinsipial səbəblərə görə mümkün deyil, deməli, maddələri bir-birinə

[1] Apellyasiya və kassasiya instansiyası məhkəmələrində də belə qərardadların çıxarılması nəzərdə tutulub (Maddə 394. Apellyasiya instansiyası məhkəməsinin xüsusi qərardadı; Maddə 421-2. Kassasiya instansiyası məhkəməsinin xüsusi qərardadı).

süni şəkildə uyğunlaşdırmaq cəhdi də əbəsdir. Çıxış yolu qanunvericilikdə dəyişiklik aparmaq, cinayət haqqında məlumat verən subyektlərin sırasına məhkəməni əlavə etmək, eyni zamanda onu cinayəti "bilavasitə aşkar edən" (bununla cinayət işi başlanmasına səbəb olan) subyektlər sırasından çıxarmaq lazımdır. Burada qorxulu heç bir şey yoxdur, hüquq prinsiplərinin tələbləri nəzərə alınır, mexanizmin aydın və işlək vəziyyətə gətirilməsi təmin olunur.

Qayıdaq əsas məsələyə, cinayət haqqında xəbərin məhkəmə tərəfindən "məlumat" deyil (qalan subyektlər kimi), "xüsusi qərardad"a "yerləşdirilməklə" göndərilməsinə. Əvvəlcədən qeyd olunmalıdır ki, bu, yalnız Azərbaycanın prosessual qanunvericiliyi üçün səciyyəvidir, keçmiş sovet ölkələrində belə xəbərlərin məlumat, sənəd və s. şəklində göndərilməsi müəyyən edilib. Məsələn, Rusiya Federasiyası Mülki-Prosessual Məcəlləsinin 226-cı maddəsinin 3-cü hissəsində (Статья 226. Частные определения суда) göstərilib: "3. В случае, если при рассмотрении дела суд обнаружит в действиях стороны, других участников процесса, должностного или иного лица признаки преступления, суд сообщает об этом в органы дознания или предварительного следствия". Maddənin adı "Məhkəmənin xüsusi qərardadları" adlansa da, məhkəmədə aşkar edilmiş cinayət haqqında təhqiqat və ibtidai istintaq orqanlarına xəbərin məlumat şəklində verilməsi təsbit edilib.

Məhkəmənin "məlumat"ı və "xüsusi qərardad"ı arasında fərq yalnız zahiri deyil, onların hüquqi mahiyyətləri də fərqlidir. MPM-nin 15.2-ci maddəsində yazılıb: "Məhkəmələrin qanuni qüvvəyə minmiş qətnaməsi, qərardadı, qərarı, əmri bütün dövlət hakimiyyəti, yerli özünüidarə orqanları, onların vəzifəli şəxsləri, ictimai birliklər, siyasi partiyalar, həmkarlar ittifaqları, onların vəzifəli şəxsləri, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir və Azərbaycan Respublikasının bütün ərazisində hökmən icra olunmalıdır". Göründüyü kimi burada (eləcə də buna oxşar digər qanunvericilik aktlarında) məhkəmənin "məlumatı" yoxdur, yəni icrası məcburi olan məhkəmə aktı kimi o, mövcud deyil. Tutaq ki, məhkəmə israr edir ki, filan əməldə cinayət var, bunu iki formada – birini qərardad, o birini məlumat formasında edir. Belə xəbərin ünvanlandığı "bütün dövlət hakimiyyəti, yerli özünüidarə orqanları, onların vəzifəli şəxsləri, ictimai birliklər, siyasi partiyalar, həmkarlar ittifaqları, onların vəzifəli şəxsləri, həmçinin fiziki və hüquqi şəxslər" hər iki formaya münasibətləri eyni olacaqmı? Əlbəttə yox, onlar üçün qərardadın məzmunu "hüquqi həqiqət", "məlumat"ın məzmunu "ehtimal"dır. Prokuror da oxşar vəziyyətdədir. CPM-nin 65.7-ci maddəsində göstərilib ki, "Məhkəmənin mülki iş üzrə qanuni qüvvəyə minmiş qərarı ("qərar" dedikdə, qərardadlar da nəzərdə tutulur – NB) cinayət prosesini həyata keçirən orqan və cinayət işinə baxan məhkəmə üçün yalnız hadisənin olub-olmaması hissəsində məcburidir". Bu normanı əldə rəhbər tutan prokuror xüsusi qərardadda göstərilən "cinayət faktı"nı "olmuş", yəni "həqiqət" kimi qəbul etməlidir, onun başqa yolu yoxdur. MPM-nin 265.4-cü maddəsində göstərilən "cinayətin əlamətləri" CPM-nin 65.7-ci maddəsində təsbit edilmiş standart prizmasında "olan cinayət hadisəsi" kimi başa düşülür. Başqa variant (məsələn, "hadisə"nin cinayət xarakterli hadisəni nəzərdə tutmaması) istisna edilir. Bunun üçün MPM-nin 265.4-cü maddəsində "cinayətin" sözünün əvəzinə başqa bir söz, məsələn, "pozuntu" sözü olmalı idi ki, normanı tətbiq edən subyekt CPM-nin 65.7-ci maddəsindəki "hadisə" sözünün interpretasiyasında müəyyən sərbəstlikdən yararlana bilsin.

Problem tək prokurorun, müstəntiqin, təhqiqatçının cinayət təqibi başlayıb-başlamama barədə qərar qəbul edərkən prosessual sərbəstliklərinin məhdudlaşdırılması ilə bitmir. Hərçənd bu da gerçəklikdir. Daha önəmli məsələ, mülki işə baxan məhkəmənin tərəfsiz "arbitr" statusunu itirməsi ilə bağlıdır.

MPM-nin 265.4-cü maddəsinin məzmunundan görünür ki, bu "vəzifə"dir, yəni qanun norması cinayət haqqında prokurora xəbər verməyi məhkəmənin üzərinə bir "vəzifə" kimi qoyur.

Sadə və aydın məzmuna malik bu normanın mahiyyəti suallar doğurur. Ağıla gələn ilk sual bunun "mümkünlüyü" ilə bağlıdır, məhkəmənin üzərinə belə bir "vəzifə" qoyula bilərmi? Bu suala cavab tapmaq üçün əvvəlcə "məhkəmənin vəzifəsi"nin qanunla necə müəyyən edildiyinə baxmaq, bu "vəzifə"nin hüdudlarını dəqiqləşdirmək lazımdır. Məhkəmələrin əsas statut qanunu olan "Məhkəmələr və hakimlər haqqında" Qanunun 3-cü maddəsində (Maddə 3. Məhkəmələrin vəzifələri) deyilir ki, "Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir". Göründüyü kimi, məhkəmələrin iki konkret vəzifəsi təsbit edilib: 1) ədalət mühakiməsinin həyata keçirilməsi; 2) məhkəmə nəzarətinin həyata keçirilməsi.

Bunlardan başqa "vəzifə" müəyyən edilməyib, yəni məhkəmələrin bunlardan savayı, 3-cü və ya daha sonrakı nömrələnəsi "vəzifə"si yoxdur. Normanın mətnindəki "yalnız" sözü bu "dairə"nin qapalı olduğuna işarə edir.

Daha maraqlısı odur ki, maddə nəinki məhkəmələrin vəzifələri ilə bağlı mövcud "status-kvo"nu təsbit edib, həm də gələcəkdə bu vəzifələr dairəsinin genişləndirilməsini mümkünsüz edib: "Məhkəmələrin üzərinə başqa vəzifələr qoyulması yolverilməzdir".

Bəs "cinayət haqqında prokurora xəbər vermək" vəzifədirmi? Əlbəttə, vəzifədir. Bu vəzifə "Məhkəmələr və hakimlər haqqında" Qanunun 3-cü maddəsi ilə cizgilənmiş dairənin daxilindədir və ya kənarında? Daxilindədirsə, yəni ədalət mühakiməsinin və məhkəmə nəzarətinin həyata keçirilməsi ilə əhatə olunursa, heç bir problem yoxdur, məhkəmənin "cinayət haqqında prokurora xəbər vermək" vəzifəsi bu istiqamətlərin birinə aid elementdir. Kənarındadırsa, onda məhkəmə vəzifəsi kimi yolverilməzdir.

Məsələyə aydınlıq gətirmək üçün "cinayət haqqında prokurora xəbər vermək" vəzifəsinin məzmununu təhlil etmək tələb edilir. Bu vəzifə "cinayət"in əleyhinə istiqamətlənib. Xəbəri alan prokuror cinayətin qarşısını almaq, onu törədən şəxsləri müəyyən etmək, onların barələrində cinayət təqibi həyata keçirmək, ittiham hökmünün çıxarılmasına nail olmaq və s. üzrə fəaliyyət göstərir. Məcmu müstəvidə o, cinayətkarlığa qarşı mübarizə aparır. Prokuror bu mübarizəyə başlamaq üçün müvafiq məlumatları bilavasitə özü aşkar edir (CPM-nin 208.0.4-cü maddəsi) və ya müxtəlif mənbələrdən – fiziki və hüquqi şəxslərdən (CPM-nin 204, 205-ci maddələri), kütləvi informasiya vasitələrindən (CPM-nin 206-cı maddəsi), məhkəmədən (CPM-nin 208.0.5-ci maddəsi) alır.

Cinayət haqqında xəbər alan prokuror mütləq alqoritmi qanunla təsbit edilmiş prosessual hərəkətləri yerinə yetirməli, qərarları qəbul etməlidir. Bu, onun vəzifə borcudur. Bu, hamıya, o cümlədən, məhkəməyə bəllidir. Məhkəmə bilir ki, cinayət haqqında prokurora xəbər verəndən sonra nələr baş verəcək. CPM-nin 38.1-ci maddəsində müəyyən edilib ki, "prokuror hazırlanan, yaxud törədilən cinayətin əlamətlərini əks etdirən əməllər barədə məlumat aldıqda və ya cinayət hadisəsini bilavasitə aşkar etdikdə bu Məcəllə ilə müəyyən edilmiş qaydada cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, həmçinin öz səlahiyyətləri daxilində dərhal təhqiqat və ya istintaq aparmalıdır". Bu Məcəllənin 46.3-cü maddəsində göstərilib ki, "Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən (...) prokuror dərhal cinayət işi başlamalıdır". Deməli, cinayət haqqında verilən xəbərin cinayət işi başlanması ilə nəticələnəcəyi məhkəməyə əvvəlcədən məlumdur. Xəbər vermə ilə cinayət işi başlanması arasında güclü səbəbli əlaqənin varlığı sonuncu fikri "cinayət haqqında xəbər verməklə məhkəmə dolayısı ilə (prokurorun vasitəsi ilə) cinayət işi başlayır" və ya "məhkəmə ona məlum olan cinayətə görə cinayət işi başlatdırdı" məzmunda da ifadə etmək olar. Göründüyü kimi, hər bir halda bu mexanizmdə məhkəmə fəal, aktiv subyektə çevrilir, konkret cinayətə qarşı dövlətin apardığı mübarizəyə səbəbkar olur, bu prosesin iştirakçısı rolunda çıxış edir.

Qeyd edilməlidir ki, cinayət haqqında prokurora məlumat verən bütün subyektlər bilavasitə və ya dolayısı ilə cinayətkarlığa qarşı mübarizədə iştirak edirlər. Bu həqiqəti təsdiq edən əsas arqumentlərdən birini qanunvericinin özü verir. CPM-nin 37.5-ci maddəsi prokurora bəzi istisnaları (CPM-nin 37.5.1-37.5.5) çıxmaqla zərər çəkmiş şəxsin şikayəti olmadan ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi həyata keçirməyi qadağan edir. "Şikayət"in məzmununu əsasən cinayət haqqında məlumat təşkil edir. Normanın məntiqi cinayət təqibi başlanması üçün "səbəb"in hüquqi əhəmiyyətini göstərməkdən ibarətdir. "Səbəb" (şikayət) yoxdursa, cinayət təqibi də olmayacaq, varsa, cinayət təqibi də həyata keçiriləcək. Açar "səbəbkar"da, şikayətçidədir.

Deməli, "səbəb" (şikayət, məlumat) cinayət təqibinin həyata keçirilməsi üçün əhəmiyyətli, bəzi hallarda həlledici rol oynayır.

Qeyd edilənlər göstərir ki, cinayət təqibi başlanması üçün "səbəb" yaratmaqla (cinayət haqqında məlumat verməklə) məhkəmə cinayət işi başlanmasına təkan verir, bundan sonra qanunvericiliyin müəyyən etdiyi ardıcıllıqla prosessual hərəkətlər edilir, qərarlar qəbul olunur, konkret cinayətlə bağlı həyata keçirilən tədbirlər bütövlükdə dövlətin cinayətkarlığa qarşı mübarizə işinə kiçik də olsa bir töhfə verir. Məhkəmə cinayətkarlığa qarşı mübarizədə iştirak edir. Bu iştirak tərəflidir, məhkəmə bu prosesdə ittiham hakimiyyətinin sırasındadır.

Müasir mədəni aləmdə məhkəmə "tərəfsiz" orqan kimi qəbul edilir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 6.1-ci maddəsində göstərilib ki, "1.

Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və tərəfsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir". Orijinalda "məhkəmə"nin əlamətləri "independent and impartial tribunal established by law" sözləri ilə ifadə edilib. Azərbaycan Respublikasının Konstitusiyası da məhkəmələrin müstəqil olmasını müəyyən edib (7-ci maddənin IV bəndi). Məhkəmənin müstəqilliyinə, qərəzsizliyinə, tərəfsizliyinə dair hüquq mənbələrində, Konstitusiya Məhkəməsinin qərarlarında (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasının 07 iyul 2011-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 17 aprel 2012-ci il tarixli, "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 43.1.1, 314.2-ci maddələrində nəzərdə tutulmuş "dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə" müddəasının şərh edilməsinə dair" 15 fevral 2008-ci il tarixli və digər qərarları ) və s. kifayət qədər arqumentə rast gəlmək olar. Məsələn, Konstitusiya Məhkəməsinin mövqeyinə görə, "Cinayət ədalət mühakiməsi vasitəsilə, çəkişmə və tərəflərin hüquq bərabərliyi əsasında məhkəmə hakimiyyətini həyata keçirən məhkəmə işin icraatı zamanı ittiham və ya müdafiə tərəfinin prosessual səlahiyyətlərini öz üzərinə götürərək onlardan hər hansı birinin tərəfində dayanmamalı, yaxud onları əvəz etməməli, bütün proses boyu obyektiv və qərəzsiz arbitr olaraq qalmalıdır"; "Çəkişmə yalnız bitərəf məhkəmənin mövcudluğu halında mümkün olduğundan məhkəmənin tərəflərin prosessual funksiyalarını (ittiham, yaxud müdafiə) öz üzərinə götürməsi yolverilməzdir".

Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin mövqeyinə görə, "Məhkəməyə cinayət təqibini başlamaq səlahiyyətinin verilməsi müstəqil məhkəməyə dair konstitusiya müddəaları ilə uyğun gəlmir. (...) Belə ki, bu, məhkəmə icraatında müstəqillik, obyektivlik və qərəzsizlik prinsiplərinə ziddir." (Rusiya Federasiyası Konstitusiya Məhkəməsi Plenumunun 14 yanvar 2000-ci il tarixli Qərarı).

Bura qədər göstərilənlər təsdiq edir ki, məhkəmənin üzərinə prokurora "cinayət haqqında xəbər vermə" vəzifəsi qoymaqla faktiki olaraq o "tərəfsiz"liyini itirir, ittiham hakimiyyətinin tərəfində cinayətkarlığa qarşı mübarizə prosesində iştirak edir. Bu, nəinki, hamılıqla qəbul edilmiş hüquq ideyalarına, prinsiplərinə, milli qanunvericiliyin özünün təsbit etdiyi qaydalara, ilk növbədə müvafiq statut qanunun – "Məhkəmələr və hakimlər haqqında" Qanunun 3-cü maddəsinin tələblərinə ziddir.

Müzakirə olunan tezisi təsdiqləyən arqumentləri cinayət-prosessual qanunvericiliyinin tarixi dinamikasını izləyərkən də görmək mümkündür. 1961-ci ildə qəbul edilmiş və 2000-ci ilin sentyabr ayının 1-nə kimi qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 3-cü maddəsi "Cinayət işi başlama və cinayəti açma vəzifəsi" adlanırdı. Maddədə deyilirdi ki, "Məhkəmə, prokuror müstəntiq və təhqiqat orqanı cinayətin əlamətləri tapılan hər bir halda öz səlahiyyəti dairəsində cinayət işi başlamalı, cinayət hadisəsinin, cinayəti etməkdə təqsiri olan şəxslərin müəyyən edilməsi və onların cəzalandırılması üçün qanunda nəzərdə tutulmuş bütün tədbirləri görməlidirlər". Həmin Məcəllənin 108-111-ci maddələri hakimlərin üzərinə cinayət haqqında məlumatlara baxmaq, cinayət işi başlamaq və ya onu rədd etmək barədə qərarlar qəbul etmək, iş başlanıldıqdan sonra ibtidai istintaq aparılması üçün göndərmək kimi vəzifələr qoymuşdu. Hazırda qüvvədə olan CPM-də bu vəzifələr yoxdur. Onların cinayət-prosessual qanunvericiliyindən çıxarılmasının səbəbi "məhkəmə"nin statusunda edilmiş köklü dəyişikliklərlə bağlıdır. Deməli, bu status məhkəmənin cinayət təqibi həyata keçirilməsində hər hansı bir formada iştirakını yolverilməz edir.

Sözügedən normanın yaratdığı başqa bir problem onun "hüquqi müəyyənlik", "qanunçuluq", "hüququn aliliyi" kimi prinsiplərlə uzlaşmamasıdır. Prinsip kimi müəyyən edilib ki, yalnız qanuni qüvvəyə minmiş qərarlar icra edilir (MPM-nin 5-ci maddəsi). Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 254.1.4-cü maddəsinin şərh edilməsinə dair" 25 mart 2004-cü il tarixli qərarında yazılıb ki, ""Konstitusiya Məhkəməsinin icraatı qaydasında, mülki, cinayət və ya inzibati qaydada baxılan başqa bir iş həll edilməyincə işə baxmaq mümkün olmazsa" müddəası məhkəmə tərəfindən müvafiq növ icraat üzrə çıxarılmış qərarın, qətnamənin, hökmün, qərardadın qanuni qüvvəyə minməsini ehtiva edir". MPM-nin 265.4-cü maddəsində bu prinsip əksini tapmayıb, orada qeyd edilməyib ki, çıxarılan xüsusi qərardadlar prokurora qanuni qüvvəyə minəndən sonra göndərilir. Normanın mənasına görə, onlar çıxarılandan dərhal sonra, hətta mülki iş üzrə proses başa çatmamış göndərilir. Heç kəs, o cümlədən çəkişən tərəflər xüsusi qərardaddan şikayət verə bilmirlər. MPM-nin 267.1-ci maddəsi (Maddə 267.

Qərardadlardan şikayət verilməsi) müəyyən edib ki, “267.1. Məhkəmə tərəfindən ayrıca akt şəklində qəbul edilmiş qərardaddan bu Məcəllədə göstərilmiş hallarda şikayət verilə bilər”. “Xüsusi qərardad” barədə belə “hal” nəzərdə tutulmayıb.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair” 02 aprel 2012-ci il tarixli qərarında göstərilib ki, “Konstitusiya Məhkəməsi Plenumunun hüquqi müəyyənlik prinsipinin mahiyyəti və əhəmiyyəti barədə formalaşdırdığı hüquqi mövqeyinə görə, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiq edənin hərəkətlərinin isə qabaqcadan bilməsinə imkan verməlidir”. Mülki proses üzrə (1) icraat başa çatmamış, (2) qəti qərar qəbul edilməmiş və qanuni qüvvəyə minməmiş, (3) mülki işə baxan məhkəmə tərəfindən çəkişmənin predmeti olmayan faktiki  hallar barədə subyektiv mülahizəyə əsaslanan xüsusi qərardad çıxarması, (4) bu qərardaddan apelyasiyanın mümkünsüz olması, (5) belə qərardada əsasən şəxsə qarşı başqa icraatda cinayət təqibi başlanması və s. kimi təzadları nə iddiaçı, nə də cavabdeh məhkəməyə müraciət hüququnu həyata keçirməyə başlayarkən görə bilməzdi, hətta peşəkar hüquqçunun məsləhətini almaqla da görə bilməzdi. “Hüquq tətbiq edənin hərəkətlərini qabaqcadan bilmə” imkanının olmaması şəxsə özünün hüquqlarını səmərəli müdafiə edəcəyinə inamı itirir. Tək ona görə yox ki, bu imkan “hüquqi müəyyənlik” prinsipinin elementidir, həm də ona görə ki, bu, sağlam duyuya söykənən açıq-aşkar bir gerçəklikdir.

Belə “hüquqi qeyri-müəyyənlik” mütləq mülki prosesdə tərəflərin qeyri-bərabərliyinə səbəb olur. Çəkişən tərəflərdən biri prokurorun, müstəntiqin, təhqiqatçının timsalında dövlətin resurslarından yararlanır, çünki, barəsində cinayət təqibi tədbirləri həyata keçirilən subyektlə belə tədbirlərə məruz qalmayan subyekt arasında bərabərlik işarəsi qoymaq olmaz. Belə "mübahisələr üzrə ədalət mühakiməsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir" (MPM-nin 8.1-ci maddəsində təsbit edilmiş "Qanun və məhkəmə qarşısında bərabərlik" prinsipi) demək gerçəkliyi danmaq olar. Əslində isə belə olmamalıdır. Konstitusiyanın 25-ci maddəsində (Maddə 25. Bərabərlik hüququ) bəyan edilib ki, “Hamı qanun və məhkəmə qarşısında bərabərdir”.

“Məhkəmələr və hakimlər haqqında” Qanunun 13-cü maddəsində (Maddə 13. Məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi) göstərilib ki, "Azərbaycan Respublikasında məhkəmə icraatı tərəflərin hüquq bərabərliyi təmin olunmaqla Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin VII hissəsinə uyğun olaraq çəkişmə prinsipi əsasında həyata keçirilir". MPM-nin 9-cu maddəsində (Maddə 9. Ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi) vurğulanıb ki, “9.1. Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir. (...). 9.3. Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz”.

MPM-nin 1.3-cü maddəsində vurğulanıb ki, “Mülki prosessual fəaliyyət sahəsində insan və vətəndaşın hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, habelə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmənin müstəqilliyini və tərəflərin çəkişmə prinsipini pozan, eləcə də sübutlara əvvəlcədən müəyyən olunmuş qüvvə verən qanunvericilik aktları qəbul edilə bilməz”. Göründüyü kimi, bu Məcəllənin 265.4-cü maddəsinin hazırki mətnini belə aktlara aid etmək üçün kifayət qədər əsaslar var. Çıxış yolu kimi maddənin məzmununu dəyişdirmək, onu “265.4. Məhkəmə işə baxarkən, tərəflərin və ya digər şəxslərin hərəkətlərində cinayətin əlamətlərini aşkara çıxararsa, o, bu barədə prokurora məlumat verir” məzmunda vermək olar.

Qanunvericilikdə bu dəyişiklik edilənə qədər isə həmin maddənin tətbiqində diqqətli olmaq, qəbul edilən prosessual qərarların ədalət mühakiməsinin ədalətliliyi, tərəflərin qanun və məhkəmə qarşısında bərabərliyi əsasında çəkişməsi, hüquqi müəyyənlik və s. bu kimi fundamental prinsiplərin pozulmaması üçün mümkün addımlar atmaq gərəkdir.

**Nazir Bayramov,**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

# Prokurorluq işçiləri növbəti ağacəkmə kampaniyası keçirmişlər

Mayın 7-də Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirmişdir.






Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ölkəmizdə ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirilərək genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu gün müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyev tərəfindən əsası qoyulmuş ekoloji siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Abşeron yarımadasının ekoloji mühitinin yaxşılaşdırılması, paytaxtda yaşıllıq sahələrinin salınması və onların mühafizəsi ilə bağlı mövcud ənənəyə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə aksiyası keçirmişdir.

Əməkdaşların fəallığı ilə müşayiət olunan tədbirdə Bakı – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının Suraxanı rayonu ərazisindən keçən hissəsində yarımadanın iqlim şəraitinə uyğun beş yüzdən  artıq müxtəlif növ ağaclar əkilmiş, eyni zamanda həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilmiş və təmizlik-abadlıq işləri aparılmışdır.

Əkilən ağacların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuş, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görülmüşdür. Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Amnistiya aktının tətbiqi ilə bağlı Baş Prokurorluqda seminar keçirilmişdir

İyunun 4-də Baş Prokurorluqda Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin 20 may 2016-cı il tarixli qərarının prokurorluq orqanlarında tətbiqi" mövzusunda seminar keçirilmişdir.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi və Hüquqi təminat və informasiya idarələri tərəfindən təşkil edilmiş tədbirdə "Amnistiya aktının icrasının prokurorluq orqanlarında təşkili" mövzusunda çıxışlar edilərək amnistiya aktının icrası ilə əlaqədar prokurorluq əməkdaşlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat verilmişdir.

Xüsusi vurğulanmışdır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək dövlətimizin siyasətinin əsas prioritetlərindəndir. Ulu öndərin möhkəm təməllər üzərində əsasını qoyduğu humanizm siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edərək cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini inkişaf etdirmişdir. Bu amallara sadiq qalan Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən amnistiya aktının qəbul edilməsi ulu öndərin əsasını qoyduğu xeyirxahlıq ənənələrinin davamının əyani təcəssümüdür. Bildirilmişdir ki, fəaliyyətində humanizm və insanpərvərlik ideyalarını rəhbər tutan, qayğı və yardıma ehtiyacı olan insanlara daim kömək edən Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2007-ci ildən başlayaraq qəbul edilmiş amnistiya aktları əsasında 30 minə yaxın məhkum müxtəlif növ cəzalardan azad edilmişdir.

Amnistiyanın prokurorluq orqanlarında vaxtında və dürüst icra olunmasının təmin edilməsi məqsədi ilə Baş Prokurorluq üzrə "28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin 20 may 2016-cı il tarixli Qərarının icrası ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə" 25 may 2016-cı il tarixli əmr tədbir iştirakçılarının nəzərinə çatdırılmaqla prokurorluq orqanları işçiləri tərəfindən amnistiya aktının dərindən öyrənilməsi və təbliğinin əhəmiyyəti vurğulanmışdır. Eyni zamanda qərarın humanist mahiyyətinin barələrində amnistiya tətbiq ediləcək şəxslərə izah olunması və gələcəkdə qanuna zidd hərəkətlərin yolverilməzliyi barədə onlarla fərdi söhbətlərin aparılmasının zəruriliyi bildirilmişdir. Prokurorluq əməkdaşlarına amnistiya aktına əsasən cəzadan azad edilmiş məhkumların sosial adaptasiyası məqsədi ilə "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarına səlahiyyətləri daxilində köməklik göstərmələri tövsiyə edilmişdir.

Tədbirdə qərarın icrası mexanizmlərinin təkmilləşdirilməsi, prokurorluq əməkdaşlarının amnistiyanı tətbiq edəcək dövlət orqanları ilə qarşılıqlı səmərəli əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusu-

nun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil və demokratik yoludur. Bu yolla həyata keçirilən işə qəbul prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə Dövlət başçısının verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olmuşdur.

2002-ci ildən başlayaraq müsabiqə yolu ilə işə qəbul edilmiş 656 gənc mütəxəssislər hazırda prokurorluğun kadr korpusunun 58 faizini təşkil etməklə təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər. Xidmətdə fərqləndiklərinə və vəzifələrini nümunəvi icra etdiklərinə görə onlardan 35 nəfəri prokurorluğun müxtəlif struktur qurumlarında məsul vəzifələrə irəli çəkilmişlər.

İyunun 12-də Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnaməyə müvafiq olaraq elan edilmiş sayca 17-ci müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası Dövlət İmtahan Mərkəzi ilə birlikdə imtahanın aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün bütün zəruri tədbirləri təmin etmişdir.

Prokurorluq orqanlarına işə qəbulla əlaqədar saat 14:00-dan başlayaraq 3 saat ərzində vahid auditoriyada – Bakı İdman Sarayında keçirilən imtahanı dövlət qurumlarının nümayəndələri ilə yanaşı, qeyri-hökumət və beynəlxalq təşkilatların, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

İmtahan başa çatdıqdan sonra namizədlərin cavab kartları Dövlət İmtahan Mərkəzində yoxlanılmış və imtahanda iştirak edən 432 namizəddən 207-si müsabiqənin ikinci mərhələsi – yazılı imtahanda iştirak etmək hüququ qazanmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində stajorlar üçün hazırlıq kursu keçirilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikası Prokurorluğu orqanlarına 2015-ci ildə qulluğa qəbul olunmuş və stajorluq keçən 26 nəfər işçi üçün mayın 2-dən 31-dək hazırlıq kursu keçirilmişdir.

Kursun mövzuları cinayət, cinayət-prosessual, əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericiliyin, məhkəmə ekspertizası, kriminalistika sahəsində aktual məsələlər, habelə praktiki əhəmiyyət kəsb edən sahələr üzrə mühazirələr və praktiki məşğələlərdən (ümumilikdə 76 məşğələ, o cümlədən 66 mühazirə və 10 praktiki məşğələ) ibarət olmuşdur. Təlimçi kimi Elm-Tədris Mərkəzinin əməkdaşları ilə yanaşı Baş Prokurorluğun və ərazi prokurorluqlarının, Ədliyyə və Səhiyyə Nazirliklərinin işçiləri cəlb edilmişlər.

Təlimlər müasir texnika və texnologiyalardan (interaktiv lövhə, proyeksiya aparatı, noutbuk, LSD tipli Full HD ekran, proqram təminatları və s.) geniş istifadə etməklə həyata keçirilmişdir. Dinləyicilərə 20 çeşiddə insan hüquqlarının müdafiəsinə aid yeni ədəbiyyatlar verilmişdir.

Kursun yekunu üzrə mayın 31-də imtahan keçirilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Səudiyyə Ərəbistanı Krallığının hüquq mühafizə orqanları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi məqsədi ilə Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin Təlim fakültəsinin dekanı Məhəmməd Həsən Əlsarra və Əd-Diriyə dairəsinin prokuroru Müsəid bin Əbdülrəhman bin Ayəfin başçılıq etdikləri tərkibinə müxtəlif dairələrin prokurorlarının və digər məsul əməkdaşlarının daxil olduğu geniş nümayəndə heyəti aprelin 25-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur.









Qonaqlara Elm-Tədris Mərkəzinin strukturu, fəaliyyət istiqamətləri, namizədlərin prokurorluq orqanlarına qəbulu proseduru, onların sonrakı tədrisi ilə bağlı məsələlərin tənzimlənməsi, Mərkəzdə ixtisasartırma kurslarının təşkili, prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyələrinin yoxlanılması, "Xüsusi məlumat", "İmtahan", "Attestasiya" informasiya sistemləri, proqramları, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı və digər mətbu nəşrləri barədə məlumat verilmiş, qonaqları maraqlandıran suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi beynəlxalq təcrübəni uğurla öyrənir



Mayın 16-17-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi və Avropa Şurası tərəfindən həyata keçirilən "Proqram Əməkdaşlıq Çərçivəsi" layihəsi üzrə "Çirkli pulların yuyulmasına qarşı mübarizə" və "İstintaq sövdələşməsi" mövzularında tədbir keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Auditorlar Palatası, Hesablama Palatası, Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinq Xidmətinin nümayəndələri və birinci instansiya məhkəmələrinin hakimləri iştirak etmişdir.

Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev tədbirdə çıxış edərək korrupsiyaya qarşı mübarizənin Azərbaycanda dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulamaqla bu mübarizənin möhkəm siyasi iradəyə əsaslandığını qeyd etmiş, bu sahədə ölkə daxilində, eyni zamanda beynəlxalq səviyyədə əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

İki gün davam edən tədbirdə Avropa Şurasının ekspertləri Nicole Voorhuis, Jonathan Fisher və Cedric Bourgeois tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizənin aspektləri, bu kateqoriyadan olan cinayətlərlə mübarizə sahəsində müsbət təcrübə, istintaq sövdələşməsi institutunun ölkəmizdə tətbiqi yolları barədə təqdimatlar həyata keçirilmişdir.

Qarşılıqlı müzakirə formatında baş tutan tədbirlərdə çirkli pulların yuyulmasına qarşı mübarizə və istintaq sövdələşməsi ilə əlaqədar tədris tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə icra edilmiş, iştirakçıları maraqlandıran suallar ətraflı müzakirə edilmişdir.

Azərbaycan Respublikasının prokurorluq orqanları bundan sonra da korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, digər dövlətlərin hüquq mühafizə orqanları və ixtisaslaşdırılmış antikorrupsiya qurumları ilə əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsi, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Ekstradisiya və hüquqi yardım məsələlərinə həsr edilmiş beynəlxalq seminar keçirilmişdir

İyunun 21-dən 23-dək Bakıda BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsinin təşkilatçılığı ilə cinayət işlərində qarşılıqlı hüquqi yardımın göstərilməsi və ekstradisiya məsələlərində yaranan maneələrin praktiki həlli mövzusunda beynəlxalq seminar keçirilmişdir.

Tədbirdə Azərbaycan, Rusiya, ABŞ, Almaniya, Birləşmiş Krallıq, İsveçrə, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın hüquq mühafizə orqanlarının, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin, EUROJUST və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov seminarda çıxış edərək transmilli cinayətkarlıqla mübarizədə xarici dövlətlərin hüquq mühafizə orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlığın ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edərək Azərbaycanın hüquqi yardım və ekstradisiya sahəsində çoxtərəfli beynəlxalq müqavilələrə qoşulduğunu diqqətə çatdırmış və bu sənədlərdən irəli gələn öhdəliklərin tam, vaxtında və keyfiyyətlə icrasının təmin olunduğunu bildirmişdir.

Xüsusi vurğulanmışdır ki, Erməni silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağ və digər ərazilərin işğalı nəticəsində Azərbaycanın dövlət sərhədlərinin bir hissəsinə hazırda işğalçılar tərəfindən nəzarət edilməklə işğal edilmiş ərazilər terrorçu qruplaşmaların hazırlığı üçün "azad zonaya" çevrilmiş, nüvə materialları, narkotik vasitələr, silah və sursatlar da daxil olmaqla müxtəlif növ malların qanunsuz ötürülməsi və ticarəti üçün istifadə edilir.

Seminarda ölkəmizin nümayəndə heyəti ilə iştirakçı ölkələrin nümayəndə heyətləri arasında ekstradisiya və hüquqi yardım sahəsində mövcud vəziyyət, bu sahədə fəaliyyətin səmərəliliyinin artırılması və qarşıda duran perspektivlər müzakirə edilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Azərbaycan Prokurorluğu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsi (ACN) ilə əməkdaşlığını uğurla davam etdirir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsi (ACN) ilə səmərəli əməkdaşlığını uğurla davam etdirir.

Aprelin 21-22-də Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) Rəhbər Qrupunun 20-ci görüşündə IV Monitorinq Raundu üzrə qabaqcıl ölkələr kimi Azərbaycan Respublikasının Gürcüstanla yanaşı monitorinq mərhələsinə daxil olması müəyyən edilmişdir.

İyunun 20-24-də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) İstanbul Fəaliyyət Planı çərçivəsində IV Monitorinq mərhələsi ilə əlaqədar ekspert qrupu Azərbaycan Respublikasında səfərdə olmuşdur

IV Monitorinq mərhələsi çərçivəsində ekspert qrupunun üzvləri ilə bir sıra dövlət orqanlarının nümayəndələri, eləcə də müxtəlif rayon (şəhər) və apellyasiya məhkəmələrinin hakimləri arasında anti-korrupsiya siyasəti və qurumları, biznesdə dürüstlük, korrupsiyaya dair cinayət qanunvericiliyi və onun praktikada tətbiqi, dövlət qulluğunda dürüstlük, korrupsiya cinayətlərinin ibtidai istintaqı, dövlət ittihamının müdafiə edilməsi və cəzalandırılma, dövlət rəsmilərinin dürüstlüyü, məhkəmə sistemində və prokurorluqda dürüstlük, təhsil sektorunun ətraflı qiymətləndirilməsi, dövlət idarəçiliyində məsuliyyət və şəffaflıq, dövlət satınalmalarında şəffaflıq adlı müzakirə panellərində görüşlər və müzakirələr keçirilmişdir.

Bundan əlavə, ekspert qrupunun üzvləri Azərbaycan Respublikasının Milli Məclisi, Təhsil Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatasına səfər edərək bir sıra görüşlər keçirmiş, 5 saylı ASAN xidmət mərkəzinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Sonda Azərbaycan üzrə müvafiq monitorinq hesabatın Şəbəkənin 2016-cı il sentyabrın 14-16-da Fransanın Paris şəhərində keçirəcək növbəti iclasında qəbul edilməsi nəzərdə tutulmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Mülki müdafiə məsələləri üzrə məşğələ keçirilmişdir

Mayın 13-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi və FHN-in Mülki müdafiə idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluğun rəhbər heyəti üçün mülki müdafiə üzrə məşğələ keçirilmişdir.



Məşğələnin məqsədi fövqəladə hadisələr zamanı Baş Prokurorluğun rəhbər heyətinin funksional vəzifələrinin öyrənilməsi, mülki müdafiə planlarının dəqiqləşdirilməsi, əməkdaşların təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi üzrə hazırlıq səviyyəsinin yüksəldilməsi, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə olunmasının təşkilində praktiki vərdişlərin artırılması olmuşdur.

Müraciətlərə baxılması idarəsinin prokuroru Yadigar Aslanov bu sahədə həyata keçirilən tədbirlər barədə qısa məlumat verəndən sonra FHN-in Mülki müdafiə idarəsinin şöbə rəisi Zaur Məmmədrzayev və FHN-in Səbail rayon Fövqəladə Hallar və Mülki müdafiə şöbəsinin rəisi Nazir Əkbərov tərəfindən əhalinin mühafizəsinin təşkili, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üçün xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsinin qaydası, eləcə də belə şəraitdə idarəetmənin təşkili (idarəetmə məntəqələrindən və rabitə kanallarından istifadə olunması, xəbərdarlıq siqnallarının verilməsi qaydası və s.) barədə geniş məlumat verilmiş, dövlət orqanlarının hərbiləşdirilməmiş mülki müdafiə dəstələri və rəhbər heyətinin fövqəladə hallar zamanı yerinə yetirməli olduqları tədbirlər barədə danışılaraq zəruri tövsiyələr verilmişdir.

Tədbir zamanı Mülki müdafiə idarəsi əməkdaşlarının keçirdikləri qəza-xilasetmə təlimlərinin gedişini əks etdirən slaydlar nümayiş etdirilmiş, suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məsələlərinə həsr edilmiş seminar keçirilmişdir

Aprelin 27də Bakı şəhər prokurorluğunda müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məsələlərinə həsr edilmiş seminar keçirilmişdir. Seminarda Bakı şəhər prokurorluğunun və Bakı şəhəri rayon prokurorluqlarının işçiləri iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi rəisinin müavini Aynur Osmanova prokurorluq orqanlarında müraciətlərə baxılması və və-



təndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışmış, «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin müddəalarını ətraflı şərh etməklə müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsinə dair konkret tövsiyələr vermiş, müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyətini vurğulayaraq son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə ətraflı məlumat vermişdir.

Seminarda həmçinin 14.11.2015-ci il tarixində qüvvəyə minmiş “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun əhəmiyyəti barədə danışılaraq onun müddəaları ətraflı təhlil edilmiş, yeni Qanunun tətbiqi ilə əlaqədar 10/100 №-li əmrdə aparılmış dəyişikliklərin mahiyyətini açıqlanaraq bu dəyişikliklər nəzərə alınmaqla əmrin tələblərinin tətbiqinə dair zəruri tövsiyələr verilmişdir.

Seminarda təcrübədə yaranan problemlər müzakirə edilmiş, tabe prokurorluqların fəaliyyətində daha tez rast gəlinən nöqsan və pozuntular təhlil edilmişdir. Geniş fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

***




Mayın 23-də Sumqayıt şəhər prokurorluğunda bölgə prokurorluqları əməkdaşlarının iştirakı ilə prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili, səmərəliliyinin artırılması məsələlərinə həsr edilmiş seminar keçirilmişdir. Seminarda Sumqayıt şəhər, Abşeron, Qusar, Quba, Qubadlı, Şabran, Xaçmaz, Siyəzən və Xızı rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Tural Qəhrəmanov prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məlumat vermiş, «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin müddəaları üzrə ətraflı izah vermiş, bu sahədə işin düzgün təşkili və həyata keçirilməsinə dair tövsiyələrini bildirmişdir. Çıxışda tətbiq edilən informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti qeyd edilmiş, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə ətraflı məlumat verilmişdir.

Tədbirdə 14.11.2015-ci il tarixində qüvvəyə minmiş “Vətəndaşların müraciətləri haqqında”

Azərbaycan Respublikası Qanununun əhəmiyyəti, onun müddəalarının tətbiqi xüsusiyyətləri barədə ətraflı müzakirələr aparılmışdır. Qanunun tətbiqi ilə əlaqədar 10/100 №-li əmrdə aparılmış dəyişikliklərin mahiyyəti açıqlanmış, bu dəyişikliklər nəzərə alınmaqla əmrin tələblərinin tətbiqinə dair zəruri tövsiyələr verilmişdir.

Seminarda təcrübədə yaranan digər problemlər də müzakirə edilmiş, maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.



## Məxfi kargüzarlıq işinin təşkili mövzusunda seminar keçirilmişdir




Mayın 20-də Qusar rayon prokurorluğunda Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) Seyfulla Aslanovun rəhbərliyi ilə «Məxfi kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilmişdir.

Tədbirdə Qusar, Quba, Xaçmaz və Şabran rayon prokurorluqlarının işçiləri iştirak etmişlər. Seminarda prokurorluq orqanlarında məxfiçilik və məxfilik rejiminin təmin olunması, bu sahədə icraya nəzarət və məxfi kargüzarlıq işinin təşkili sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verilərək Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələbləri şərh edilmiş, dövlət sirrinin qorunması və məxfiçilik rejiminə əməl olunmasının təmin edilməsinin vacibliyi vurğulanmışdır. Bundan başqa, seminar iştirakçılarına məxfiçiliyin qorunması və məxfi sənədlərlə iş zamanı yerinə yetirilməli olan hərəkətlər, əməl edilməsi zəruri olan prosedurlar barədə məlumat verilmiş, məxfi kargüzarlıq işinin təşkili ilə bağlı konkret tövsiyələr verilmişdir. Həmçinin təcrübədə daha tez rast gələnən problem və çətinliklərdən danışılmış, bu sahədə yol verilən xarakterik nöqsanlar təhlil edilmişdir.

Geniş fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanları qarşısında duran vəzifələrə aid seminarlar keçirilmişdir



İyunun 9-u Xaçmaz rayon prokurorluğunda, 14-ü isə Göyçay rayon prokurorluğunda Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi tərəfindən «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanları qarşısında duran vəzifələr» mövzusuna aid seminar keçirilmişdir.

Tədbirlərdə Sumqayıt şəhər, Xaçmaz, Abşeron, Qubadlı, Quba, Qusar, Şabran, Xızı, Göyçay, Ağsu, Şamaxı, Qobustan, İsmayıllı, Qəbələ, Ucar, Kürdəmir, Zərdab, Ağdaş, Hacıqabul rayon və Sumqayıt hərbi prokurorluqlarının müvafiq işçiləri iştirak etmişlər.

Qeyd olunmuşdur ki, cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı vaxtdan korrupsiyaya qarşı mübarizə siyasi fəaliyyətin prioritet istiqamətlərindən biri olmaqla onun təşəbbüsü və rəhbərliyi ilə beynəlxalq təcrübə nəzərə alınaraq mütərəqqi qanunvericilik bazası formalaşdırılmış, mühüm institusional tədbirlər həyata keçirilmişdir. Dövlət başçısının siyasi iradəsinin ifadəsi olaraq qəbul edilmiş, dövlət orqanları ilə ictimaiyyətin səylərini birləşdirən «Korrupsiya mübarizə üzrə 2004-2006-cı illər üçün Dövlət Proqramı», «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya» və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Milli Fəaliyyət Planı, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün hüquqi zəmin yaratmışdır.

Diqqətə çatdırılmışdır ki, "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasi Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncami ilə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsi və nəzərdə tutulan tədbirlərin əhatəsi Azərbaycanda açıq hökumət prinsiplərinin genişlənməsi və korrupsiyanın qarşısının alınması üçün mövcud güclü siyasi iradənin növbəti göstəricisidir. Qeyd olunan planın səmərəli realizəsi üçün Azərbaycan Respublikası Baş Prokurorluğunun 19 may 2016-cı il tarixli "Tədbirlər Planı" icraya yönəlmişdir.

Mövzu ilə bağlı müzakirələr aparılaraq suallar cavablandırılmış, iştirakçıların mülahizələri dinlənilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda gələcək hüquqşünaslarla görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilib.

Aprelin 5-də Universitetin bu ixtisas üzrə 2 və 4-cü kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Burada tələbələri prokurorluğun kriminilastik avtomaşınının iş prinsipi ilə tanış ediblər. Tələbələrə cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri barədə danışılıb. Cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elan etmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri izah olunub.

Tələbələrə "Prokurorluq haqqında" Qanuna əsasən prokurorluğun fəaliyyət istiqamətləri barədə də məlumat verilib.





Tələbələrin Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsində açıq məhkəmə prosesində iştirakları da təmin olunub. Məhkəmə prosesindən sonra tələbələrə Azərbaycan Respublikasının qanunvericilik bazasında compüter proqramı barədə məlumat verilib. Qeyd olunub ki, proqrama Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar və ikitərəfli müqavilələr, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarının və digər sənədlərin nümunələri daxildir. Tələbələrə prokurorluq orqanlarında işə qəbul, prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin kompüter vasitəsilə yoxlanılması, attestasiyalar keçirilməsi qaydaları haqqında da məlumat verilib.

Aprelin 6-da isə Universitetdə Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrlə görüş keçirilib. Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu ixtisas üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev Ali Məclis Sədrinin adıçəkilən sərəncamının və bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Prokuror bildirib ki, bu sərəncam tələbələrin dərs məşğələləri zamanı qazandıqları biliklərin təcrübədə tətbiqi, onların gələcək fəaliyyətə hazırlanmaları, yaxşı mütəxəssis kimi yetişmələri baxımından böyük əhəmiyyətə malikdir. Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair tədbirlər planının təsdiq olunduğunu bildirən prokuror diqqətə çatdırıb ki, planda Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması nəzərdə tutulub. Bundan başqa, planda gələcək hüquqşünasların muxtar respublika prokurorluğunun kitabxanasından və qanunvericilik bazası sistemindən istifadə etmələri, istehsalat təcrübələri keçmələri üçün lazımi şərait yaradılması da öz əksini tapıb.

Prokuror bildirib ki, artıq bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər davam etdirilir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb, gələcəkdə görüləcək işlər barədə təkliflər dinlənilib.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

## Azərbaycan Respublikasının Baş Prokurorluğu kibercinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

Mayın 23-dən 25-dək Fransanın Strasburq şəhərində Avropa Şurasının Kibercinayətkarlıq üzrə Konvensiya Komitəsinin (TC-Y) 15-ci plenar iclası keçirilmişdir.

Avropa Şurasına üzv dövlətlərin, "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasına tərəfdar çıxmış 70-dən artıq dövlətin və beynəlxalq təşkilatların iştirak etdiyi tədbirdə komitənin icraçı katibi Aleksandr Seger və müavini Kristina Şulman məruzə ilə çıxış edərək beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi vasitəsilə cəmiyyətin kibercinayətkarlıqdan qorumağa yönəlmiş cinayət hüququ sahəsində ümumi siyasətin prioritet qaydada aparılmasının zəruriliyi barədə geniş məlumat vermişlər. Bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti xüsusi vurğulanmış, informasiyaların qorunması və mübadiləsi, hüquqi yardım haqqında istintaq sorğularının icrası, ekstradisiya məsələləri və s. müzakirə edilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunu təmsil edən Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov kibercinayətkarlıqla mübarizə sahəsində ölkəmizdə həyata keçirilən işlər, o cümlədən konvensiyadan irəli gələn və milli qanunvericiliyə inkorporasiya edilmiş müddəalar haqqında ətraflı məlumat vermiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışdır. Həmçinin hüquqi yardımın göstərilməsi ilə bağlı tətbiq olunması planlaşdırılan vahid formalarla bağlı təkliflər irəli sürülmüşdür.

## Azərbaycan Prokurorluğunun nümayəndə heyəti beynəlxalq forumda iştirak etmişdir

İyunun 28-29-da Xorvatiya Respublikasının paytaxtı Zaqreb şəhərində Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi Proqramı (TAİEX), Xorvatiya Respublikasının Baş Prokurorluğu və Almaniya Federativ Respublikası (AFR) Saksoniya Torpağının Baş Prokurorluğu tərəfindən təşkil olunmuş Transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə üzrə prokurorların 18-ci beynəlxalq forumu keçirilmişdir.

Foruma dünyanın 28 ölkəsindən yüksək səviyyəli nümayəndə heyətləri qatılmışdır. Tədbirdə Azərbaycan Prokurorluğunu Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Kamal Qılıcov, Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov və Quba rayon prokuroru Valeh Səmədovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

Forumda AFR-ın Federal Baş prokuroru Peter Frank, həmin ölkənin Vürtemberq Torpağının Baş prokuroru Açim Braunayzen, Belçika Krallığının Federal prokuroru Frederik Van Leeuv, Türkiyə Respublikası Ali Məhkəməsinin prokuroru İlknur Altuntaş və digər ekspertlər beynəlxalq müstəvidə olan cinayətlərin təqibi, mütəşəkkil cinayətkarlığın təqibində texniki yardım, odlu silahın qanunsuz alveri, insan alveri, Avropanın şərq və qərb marşrutları üzrə mütəşəkkil miqrant alveri, insan qaçaqmalçılığı, İnternet şəbəkəsinin radikallaşdırılması və terrorçuluqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq mövzularında çıxışlar dinlənilmiş, iştirakçılar tərəfindən təcrübə mübadiləsi və müzakirələr aparılmışdır.

Forumun yekununda TAİEX benefisiarları tərəfindən perspektivlərin qiymətləndirilməsi və nəticələrin müzakirəsi aparılmışdır.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Mehmet Akarca, Xorvatiya Respublikasının Baş prokuroru Dinko Svetan, Belarus Respublikasının Baş prokuroru Aleksandr Konyuk, Gürcüstanın Baş prokuroru İrakli Şotadze, Moldova Respublikasının Baş prokuroru vəzifəsini icra edən Eduard Xarunjen və onların başçılıq etdikləri nümayəndə heyətləri ilə görüşmüş, Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə həmin ölkələrin baş prokurorluqları arasında əməkdaşlığın perspektivləri və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

## Ekstradisiya və hüquqi yardım sahəsində əməkdaşlıq beynəlxalq tədbirdə müzakirə olunmuşdur

İyunun 2-3-də Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi Proqramı olan TAIEX alətinin 20 illiyi ilə əlaqədar Varşavada Polşa Respublikasının Ədliyyə və Xarici İşlər nazirliklərinin təşkilatçılığı ilə "Cinayət işləri üzrə məhkəmə əməkdaşlığı" mövzusunda beynəlxalq seminar keçirilmişdir.

Avropa İttifaqının üzv ölkələrinin, EUROJUST təşkilatının və Cənub-Şərgi Avropa dövlətlərinin yüksək vəzifəli şəxslərin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasını Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Sahib İsmayılov və Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin rəisi – idarə rəisinin müavini vəzifəsini icra edən Anar Məmmədov təmsil etmişlər.

Polşanın ədliyyə nazirinin müavini Marsin Vorxotun rəhbərliyi ilə keçirilən tədbirdə Avropa İttifaqı ölkələrinin nümayəndələri tərəfindən "Avropa həbs orderi" (European

Arrest Warrant) barədə geniş məlumat verilmiş, prosedur məsələləri, konkret cinayət işləri üzrə şəxslərin verilmə mexanizmi, hüquqi yardım göstərilməsi prosesi zamanı ölkələrin məhkəmə orqanları arasında qarşılıqlı tanınma və bir-birinə etibarlıq prinsipləri qeyd edilmişdir.

Tədbir zamanı ölkəmizin nümayəndə heyəti ilə iştirakçı ölkələrin nümayəndə heyətləri arasında ekstradisiya və hüquqi yardım sahəsində mövcud vəziyyət və qarşıda duran perspektivlər müzakirə edilmişdir.

## Baş Prokurorluğun nümayəndəsi mədəniyyət abidələrinin qorunmasına həsr olunmuş beynəlxalq tədbirdə iştirak etmişdir

Mayın 31-dən iyunun 1-dək Fransanın Strasburq şəhərində Avropa Şurasının Mədəniyyət abidələrinə qarşı cinayətlər üzrə Komitəsinin 1-ci iclası keçirilmişdir.

"Mədəniyyət Abidələrinə Qarşı Cinayətlər haqqında Delfi Konvensiyası" 1985-ci ildən imzalanmaq üçün Avropa Şurası ölkələri üçün açıq olsa da, onun mətnində mədəniyyət abidələrinin anlayışı müəyyən edilmədiyindən Konvensiya bir neçə ölkə tərəfindən imzalanmış, lakin heç bir ölkə tərəfindən ratifikasiya edilməmişdir. Bu səbəbdən Avropa Şurası tərəfindən yeni konvensiyanın hazırlanıb qəbul edilməsi vəzifəsi qarşıya qoyulmuşdur.

Tədbirdə yeni Konvensiyanın adı, "mədəniyyət abidələri" anlayışı, Konvensiyaya bir sıra xüsusi müddəaların əlavə edilməsi, o cümlədən sənədin Avropa Şurasının daha çox ölkəsi tərəfindən imzalanması ilə yanaşı Şuraya üzv olmayan üçüncü ölkələr tərəfindən ratifikasiya edilməsi məsələləri müzakirə olunmuşdur.

Azərbaycan Respublikası Baş Prokurorluğunu təmsil edən Beynəlxalq əlaqələr idarəsinin prokuroru Kamran Həsənov iclasda çıxış edərək mədəni, tarixi və arxeoloji əşyaların Azərbaycan sərhədindən gömrük nəzarətindən kənar, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə keçirilməsinə, tarixi, elmi, ədəbi və mədəni dəyəri olan əşyaların və sənədlərin talanmasına, dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrinin qəsdən məhv edilməsinə görə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində məsuliyyətin nəzərdə tutulduğunu, eləcə də Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn əməllərin törədildiyi haqda iştirakçılara ətraflı məlumat vermişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

## Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

Mayın 23-24-də Rumıniyanın paytaxtı Buxarest şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) İşçi Qrupunun "Səhiyyə sistemində korrupsiya – preventiv tədbirlər və istintaq, ən yaxşı təcrübələr və qarşıda duran vəzifələr" mövzusunda konfrans keçirilmişdir.

Tədbirdə təşkilata üzv ölkələrin səhiyyə sistemində korrupsiyanın qarşısının alınması üçün görülmüş qabaqlayıcı tədbirlər, bu sahədə dövlət satınalmalarının həyata keçirilməsi zamanı baş verən korrupsiya hüquqpozmalarının araşdırılması üsulları və mübarizə mexanizmləri ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

Konfransda ölkəmizi təmsil edən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru İsfəndiyar Hacıyev çıxış edərək ölkəmizdə korrupsiya qarşı mübarizənin möhkəm siyasi iradəyə əsaslandığını vurğulamaqla səhiyyə sistemində korrupsiyanın qarşısının alınması məqsədi ilə həyata keçirilmiş hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat vermiş və tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Hüquqi statistika üzrə beynəlxalq tədbir keçirilmişdir

Aprelin 19-20-də Ukraynanın paytaxtı Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın «Terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotiklərin yayılması ilə mübarizə» üzrə işçi qrupun Hüquqi statistika üzrə alt işçi qrupunun (İAQ-STAT) növbəti iclası keçirilmişdir.

Gürcüstan, Ukrayna və Moldova Respublikalarının, GUAM Katibliyinin nümayəndələrinin iştirak etdikləri bu tədbirdə Azərbaycan Respublikasından Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəis müavini – Hüquqi statistika şöbəsinin rəisi Rövşən Əliyev, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin məsul əməkdaşları iştirak etmişlər.

Tədbir çərçivəsində nümayəndə heyətləri tərəfindən 2015-ci ildə GUAM ölkələrində cinayətkarlıqla mübarizənin nəticələri barədə məlumat mübadiləsi aparılmış, Azərbaycan Respublikası tərəfindən hüquqi statistika üzrə 2015-ci ilə dair statistik məlumatların təqdim olunduğu iştirakçıların diqqətinə çatdırılmışdır.

GUAM-a üzv olan ölkələrin 2015-ci il üçün hazırlanacaq statistik məlumat bülleteni ilə əlaqədar məsələlər ətrafında çıxış edən Rövşən Əliyev Azərbaycanda cinayətkarlığın dinamikası barədə məlumat verməklə iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 465-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"Qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanına və ya siyasi partiya tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim olunan maliyyə hesabatına qəbul edilmiş ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatın daxil edilməməsinə görə -".

**2.** 43.1-ci maddəyə "459.2," rəqəmlərindən sonra "462 (siyasi partiyalara münasibətdə)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 mart 2016-cı il
№ 173-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində göstərilən, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin müəyyən edilməsi məqsədi ilə **qərara alır:**

**1.** "Güclü təsir edən maddələr və onların külli miqdarının Siyahısı" təsdiq edilsin *(1 nömrəli əlavə).*

**2.** "Zəhərli maddələrin Siyahısı" təsdiq edilsin *(2 nömrəli əlavə).*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 mart 2016-cı il
№ 180-VQ

Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli
Qanunu ilə təsdiq edilmişdir
***1 nömrəli əlavə***

| Sıra №-si | Maddələrin adı | Külli miqdar (qramlarla) daxil olmaqla aşağı hədləri |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Androstanolon | 2,5 |
| 2. | Androstenediol | 2,5 |
| 3. | Androstenedion | 2,5 |

| | | |
|---|---|---|
| 4. | Baklofen (β-(aminometil)-4-xlorbenzolpropanol turşusu) | 12 |
| 5. | Benaktizin (amizil)<br>(2-dietilamin efirinin benzoy turşusunun hidroxloridi) | 2 |
| 6. | Benzobarbital (1-benzoil-5-etil-5-fenilbarbitur turşusu) | 10 |
| 7. | Bolasteron | 10 |
| 8. | Boldenon | 10 |
| 9. | Boldion (androst-1,4-dien-3,17-dion) | 10 |
| 10. | Bromizoval<br>(N-(aminokarbonil)-2-brom-3-metilbutanamid) | 15 |
| 11. | Çovdar mahmızı (çovdar mahmızının erqotamin ştamının sklerosiyaları, çovdar mahmızının erqotoksin ştamının sklerosiyaları) | 100 |
| 12. | Danazol (17 α)-preqn-2,4-dien-20-ino 2,3-d-izoksazol-17- ol) | 20 |
| 13. | Dehidroxlormetiltestosteron<br>(4-xlor-17β-hidroksi-17α-metilandrost-1,4-dien-3-on | 10 |
| 14. | Dezoksimetiltestosteron (17α-metil-5α-androst-2-en-17β- ol) | 10 |
| 15. | Drostanolon | 10 |
| 16. | Efedrin – həb və ampul şəklində (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində güclü təsiredici sayılmır) | 10 |
| 17. | Efedra otu (Acılıqotu) və Efedra cinsinə aid olan istənilən növ bitkilərin oduncaqlaşmamış zoğları, eləcə də onların emal məhsulları | 1000 |
| 18. | Erqotal (çovdar mahmızının alkaloidlərinin fosfat duzlarının qarışığı) | 1 |
| 19. | Etilxlorid (xloretil) | 300 |
| 20. | Etilestrenol (19-nor-17α-preqn-4-en-17-ol) və eyni kimyəvi strukturla və ya eyni bioloji effektlə olan ayrı substansiyalar | 10 |
| 21. | Feprozidnin (sidnofen) (3-(β-fenilizopropil) sidnonimin hidroxlorid) | 0,6 |
| 22. | Fenfluramin N-Etil-α-metil-3-(triftormetil) benzoletanamin | 2 |
| 23. | Fluoksimesteron | 2,5 |
| 24. | Formebolon | 10 |
| 25. | Furazabol<br>(17 metil-5α-androstano[2,3-c]furazan-17β-ol) | 10 |
| 26. | İsofluran 2-xlor -2-(diftorometoksi)-1,1,1-triftoretan | 250 |
| 27. | Heksobarbital<br>(5-(1-tsikloheksen-1-il)-1,5-dimetil-2,4,6 (1H, 3H,5H)- pirimidintrion | 1 |
| 28. | Gestrinon (17α-13-etil-17-hidroksi-18,19-dinorpreqna- 4,9,11-trien-20-in-3-on) | 10 |
| 29. | 4-hidroksitestosteron<br>(4,17β-dihidroksiandrost-4-en-3-on) | 10 |
| 30. | Xinbolon (kvinobolon) | 10 |
| 31. | Xloroform | 1500 |
| 32. | Xlorfenilpiperazin | 0,2 |
| 33. | Kalusteron | 10 |
| 34. | Klonidin (klofelin) (2-(2,6-dixlorfenilamin)-imidazolin hidroxlorid | 2 |
| 35. | Klostebol | 2,5 |
| 36. | Kava-kava (sərxoşedici bibər) və onun tərkibində olan maddələr | 10 |

| | | |
|---|---|---|
| 37. | Qammabutirolakton | 10 |
| 38. | Levomepromazin<br>((R)-2-metoksi-N,N,β-trimetil-10H-fenotiazin-10 propanamin) | 2 |
| 39. | Mestanolon | 10 |
| 40. | Mesterolon (1α-metilandrostanodon) | 2,5 |
| 41. | Metandienon (metandrostenolon) (17β-hidroksi-17α-metilandrost-1,4-dien-3-on) | 2,5 |
| 42. | Metandriol | 10 |
| 43. | Metasteron<br>(2α, 17α-dimetil-5α-androstan-3-on-17β-ol) | 10 |
| 44. | Metenolon | 10 |
| 45. | Metil-1-testosteron<br>(17β-hidroksi-17α-metil-5α-androst-1-en-3-on) | 10 |
| 46. | Metildienolon<br>(17 β-hidroksi-17α-metilestr-4,9-dien-3-on) | 10 |
| 47. | Metilnortestosteron<br>(17 β-hidroksi-17α-metilestr-4-en-3-on) | 10 |
| 48. | Metiltestosteron | 10 |
| 49. | Metiltrienolon<br>(17 β-hidroksi-17α-metilestr-4,9,11-trien-3-on) | 10 |
| 50. | Miboleron | 10 |
| 51. | 19- norandrostenediol | 2,5 |
| 52. | 19- norandrostenedion<br>(est-4-en-3, 17-dion) | 2,5 |
| 53. | N-metilefedrin | 10 |
| 54. | Nalbufin<br>(-)-17-(siklobutilmetil)-4,5α-epoksimorfinan-3,6α,14- triolhidroxlorid) | 10 |
| 55. | Nandrolon | 2,5 |
| 56. | Norboleton | 10 |
| 57. | Norklostebol | 10 |
| 58. | Noretandrolon | 10 |
| 59. | Oksabolon | 10 |
| 60. | Oksandrolon | 2,5 |
| 61. | Oksimesteron | 10 |
| 62. | Oksimetolon | 10 |
| 63. | Orto-xlorbenzilidenmalonodinitril | 2 |
| 64. | Propofol (Diprivan) (2,6-di(propan-2-il) fenol) | 1 |

| | | |
|---|---|---|
| 65. | Prostanozol<br>( [3,2-c] pirazol-5α -etioalloxolan-17 β-tetrahidropiranol) | 10 |
| 66. | Propilheksedrin | 2 |
| 67. | Psevdoefedrin – həb və ampul şəklində (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində güclü təsiredici sayılmır) | 10 |
| 68. | Preqabalin<br>(S)-3-(aminometil)-5-metilheksan turşusu | 5 |
| 69. | Sibutramin və onun eyni psixoaktiv təsirə malik struktur analoqları | 0,5 |
| 70. | Sefedrin<br>(2-[1-fenil-2-metil-(β-sianetil)]amino-propanol-1- hidroxlorid) | 10 |
| 71. | Stanozolol | 2,5 |
| 72. | Stenbolon | 10 |
| 73. | Trenbolon | 10 |
| 74. | Tianeptin<br>(RS)- 7 [(3-xlor-6,11-dihidro-6-metildibenzo [c,f] [1,2] tiazepin-11-il) amino] heptanoik turşusu S, S-dioksid | 10 |
| 75. | 1-testosteron<br>(17β-hidroksi-5α-androst-1-en-3-on) | 10 |
| 76. | Tetrahidrohestrinon<br>(18α-homo-preqn-4,9,11-trien-17β-ol-3-on) | 10 |
| 77. | Triheksifenidil (siklodol) (1-sikloheksil-1-fenil-3- piperidinpropan-1-ol) | 10 |
| 78. | Tropikamid N-etil-3-hidroksi-2-fenil-N (piridin-4-il-metil) propanamid | 0,2 |
| 79. | Tramadol hidroxlorid 100mq-150mq-200mq və daha artıq.<br>Bütün tramadol tərkibli dərman vasitələrinə şamil olunur.<br>(+/-)-trans-2-[(dimetilamin) metil]-1-(m-metoksifenil)-tsikloheksan-1-ol hidroxlorid) | 6 |
| 80. | Natrium tiopental<br>(5-(1-metilbutil)-5-etil-2 tiobarbitur turşusunun natrium duzu) | 1 |
| 81. | Zopiklon<br>4-metil-1-piperazinkarbon turşusunun 6-(5-xlor-2-piridinil) 6,7-di-hidro-7-okso-5H-pirrolo [3,4-b] pirazin-5-li-efiri | 0,9 |

**Qeyd:**

**1.** Bu Siyahıda göstərilən miqdarlar əsas təsiredici maddələrin təmiz çəkisidir.

**2.** Bu Siyahıda göstərilən bütün maddələrin duzları (belə duzların mövcudluğu mümkün olduğu halda), izomerləri (belə izomerlərin mövcudluğu mümkün olduğu halda), mürəkkəb və sadə efirləri güclü təsir edən maddələrə aiddir.

**3.** Bu Siyahıda sadalanan maddələrin daxil olduğu bütün dərman formaları (qarışıq və məhlullar) hansı firma (ticari) adına malik olmasından asılı olmayaraq güclü təsir edən maddələrə aiddir.

Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli
Qanunu ilə təsdiq edilmişdir
***2 nömrəli əlavə***

**Zəhərli maddələrin**

**S İ Y A H I S I**

| Sıra №-si | Maddələrin adı |
|---|---|
| **1** | **2** |
| 1. | N-asetilantranil turşusu<br>2-asetaminobenzoy turşusu |
| 2. | Akonitin (1α,3α,6α,14α,16β)-8-(asetiloksi)-20-etil-3,13,15-trihidroksi- 1,6,16-trimetoksi-4-(metoksimetil) akonitan-14-ila benzoat) və akonit otunun alkaloidləri (mezakonitin, lappakonitin, akonifin, akomonin, karakolin, talatizamin, metillikakonitin, iezakonitin, hipakonitin) |
| 3. | Aldrin<br>1,2,3,4,10,10-heksaxlor-1,4,4a,5,8,8a-heksahidro-1,4-endo, ekzo-5,8- dimetanonaftalin |
| 4. | Antranil turşusu və onun törəmələri o-aminobenzoy turşusu |
| 5. | Arsenit anhidridi və onun törəmələri, müxtəlif dozalarda olan dərman formaları daxil olmaqla |
| 6. | Arsenat anhidridi və onun törəmələri, müxtəlif dozalarda olan dərman formaları daxil olmaqla |
| 7. | Aseklidin<br>3-hinuklidinilasetat |
| 8. | Ağ (sarı) fosfor |
| 9. | Brusin, Qarğabükən otunun alkaloidi |
| 10. | Dildrin<br>1,2,3,4,10,10-heksaxlor-6,7-epoksi-1,4,4a,5,6,7,8,8a-oktahidro-endo-1,4- ,<br>ekzo-5,8- dimetanonaftalin |
| 11. | Erqometrin |
| 12. | Erqometrin-maleat |
| 13. | Etil spirti sintetik və ya spirtli içkilərin hazırlanması üçün yararsız, qeyri-qida xammalından hazırlanmış (hidrolizlə, sulfitlə, həmçinin etol) |
| 14. | Etilmerkurxlorid(etilcivə-xlorid) |
| 15. | Erqotamin |
| 16. | Erqotamin-tartrat |
| 17. | Etilen oksidi (oksiran, 1,2-epoksietan) |
| 18. | Fenilsirkə turşusu |
| 19. | Hiossiamin əsası |
| 20. | Hiossiamin-kamforat<br>(L-tropiltropat (kamforat) |

| | |
|---|---|
| 21. | Hiossiamin-sulfat<br>(L-tropiltropat (sulfat) |
| 22. | Hinuklidil-3-benzilat |
| 23. | Qliftor Qarışıq<br>1,3-diftorpropanol-2 (1)<br>70-75% (1) 1-ftor-3-xlorpropanol-2(2) 10-20 (2) |
| 24. | Qarğabükən otunun ekstraktı (Strycynos Nux-vomika extract) |
| 25. | İlan zəhəri |
| 26. | İ-M mayesi<br>(50% etilsellüloza, 50% metanol) |
| 27. | Karbaxolin<br>N-(β-karbamoiloksietil)-trimetilammonium xlorid |
| 28. | Merkaptofos |
| 29. | 3,4-Metilendioksifenil-2-propanon |
| 30. | Metallik civə və onun duzları<br>(texniki sənədi olan ölçən, işıqlandırıcı və digər cihazların tərkibində olduqda və həmçinin belə cihazların idxalı və ixracını nəzərə almamaqla) |
| 31. | Metil spirti (Metanol) |
| 32. | Natrium-xlorid, uranil-nitrat və 4-xlorbenzaldehid tərkibli maye |
| 33. | Nikel tetrakarbonil |
| 34. | Novarsenol<br>5-(3-amino-4-hidroksifenilarseno)-2-hidroksianilinometilsulfoksilat |
| 35. | Piperonal<br>1,3-benzodiokso-5-karbaldehid |
| 36. | Promeran və onun müxtəlif dozalarda dərman formaları<br>N-3-xlorcivə-2-metoksipropil karbamid |
| 37. | Saflaşdırılmış arı zəhəri |
| 38. | Safrol və izosafrol<br>4-allil-1,2-metilendioksibenzol |
| 39. | Sianid turşusu və onun duzları |
| 40. | Sianplav (qara sianid, kalsium və natrium sianid və xloridlərin qarışığı) |
| 41. | Sink-fosfid |
| 42. | Siklon B |
| 43. | Sintetik etil spirti |
| 44. | Sinxonin |
| 45. | Sirkə turşusunun anhidridi |
| 46. | Skopolamin-hidrobromid |

| | |
|---|---|
| 47. | Strixnin, strixnin nitrat və onun bütün dərman formaları |
| 48. | Tallium və onun duzları |
| 49. | Tetraetilqurğuşun və etilləşdirilmiş benzindən başqa onun digər maddələrlə qarışıqları (etil mayesi və başqaları) |
| 50. | Xanımotu alkaloidləri |
| 51. | Xlorpikrin |
| 52. | Zarin metilfosfon turşusunun ftoranhidridinin izopropil efiri |

**Qeyd:** Bu Siyahıda göstərilən maddələr elmi-tədqiqat laboratoriyalarında və tibb müəssisələrində kimyəvi reaktiv kimi, həmçinin elmi və tibbi məqsədlər üçün istifadə oluna bilər.

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 240.3.2-ci maddədə “külli” sözündən əvvəl “güclü təsir edən maddələrə münasibətdə” sözləri əlavə edilsin.

**2.** 240-cı maddənin “Qeyd” hissəsində “onların” sözü “güclü təsir edən maddələrin” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 mart 2016-cı il
№ 181-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510 № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445) 199-cu maddəsi aşağıdakı redaksiyada verilsin:

**“Maddə 199. İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma**

**199.1.** Təsərrüfat subyektlərinin digər rəqibləri bazardan kənarlaşdırmaq və ya yeni rəqiblərin bazara daxil olmasının qarşısını almaq məqsədilə rəqabəti məhdudlaşdıran vasitələrin tətbiqi barədə kartel sövdələşməsi, belə sövdələşmədə iştirak etmə, yaxud rəqabətin qarşısının alınmasına, aradan qaldırılmasına və ya məhdudlaşdırılmasına səbəb olan və ya səbəb ola bilən bazar maneələrini yaratma, məhdudlaşdırıcı fəaliyyət vasitələrindən istifadə etmə və ya digər inhisarçılıq hərəkətlərini etmə –

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə edilməklə iki il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**199.2.** Eyni əməllər:

**199.2.1.** təkrar törədildikdə;

**199.2.2.** mütəşəkkil dəstə tərəfindən törədildikdə;

**199.2.3.** şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

**199.2.4.** xeyli miqdarda ziyan vurduqda və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə –

üç il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**199.3.** Bu Məcəllənin 199.1-ci və ya 199.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

**199.3.1.** cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

**199.3.2.** hədə-qorxu ilə tələb etmə əlamətləri olmadan, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə özgənin əmlakını məhv etməklə və ya zədələməklə və ya belə məhv etmə və ya zədələmə hədəsi ilə törədildikdə;

**199.3.3.** külli miqdarda ziyan vurduqda və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə –

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə edilməklə yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

**1.** Bu Məcəllənin 199.2.4-cü maddəsində “xeyli miqdar” dedikdə on min manatdan əlli min manata-

dək olan məbləğ, 199.3.3-cü maddəsində isə "külli miqdar" dedikdə əlli min manatdan artıq olan məbləğ başa düşülür.

**2.** Bu Məcəllənin 199.1-ci maddəsində nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla həmin cinayət əməlinin aşkar edilməsinə və qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 aprel 2016-cı il
№ 184-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu; Azərbaycan Respublikasının 2016-cı il 1 fevral tarixli 123-VQD nömrəli, 4 mart tarixli 137-VQD və 171-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 215.3-cü maddə əlavə edilsin:

**"215.3.** İxtisaslaşdırılmış tibbi yardımın "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada göstərilməməsinə görə –

beş yüz manat məbləğində cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 aprel 2016-cı il
№ 193-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, №

2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445) aşağıdakı məzmunda 308-1-ci maddə əlavə edilsin:

**“Maddə 308-1. Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə**

**308-1.1.** Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə, bu əməllər xeyli miqdarda törədildikdə –

səkkiz min manatdan on min manatadək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-1.2.** Eyni əməllər külli miqdarda törədildikdə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu Məcəllənin 308-1.1-ci maddəsində “xeyli miqdar” dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, 308-1.2-ci maddəsində “külli miqdar” dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 aprel 2016-cı il
№ 199-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddədə “409,” rəqəmlərindən sonra “410.3,” rəqəmləri əlavə edilsin.

**2.** 54.2-ci maddədə “399,” rəqəmlərindən sonra “410.3,” rəqəmləri əlavə edilsin.

**3.** 410.1-ci maddədə “bu əməllər” sözlərindən sonra “iki” sözü əlavə edilsin, “üç yüz manatdan beş” sözləri isə “dörd yüz manatdan səkkiz” sözləri ilə əvəz edilsin.

**4.** 410.2-ci maddədə “min manatdan yuxarı” sözləri “iki min manatdan dörd min manatadək” sözləri ilə, “beş yüz manatdan yeddi” sözləri isə “min manatdan min beş” sözləri ilə əvəz edilsin.

**5.** Aşağıdakı məzmunda 410.3-cü maddə əlavə edilsin:

“410.3. Eyni əməllər dörd min manatdan yuxarı məbləğdə törədildikdə –

dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların vəzifəli şəxsləri dörd min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.”.

**6.** 410-cu maddəyə aşağıdakı məzmunda “Qeyd” hissəsi əlavə edilsin:

**“Qeyd:** Bu Məcəllənin 410-cu maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 aprel 2016-cı il
№ 200-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu, 2016-cı il 1 fevral tarixli 123-VQD, 4 mart tarixli 137-VQD, 171-VQD nömrəli qanunları) 189.2-ci maddəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 aprel 2016-cı il
№ 208-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Cinayət işlərinə dair hüquqi yardım haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Cinayət işlərinə dair hüquqi yardım haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1395-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Cinayət işlərinə dair hüquqi yardım haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 521) 2.2-ci maddəsinə “olmadıqda” sözündən sonra “və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 aprel 2016-cı il
№ 215-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1395-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 386; 2002, № 8, maddə 465; 2011, № 6, maddə 481; 2015, № 11, maddə 1290) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci maddəyə "olan" sözündən sonra "əcnəbi və ya vətəndaşlığı olmayan" sözləri əlavə edilsin.

**2.** 1.2-ci maddəyə "törətmiş" sözündən sonra "Azərbaycan Respublikasının ərazisində yaşayan, yaxud olan əcnəbi və ya vətəndaşlığı olmayan" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 aprel 2016-cı il
№ 216-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, №

5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 181-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 18.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"18.4.** Residivin müəyyən edilməsi zamanı aşağıdakılar nəzərə alınmır:

**18.4.1.** böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkumluqlar;

**18.4.2.** yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərə görə məhkumluqlar;

**18.4.3.** bu Məcəllənin 83-cü maddəsində nəzərdə tutulmuş qaydada götürülmüş və ya ödənilmiş məhkumluqlar.";

**1.2.** 47.3-cü maddənin ikinci cümləsində "on iki" sözləri "səkkiz" sözü ilə əvəz edilsin;

**1.3.** 128-ci maddə üzrə:

**1.3.1.** sanksiyada "üç yüz" sözləri "beş yüz manatdan min" sözləri ilə əvəz edilsin;

**1.3.2.** maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu maddədə nəzərdə tutulmuş əməli ilk dəfə törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunur.";

**1.4.** 162.2-ci maddədən "ildən beş" sözləri çıxarılsın;

**1.5.** 165-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:**

Bu Məcəllənin 165-166-cı maddələrində "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür.";

**1.6.** 165-1, 165-2, 165-3-cü maddələrin "Qeyd" hissələri ləğv edilsin;

**1.7.** 177-ci maddə üzrə:

**1.7.1.** 177.1-ci maddədə "yüz manatdan yeddi yüz" sözləri "beş yüz manatdan min" sözləri ilə əvəz edilsin;

**1.7.2.** aşağıdakı məzmunda 177.2.5-ci maddə əlavə edilsin:

**"177.2.5.** zərərçəkmiş şəxsin üzərindən, cibindən, çantasından və ya digər əl yükündən çıxarılmaqla törədildikdə –"

**1.7.3.** 177.3-cü maddədə "altı" sözü "yeddi" sözü ilə əvəz edilsin;

**1.7.4.** "Qeyd" hissəsinin 1-ci bəndində "177.1-ci maddəsində" sözləri "177.1, 178.1 və 179.1-ci maddələrində" sözləri ilə, "otuz manatdan min manatadək" sözləri "yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğdə" sözləri ilə əvəz edilsin;

**1.7.5.** "Qeyd" hissəsinin 2-ci bəndində "min manatdan yeddi min manatadək olan məbləğ, "külli miqdar" dedikdə isə yeddi" sözləri "üç min manatdan yuxarı, lakin on min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə on" sözləri ilə əvəz edilsin;

**1.8.** 184-cü maddə üzrə:

**1.8.1.** 184.1-ci maddədə "olmadan" sözündən sonra "xeyli miqdarda" sözləri əlavə edilsin;

**1.8.2.** 184.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.8.3.** 184.2.3-cü maddə ləğv edilsin;

**1.8.4.** 184.2-ci maddənin sanksiyasında "beş yüz manatdan" sözləri "iki min manatdan üç" sözləri ilə, "bir ildən üç" sözləri "iki ildən dörd" sözləri ilə əvəz edilsin;

**1.9.** 185-ci maddə üzrə:

**1.9.1.** 185.1-ci maddədə "iki ilədək müddətə islah" sözlərindən əvvəl "min manatdan iki min manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**1.9.2.** 185.2-ci maddədə "iki" sözündən əvvəl "iki min manatdan üç min manatadək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**1.10.** 186.1-ci maddədə "yüz manatdan beş yüz" sözləri "min manatdan iki min" sözləri ilə əvəz edilsin;

**1.11.** 189-1.3-cü maddədə "189-1.1-189-1.2-ci" sözləri, 189-1.4-cü maddədə və 189-1-ci maddənin "Qeyd" hissəsində "189-1.1 və 189-1.2-ci" sözləri "189-1.1 və ya 189-1.2-ci" sözləri ilə əvəz edilsin;

**1.12.** 190-cı maddə üzrə:

**1.12.1.** 190.2-ci maddədə "min manatdan üç min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək" sözləri ilə əvəz edilsin;

**1.12.2.** "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 192.1, 192-1.1, 192-1.2, 193.1, 194.1-1, 195.1, 195-1.1, 195-1.2, 196.1, 197.1, 198.1, 200-2.1, 203.1, 204.2, 205-2.1, 210.1, 211.1 və 212.1-ci maddələrində "xeyli miqdar"

dedikdə, iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, 190.2, 192.2.1, 192.2.2, 192-1.3.2, 193.2.1, 193.2.2, 194.2.4, 195.2, 195-1.3, 196.2, 197.2, 198.2, 200-2.3, 202.2, 202-1.2, 202-2.1, 203.2, 203-1.1, 204.3.2, 205.2.3, 205-2.2.3, 210.2, 211.2 və 212.2-ci maddələrində "külli miqdar" dedikdə yüz min manatdan artıq olan məbləğ başa düşülür.";

**1.13.** 192-ci maddə üzrə:

**1.13.1.** 192.1-ci maddənin dispozisiyasında "qeydiyyatına" sözündən sonra "(vergi uçotuna)" sözləri əlavə edilsin;

**1.13.2.** maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 192.1-ci maddəsində nəzərdə tutulan əməli ilk dəfə törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə cinayət məsuliyyətindən azad olunur.";

**1.14.** 192.1, 192-1.1, 192-1.2, 193.1, 195.1, 195-1.1, 196.1 və 210.1-ci maddələrin sanksiyasında "iki misli miqdarında" sözləri "iki mislindən dörd mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**1.15.** 192.2, 192-1.3, 193.2, 195.2, 195-1.2, 196.2 və 210.2-ci maddələrin sanksiyasında "üç misli miqdarında" sözləri "üç mislindən beş mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**1.16.** 193-cü maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 193.1-ci maddəsində nəzərdə tutulan əməli ilk dəfə törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə cinayət məsuliyyətindən azad olunur.";

**1.17.** 194.1-1-ci maddədə "beş min manatdan yeddi min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək" sözləri ilə əvəz edilsin;

**1.18.** 195-1-ci maddə üzrə:

**1.18.1.** 195-1.2 və 195-1.3-cü maddələrdə "tutma və" sözləri "tutma və ya" sözləri ilə əvəz edilsin;

**1.18.2.** 195-1.3-cü maddənin sanksiyasında "dörd misli miqdarında" sözləri "dörd mislindən altı mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**1.19.** 197-ci maddə üzrə:

**1.19.1.** 197.1-ci maddədə "min manatdan beş min manatadək miqdarda cərimə və ya bir" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki" sözləri ilə əvəz edilsin;

**1.19.2.** 197.2-ci maddədə "iki ilədək müddətə islah işləri" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə" sözləri ilə əvəz edilsin;

**1.20.** 198-ci maddə üzrə:

**1.20.1.** 198.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.20.2.** 198.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.21.** 200-cü maddə üzrə:

**1.21.1.** 200.3-cü maddədə "gizlədilməsi" sözündən sonra "ehtiyatsızlıqdan" sözü əlavə edilsin;

**1.21.2.** 200.4-cü maddədə "Eyni əməllər" sözləri "Bu Məcəllənin 200.3-cü maddəsində nəzərdə tutulmuş əməllər" sözləri ilə əvəz edilsin;

**1.21.3.** "Qeyd" hissəsində "qırx manatdan beş yüz manatadək miqdarında, "külli miqdar" dedikdə beş yüz" sözləri "yüz manatdan yuxarı, lakin üç min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə üç min" sözləri ilə əvəz edilsin;

**1.22.** 200-2-ci maddə üzrə:

**1.22.1.** 200-2.1-ci maddədə "üç min manatdan beş min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək" sözləri ilə əvəz edilsin;

**1.22.2.** 200-2.3-cü maddədə "yeddi min manatdan doqquz min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək" sözləri ilə əvəz edilsin;

**1.23.** 202.2 və 202-1.2-ci maddələrdə "beş yüz manatdan min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək" sözləri ilə əvəz edilsin;

**1.24.** 202-2-ci maddə üzrə:

**1.24.1.** 202-2.1-ci maddədə "iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə səkkiz min manatdan on min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək" sözləri ilə əvəz edilsin;

**1.24.2.** "Qeyd" hissəsində "Azərbaycan Res-

publikası Mülki Məcəlləsinin 1078-46.2 və 1078-47-ci maddələrində" sözləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 79.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

**1.25.** 203-cü maddə üzrə:

**1.25.1.** 203.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.25.2.** 203.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.26.** 203-1.1-ci maddədə "iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş min manatdan yeddi min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək" sözləri ilə əvəz edilsin;

**1.27.** 203-1.2-ci maddədə "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə yeddi min manatdan on min manatadək" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək" sözləri ilə əvəz edilsin;

**1.28.** 205-2-ci maddə üzrə:

**1.28.1.** 205-2.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.28.2.** 205-2.2-ci maddənin sanksiyasında "yeddi min manat miqdarında" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**1.29.** 208-ci maddənin "Qeyd" hissəsində ", "külli miqdar" dedikdə, otuz min manatdan yuxarı olan məbləğ" sözləri "yuxarı, lakin otuz min manatdan artıq olmayan məbləği, "külli miqdar" dedikdə otuz min manatdan artıq olan məbləği" sözləri ilə əvəz edilsin;

**1.30.** 209-cu maddə üzrə:

**1.30.1.** 209.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.30.2.** 209.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.30.3.** "Qeyd" hissəsinin 1-ci bəndində "iki min manatdan, "külli miqdar" dedikdə, dörd min manatdan yuxarı olan məbləğ" sözləri "iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləği, "külli miqdar" dedikdə yüz min manatdan artıq olan məbləği" sözləri ilə əvəz edilsin;

**1.31.** 211-ci maddə üzrə:

**1.31.1.** 211.1-ci maddənin sanksiyasında "iki" sözündən əvvəl "cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**1.31.2.** 211.2-ci maddənin sanksiyasında "iki" sözündən əvvəl "cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**1.32.** 212-ci maddə üzrə:

**1.32.1.** 212.1-ci maddənin sanksiyasında "iki min manatdan dörd min manatadək miqdarda" sözləri "cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**1.32.2.** 212.2-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**1.33.** 213-cü maddə üzrə:

**1.33.1.** 213.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən dörd mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.33.2.** 213.2-ci maddənin sanksiyasında "üç ilədək" sözlərindən əvvəl "cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya" sözləri əlavə edilsin;

**1.33.3.** "Qeyd" hissəsinin 1-ci bəndində "iki min manatdan əlli min manatadək olan məbləğ, "külli miqdar" dedikdə isə əlli min manatdan yuxarı" sözləri "iyirmi min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə yüz min manatdan artıq" sözləri ilə əvəz edilsin;

**1.34.** 213-1-ci maddə üzrə:

**1.34.1.** 213-1.2-ci maddədə "Eyni" sözü "Bu Məcəllənin 213-1.1-ci maddəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.34.2.** 213-1.4-cü maddədə "Eyni" sözü "Bu Məcəllənin 213-1.3-cü maddəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.35.** 213-3.2-ci maddədən "bir il ərzində" sözləri çıxarılsın;

**1.36.** 234.5 və 284.2-ci maddələrdə "beş" sözü "üç" sözü ilə əvəz edilsin.

**1.37.** 240-cı maddə üzrə:

**1.37.1.** 240.1-ci maddədə "və ya zəhərli" sözləri çıxarılsın;

**1.37.2.** aşağıdakı məzmunda 240.1-1-ci maddə əlavə edilsin:

**"240.1-1.** Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satma -

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.37.3.** 240.2-ci maddədə "Eyni hərəkətlər" sözləri "Bu Məcəllənin 240.1 və 240.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər" sözləri ilə, "beş" sözü "altı" sözü ilə əvəz edilsin;

**1.37.4.** 240.3-cü maddədə "240.1 və 240.2-ci maddələrində göstərilən" sözləri "240.1, 240.1-1 və 240.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.38.** 308-ci maddənin "Qeyd" hissəsinin 7-ci bəndində "arbitrajların xarici və ya yerli arbitrləri" sözləri "Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanun 2016-cı il iyunun 1-dən qüvvəyə minir.

**2.2.** Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə görə bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Onlar, habelə bu Qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

**2.3.** Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən və ya cəzasını çəkmiş, lakin məhkumluğu olan şəxslərin vəziyyəti bu Qanunla yaxşılaşdırılırsa, həmin məsələlərə, habelə bu Qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş məsələlərə hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən, cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılır.

**2.4.** Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə dair məhkəmələrin, ibtidai istintaq və ya təhqiqat orqanlarının icraatında olan cinayət işləri və materiallara əməlin cinayət olmasını və cəzalanmalı olmasını aradan qaldıran yeni qanunun qüvvəyə minməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilmə əsasları ilə xitam verilir və ya cinayət təqibinin başlanması rədd edilir və bu əməllərin inzibati məsuliyyətə səbəb olması məsələsi araşdırılır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 may 2016-cı il
№ 230-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli, 2016-cı il 1 fevral tarixli 123-VQD nömrəli, 4 mart tarixli 137-VQD və 171-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 43.1-ci maddədə "227," rəqəmlərindən sonra "227-1," rəqəmləri əlavə edilsin;

**1.2.** 157-ci maddədə "beş yüz manatdan min" sözləri "üç yüz manatdan beş yüz" sözləri ilə əvəz edilsin;

**1.3.** 227-ci maddədə:

**1.3.1.** "yüz" sözündən əvvəl (hər iki halda) "iki" sözü əlavə edilsin;

**1.3.2.** "Qeyd" hissəsində "otuz" sözü "yüz" sözü ilə əvəz edilsin;

**1.4.** Aşağıdakı məzmunda 227-1-ci maddə əlavə edilsin:

**"Maddə 227-1. Aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlak ziyanı vurma**

Aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə mülkiyyətçinin və ya sair sahibin əmlakına talama əlamətləri olmadan az miqdarda ziyan vurma –

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

**Qeyd:**

Bu maddədə "az miqdarda" dedikdə, üç min manatdan yuxarı olmayan məbləğ başa düşülür.";

**1.5.** 398-ci maddədə:

**1.5.1.** "qeydiyyatına" sözündən sonra "(vergi uçotuna)" sözləri əlavə edilsin;

**1.5.2.** "Qeyd" hissəsinin mətni 1-ci bənd hesab edilsin və həmin bənddə "411-413" rəqəmlərindən sonra ",415" rəqəmləri, "min" sözündən əvvəl "iyirmi" sözü əlavə edilsin;

**1.5.3.** "Qeyd" hissəsinə aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

**"2.** Bu Məcəllənin 398-ci maddəsində nəzərdə tutulan əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya inzibati xəta nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə inzibati məsuliyyətdən azad olunur.";

**1.6.** 401.1 və 401.2-ci maddələrdə "min beş yüz manatdan iki" sözləri "üç min manatdan dörd" sözləri ilə əvəz edilsin;

**1.7.** 402-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:**

Bu Məcəllənin 402-ci maddəsində nəzərdə tutulan əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya inzibati xəta nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə inzibati məsuliyyətdən azad olunur.";

**1.8.** 406, 407, 412, 419, 420 və 431-ci maddələrin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə edilir.";

**1.9.** 413-cü maddədə "fiziki şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**1.10.** 415-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"xəbərdarlıq edilir və ya inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə edilir.";

**1.11.** 420-ci maddənin "Qeyd" hissəsinin 2-ci bəndində və 431-ci maddənin "Qeyd" hissəsində "yeddi min manatadək olan" sözləri "yüz min manatdan yuxarı olmayan" sözləri ilə əvəz edilsin;

**1.12.** 428.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər iki yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min iki yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.";

**1.13.** 447-ci maddənin "Qeyd" hissəsində "qırx manatadək olan" sözləri "yüz manatdan yuxarı olmayan" sözləri ilə əvəz edilsin;

**1.14.** 449-cu maddənin "Qeyd" hissəsində "min manatadək olan" sözləri "iyirmi min manatdan yuxarı olmayan" sözləri ilə əvəz edilsin;

**1.15.** 460-cı və 505-ci maddələrin "Qeyd" hissələrində:

**1.15.1.** hissənin mətni 1-ci bənd hesab edilsin və "iki min manatadək olan" sözləri "iyirmi min manatdan yuxarı olmayan" sözləri ilə əvəz edilsin;

**1.15.2.** aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

**"2.** Bu maddədə nəzərdə tutulmuş əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə inzibati məsuliyyətdən azad olunur.";

**Maddə 2.** Bu Qanun 2016-cı il iyunun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 may 2016-cı il
№ 231-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 109.2-ci maddənin dördüncü cümləsində "Şikayətin" sözü "Bu Məcəllənin 109.2-1-ci maddəsinə əsasən tənbeh tədbirinin icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, şikayətin" sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 109.2-1-ci maddə əlavə edilsin:

**"109.2-1.** Şikayət verildiyi hallarda, barəsində şikayət olunan tənbeh tədbirinin icrasının dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 may 2016-cı il
№ 237-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 80-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 16.3-cü maddədə "Verilmiş şikayət" sözləri "Bu Qanunun 16.4-cü maddəsinə əsasən intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, verilmiş şikayət" sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 16.4-cü maddə əlavə edilsin:

**"16.4.** Şikayət verildiyi hallarda, barəsində şikayət olunan intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 may 2016-cı il
№ 238-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 39.7-ci maddənin ikinci cümləsində "Şikayətin" sözü "Bu Qanunun 39.8-ci maddəsinə əsasən tənbeh tədbirinin tətbiqinin dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, şikayətin" sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 39.8-ci maddə əlavə edilsin:

**"39.8.** Şikayət verildiyi hallarda, barəsində şikayət olunan tənbeh tədbirinin tətbiqinin dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 may 2016-cı il
№ 243-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, №

7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445) 156.2-ci maddəsinin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**“156.2.** Eyni əməllər:

**156.2.1.** vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

**156.2.2.** məsafədən idarə edilən pilotsuz uçan aparatlardan istifadə etməklə törədildikdə-”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 may 2016-cı il
№ 250-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1283-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu; Azərbaycan Respublikasının 2016-cı il 1 fevral tarixli 123-VQD nömrəli Qanunu; Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 137-VQD, 171-VQD, 173-VQD nömrəli qanunları; Azərbaycan Respublikasının 2016-cı il 5 aprel tarixli 193-VQD, 200-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddəyə “432.3,” rəqəmlərindən sonra “438.2, 438.3,” rəqəmləri əlavə edilsin.

**2.** 438-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 438. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, həmçinin belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi**

**438.1.** Banklara və bank olmayan kredit təşkilatlarına aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulmasına, həmçinin belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsinə görə –

vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək miqdarda, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək miqdarda cərimə edilir.

**438.2.** Səhmdar cəmiyyətlərinə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulmasına, həmçinin belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsinə görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək miqdarda, hüquqi şəxslər on min manatdan on beş min manatadək miqdarda cərimə edilir.

**438.3.** Digər hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulmasına, həmçinin belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan min manatadək miqdarda, hüquqi şəxslər beş min manatdan on min manatadək miqdarda cərimə edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 may 2016-cı il
№ 255-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1396-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 32-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın icrası müddəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 46.3-cü maddəsi ilə müəyyən edilmiş qaydada hesablanır.".

**2.** 157-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrası müddəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 45.2-ci maddəsi ilə müəyyən edilmiş qaydada hesablanır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2016-cı il
№ 263-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə

994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171,178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264,1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289,1298; № 12, maddə 1437, 1445; Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 179-VQD, 181-VQD nömrəli, 5 aprel tarixli 184-VQD və 199-VQD nömrəli qanunları) 214-1-ci maddəsinin "Qeyd"inin 1-ci bəndində "terror aksiyalarının" sözləri "terror aktlarının" sözləri ilə və "terror aksiyası" sözləri "terror aktı" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2016-cı il
№ 264-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286) 86-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanı birinci və apellyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlamaq, habelə birinci instansiya məhkəmələrində sədr və sədr müavini öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə, hakim öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda isə hakimin vəzifələrinin icrasını müvəqqəti olaraq digər müvafiq məhkəmənin hakimlərindən birinə həvalə etmək hüququna malikdir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2016-cı il
№ 268-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429; Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 173-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 594-1-ci maddə əlavə edilsin:

**"Maddə 594-1. Vətəndaşların müraciətləri haqqında qanunvericiliyin pozulması**

**594-1.1.** Vətəndaşların müraciətləri haqqında qanunvericiliyin pozulmasına, yəni:

**594-1.1.1.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq verilən müraciətin qəbul edilməməsinə;

**594-1.1.2.** vətəndaşların müraciətlərinin aidiyyəti üzrə baxılması üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərilməsinə;

**594-1.1.3.** vətəndaşların qəbulunun "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təşkil edilməməsinə;

**594-1.1.4.** dövlət orqanlarının və vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədi ilə edilən müraciətə görə vətəndaşın təqib edilməsinə görə –

vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

**Qeyd.** Bu Məcəllənin 594-1.1.4-cü maddəsində nəzərdə tutulmuş əməllərdə cinayət tərkibinin əlamətləri olduqda, həmin əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.".

**2.** 54.2-ci maddədə "573" rəqəmlərindən sonra "594-1," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 iyun 2016-cı il
№ 282-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237) 20-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında “şikayət və” sözlərindən sonra “digər” sözü əlavə edilsin.

**2.** Birinci hissədə “və müraciətlərə” sözləri “və təkliflərə” sözləri ilə əvəz edilsin.

**3.** İkinci və üçüncü hissələrdə “müraciətlərə” və “müraciətlərdə” sözləri müvafiq olaraq “məlumatlara” və “məlumatlarda” sözləri ilə əvəz edilsin.

**4.** Dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

“Prokurorluq orqanlarında “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verməyən anonim müraciətlər qəbul edilmir və onlara baxılmır.”.

**5.** Aşağıdakı məzmunda beşinci və altıncı hissələr əlavə edilsin:

“Dövlət orqanının (və ya onun vəzifəli şəxsinin) qanunazidd hərəkəti (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə bu Qanuna və “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun 12.6-cı maddəsinə uyğun olaraq baxılır.

Azərbaycan Respublikasının baş prokuroru “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun 12.6-cı maddəsində göstərilən müraciətlərə baxılmasının nəticələri barədə altı ayda bir dəfədən az olmayaraq müvafiq icra hakimiyyəti orqanına məlumat verir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 iyun 2016-cı il
№ 284-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237) 33-cü maddəsinin yeddinci hissəsində “pozduğuna” sözündən sonra “, vəzifələrini layiqincə yerinə yetirmədiyinə, həmçinin “Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi”nin tələblərinə əməl etmədiyinə” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 iyun 2016-cı il
№ 294-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanını “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr

tarixli 1388-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü hissə üzrə:

**1.1.** beşinci abzasda "və 213-cü" sözləri ", 213-cü, 213-1.3-cü və 213-1.4-cü" sözləri ilə əvəz edilsin;

**1.2.** doqquzuncu abzasda "213-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair iş" sözləri "213-1.1-ci və 213-1.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər" sözləri ilə əvəz edilsin.

**2.** 4-cü hissəyə "idxal etmə" sözlərindən sonra ", belə məhsulların (malların) nağd qaydada alğı-satqısı" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 aprel 2016-cı il
№ 862

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, №12, maddələr 1450, 1461) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Dördüncü abzasdan "306," rəqəmləri çıxarılsın.

**2.** On dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on beşinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, vergilərin ödənilməməsi ilə əlaqədar qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icra edilməməsi və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törədilməsinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Vergilər Nazirliyi.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 aprel 2016-cı il
№864

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanını "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1364-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 noyabr tarixli 677 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 611; 2002, № 8, maddə 478; 2008, № 3, maddələr 168, 170, № 7, maddə 618; 2011, № 4, maddə 479; 2013, № 8, maddə 893) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** İkinci abzasa "Məcəlləsinin" sözündən sonra "17-1.2, 17-1.7," rəqəmləri əlavə edilsin.

**2.** Üçüncü abzasa "Məcəllənin" sözündən sonra "17-1.3," rəqəmləri əlavə edilsin.

**3.** On altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on yeddinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 17-1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 aprel 2016-cı il
№ 871

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında"

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin hə-

yata keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyun 2016-cı il.
№ 951

*Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi

## Q A Y D A S I

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun (bundan sonra – Qanun) 13.2-ci maddəsinə əsasən hazırlanmışdır və dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları, həmçinin Qanunun 5.8-ci maddəsi ilə müəyyən olunan şəxslər (bundan sonra – təşkilatlar) tərəfindən vətəndaşların, o cümlədən digər fiziki və hüquqi şəxslərin (bundan sonra – vətəndaşlar) təklif, ərizə və şikayətlərinin (bundan sonra – müraciətlər) qəbulu, qeydə alınması, baxılması, cavablandırılması və arxivləşdirilməsi ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsini tənzimləyir.

**1.2.** Təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarəti Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi (bundan sonra – şöbə) səyyar və (və ya) kameral qaydada həyata keçirir. Şöbə tərəfindən nəzarətin həyata keçirilməsi təşkilatların özlərinin onların strukturlarına daxil olan qurumlarda və tabeliklərində olan digər qurumlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətini istisna etmir.

**1.3.** Bələdiyyə orqanlarında, bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

### 2. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi

**2.1.** Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarət aşağıdakı məsələləri əhatə edir:

**2.1.1.** daxil olan müraciətlərin "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nın (bundan sonra – vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydası) tələblərinə uyğun olaraq qəbulu və qeydə alınması;

**2.1.2.** müraciətlərə Qanunla müəyyən edilmiş müddətdə mahiyyəti üzrə baxılması və onların cavablandırılması;

**2.1.3.** təkrar və kollektiv müraciətlərin sayı, onların yaranma səbəblərinin təhlili;

**2.1.4.** aidiyyəti üzrə göndərilmiş, baxılmamış, rədd edilmiş və ya qismən təmin edilmiş müraciətlərin sayının müəyyənləşdirilməsi və onların təhlili;

**2.1.5.** müraciətlərin iş nomenklaturu üzrə formalaşdırılması, saxlanılması və arxivləşdirilməsi;

**2.1.6.** vətəndaşların qəbulunun təşkili, uçotu və onların qaldırdıqları məsələlərin həlli ilə bağlı görülən tədbirlər;

**2.1.7.** vətəndaşların müraciətləri ilə bağlı təşkilatların ümumiləşdirmələr və təhlillər aparması, statistik məlumatlar hazırlaması;

**2.1.8.** vətəndaşların müraciətlərinə baxılması ilə bağlı aktların, iclas protokollarının və digər sənədlərin hazırlanması, rəsmiləşdirilməsi və arxivləşdirilməsi.

**2.2.** Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarət bu Qaydanın 2.1-ci bəndində göstərilənlərlə yanaşı, vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə qaydalarına əməl olunmasına və həmin sistemdəki informasiyanın təhlükəsizliyinin təmin edilməsinə dair məlumatları da əhatə edir.

**2.3.** Nəzarət həyata keçirilərkən, təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması sahəsində fəaliyyətin qiymətləndirilməsi üçün şöbə aşağıdakı halları müəyyən edir:

**2.3.1.** irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, habelə siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnun məhdudlaşdırılması;

**2.3.2.** müraciətə baxan subyektlərin və ya onların vəzifəli şəxslərinin Qanunla müəyyən edilmiş qaydada verilən yazılı müraciətlərin qəbulundan imtina etməsi;

**2.3.3.** vətəndaşların müraciətlərinin aidiyyəti üzrə baxılması üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərilməsi;

**2.3.4.** dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədi ilə edilən müraciətə görə vətəndaşın təqib edilməsi;

**2.3.5.** müraciətlərə baxılması zamanı müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin müraciətdəki məsələlərin həlli ilə əlaqədar əldə olunmuş məlumatları, o cümlədən dövlət sirri təşkil edən və qanunla qorunan digər məlumatları yayması (yazılı müraciətin aidiyyəti üzrə baxılması üçün digər müraciətə baxan subyektlərə və onların vəzifəli şəxslərinə göndərilməsi istisna olmaqla), eləcə də müraciətin həlli ilə bağlı olmayan fərdi məlumatların, o cümlədən xüsusi kateqoriyalı fərdi məlumatların toplanılması, saxlanılması, istifadəsi və yayılması;

**2.3.6.** müraciətə baxan subyektlər və ya onların vəzifəli şəxsləri tərəfindən vətəndaşların qəbulunun təşkili və uçotu qaydasının pozulması, o cümlədən vətəndaşların qəbul edilməsindən əsassız imtina edilməsi, onların qaldırdığı məsələlərlə bağlı tədbir görülməməsi, qəbul zamanı ayrı-seçkiliyə yol verilməsi.

**2.4.** Təşkilatlarda səyyar nəzarət şöbənin yarımillik iş planı əsasında və ya bu Qaydanın 2.12-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin (bundan sonra – Administrasiya rəhbəri) razılığı ilə aparılır.

**2.5.** Səyyar nəzarətin həyata keçirilməsi məqsədi ilə şöbənin əməkdaşlarından ibarət komissiya yaradılır. Komissiyanın tərkibini və ezamiyyə müddətini şöbə müdirinin təqdimatı (təklifi) ilə, aidiyyəti təşkilatların nümayəndələri də cəlb olunmaqla, Administrasiya rəhbəri müəyyən edir.

**2.6.** Təşkilatlarda kameral nəzarət yerlərə getmədən ilin yekununa dair illik hesabatların, habelə il ərzində Qanunun 7.11-ci maddəsinə uyğun olaraq həmin təşkilatlara göndərilən müraciətlərə baxılmanın nəticələrinin təhlili əsasında aparılır.

**2.7.** Qanunun 7.11-ci maddəsinə uyğun olaraq göndərilən müraciətlərə təşkilatlarda baxılmanın nəticələri, bu Qaydanın 2.1.1-ci–2.1.4-cü və 2.1.6-cı bəndlərində qeyd olunanlar nəzərə alınmaqla, il ərzində təhlil olunur.

**2.8.** Təşkilatlar vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabatları növbəti il yanvar ayının 15-dək Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına elektron və (və ya) kağız daşıyıcılarda təqdim etməlidirlər.

**2.9.** Təşkilatların hesabatlarında aşağıdakı məlumatlar əks olunur:

**2.9.1.** bu Qaydanın 2.1-ci bəndində göstərilən məsələlərə dair məlumatlar, o cümlədən müraciətlərin ümumi sayı, ayrılıqda təklif, ərizə və şikayətlərin, habelə təkrar müraciətlərin və icra müddəti pozulmaqla baxılan müraciətlərin sayı;

**2.9.2.** təşkilatlar tərəfindən strukturlarına daxil olan qurumlarda və tabeliklərində olan digər qurumlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin nəticələrinə dair ümumiləşdirilmiş məlumatlar, o cümlədən müraciətlərin ümumi sayı, aparılmış araşdırmaların sayı, görülən tədbirlərə dair məlumatlar.

**2.10.** Təşkilatların illik hesabat formaları, bu Qaydanın tələbləri nəzərə alınmaqla, Administrasiya rəhbəri tərəfindən təsdiq olunur.

**2.11.** Təşkilatlar tərəfindən təqdim edilmiş hesabatlardakı məlumatlar kameral nəzarətin həyata keçirilməsi, eləcə də şöbə tərəfindən təhlil və ümumiləşdirmələr aparılması üçün kifayət etmədikdə və yaxud həmin məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə, şöbə əlavə məlumatları və sənədləri əldə etmək məqsədi ilə həmin təşkilatlara yazılı və ya şifahi sorğu verir.

**2.12.** Təşkilatlarda Administrasiya rəhbərinin razılığı ilə araşdırma aşağıdakı hallarda aparılır:

**2.12.1.** təşkilatlar tərəfindən hesabatlar bu Qayda ilə müəyyən edilmiş müddətdə və bu barədə şöbənin xəbərdarlığından sonra da təqdim edilmədikdə;

**2.12.2.** təşkilatlar tərəfindən hesabatlarda müntəzəm olaraq yanlış, yaxud təhrif olunmuş məlumatlar təqdim edildikdə;

**2.12.3.** kameral nəzarət zamanı təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması qaydasının tələblərinin müntəzəm pozulması halları aşkar edildikdə;

**2.12.4.** vətəndaşların müraciət etmək hüququnun təşkilatlar tərəfindən müntəzəm olaraq pozulması ilə bağlı şikayətlər daxil olduqda;

**2.12.5.** təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması sahəsində digər göstəricilərin pisləşməsi halları, o cümlədən təkrar müraciətlərin, fərdi və kollektiv şikayətlərin sayının artması, Qanunun 7.11-ci maddəsinə uyğun olaraq göndərilən müraciətlərlə bağlı tədbir görülməməsi halları müəyyən edildikdə.

**2.13.** Administrasiya rəhbərinin razılığı ilə araşdırmalar bu Qaydanın 2.5-ci bəndində nəzərdə tutulan qaydada yaradılmış komissiya tərəfindən aparılır. Araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün komissiyanın fəaliyyətinə araşdırma aparılan təşkilatın nümayəndəsi də cəlb edilir.

**2.14.** Bu Qaydanın 2.12.4-cü yarımbəndində nəzərdə tutulmuş halda araşdırma aparılmazdan əvvəl vətəndaşların şikayətlərinin əsaslı olmasını təsdiq etmək üçün şöbə daxil olmuş şikayətlərə dair əlavə məlumatları və sənədləri əldə etmək məqsədi ilə həmin təşkilatlara sorğu göndərir.

**2.15.** Təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi ilə əlaqədar şöbənin hazırladığı ümumiləşdirmələr, kameral və səyyar nəzarətin nəticələrinə dair arayışlar, habelə kargüzarlığın aparılması işinin təkmilləşdirilməsinə dair tövsiyələr Administrasiya rəhbərinə təqdim edilir.

**2.16.** Kameral və səyyar nəzarətin həyata keçirilməsi zamanı aşkarlanmış nöqsanların və pozuntuların aradan qaldırılması ilə bağlı aidiyyəti təşkilatlara müvafiq göstərişlər verilməsi üçün nəzarətin yekunlarına dair arayışlar Administrasiya rəhbərinin razılığı ilə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası” təsdiq edilsin *(əlavə olunur).*

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının nor-

mativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 766; 2007, № 8, maddə 765) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyun 2016-cı il.
№ 950

*Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması

## QAYDASI

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Qanununun (bundan sonra – Qanun) 7.2-ci maddəsinə əsasən hazırlanmışdır və dövlət və bələdiyyə orqanları, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları, həmçinin Qanunun 5.8-ci maddəsi ilə müəyyən olunan şəxslər (bundan sonra – təşkilatlar) tərəfindən vətəndaşların, o cümlədən digər fiziki və hüquqi şəxslərin (bundan sonra – vətəndaşlar) təklif, ərizə və şikayətlərinin (bundan sonra – müraciətlər) qəbulu, qeydiyyata alınması, baxılması, cavablandırılması və arxivləşdirilməsi ilə bağlı kargüzarlığın aparılmasını tənzimləyir.

**1.2.** Bu Qaydada istifadə olunan anlayışlar Qanunun 3-cü maddəsi ilə müəyyən edilmiş mənalarda işlədilir.

**1.3.** Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq təşkilatın kargüzarlıq xidməti və ya xüsusi olaraq bu məqsəd üçün ayrılan əməkdaşlar (bundan sonra – kargüzarlıq xidməti) tərəfindən digər növ kargüzarlıq işlərindən ayrıca aparılır.

**1.4.** Təşkilatın strukturundan, habelə daxil olan müraciətlərin həcmindən asılı olaraq, vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq sistemi mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş qaydada təşkil edilir.

**1.5.** Struktur bölmələrinin sayı az və il ərzində daxil olan müraciətlərin sayı 25000-dək olan təşkilatlarda kargüzarlıq mərkəzləşdirilmiş qaydada aparılır. Strukturu mürəkkəb və il ərzində daxil olan müraciətlərin sayı 25000-dən çox olan, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatların kargüzarlığı mərkəzləşdirilməmiş qaydada aparmaq hüququ vardır.

**1.6.** Mərkəzləşdirilmiş kargüzarlıq sistemində daxil olan müraciətlərin qəbulunu, göndərilməsini, uçotunu, struktur bölmələrə paylanmasını, habelə onların qeydiyyata alınmasını, rəsmiləşdirilməsini və işlərin formalaşdırılmasını kargüzarlıq xidməti həyata keçirir.

**1.7.** Mərkəzləşdirilməmiş kargüzarlıq sistemində daxil olan müraciətlərin qəbulunu, göndərilməsini, uçotunu, struktur bölmələrə paylanmasını təşkilatın kargüzarlıq xidməti, onların qeydiyyata alınmasını, rəsmiləşdirilməsini, işlərin formalaşdırılmasını isə struktur bölmələr həyata keçirir.

**1.8.** Bu Qaydanın müddəaları vətəndaşların Qanunun 5.2–5.7-ci maddələrində göstərilən müraciətlərinə şamil edilmir. Bu cür müraciətlər təşkilatlara daxil olduqda, Qanunun 8.1.1-ci maddəsinə əsasən onlara baxılmır və müraciət edən şəxsə beş iş günündən gec olmayaraq bu barədə məlumat verilir.

**1.9.** Təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın bu Qaydanın tələblərinə uyğun aparılmasına onların rəhbərləri cavabdehdirlər. Təşkilatların rəhbərləri kargüzarlıq xidməti tərəfindən vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın bu Qaydanın tələblərinə riayət edilməklə aparılmasına "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və

paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası"na əsasən nəzarət edirlər və kargüzarlığın təkmilləşdirilməsi üçün tədbirlər görürlər.

**1.10.** Vətəndaşların müraciət etmək hüququnun pozulması hallarının və bu halların yaranma səbəblərinin vaxtında aşkar edilməsi məqsədi ilə təşkilatın kargüzarlıq xidməti vətəndaşların müraciətlərinin təhlili və ümumiləşdirilməsi əsasında aylıq, rüblük və illik arayışlar hazırlayıb onları təşkilatın rəhbərinə, ilin yekunlarına dair hesabatları isə yuxarı dövlət orqanlarına təqdim edir.

**1.11.** Telefon müraciət xidməti vasitəsilə vətəndaşların şifahi müraciətlərinin qəbulu, qeydiyyatı və cavablandırılması Qanunun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir.

**1.12.** Təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparılması, Qanunun və bu Qaydanın tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın 18-ci fəslinə uyğun olaraq həyata keçirilir.

### 2. Vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması

**2.1.** Vətəndaşların Qanunun 6-cı maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən yazılı və şifahi müraciətləri təşkilatlar tərəfindən qəbul edilməli və daxil olduğu gün qeydiyyat-nəzarət vərəqəsində (1 nömrəli əlavə) qeydiyyata alınmalıdır.

**2.2.** Qeydiyyat-nəzarət vərəqələri vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda elektron formada, digər təşkilatlarda əl ilə, yaxud elektron formada, bir nüsxəsi kargüzarlıq xidmətində qalmaq şərtilə, icraçıların sayından asılı olaraq tərtib edilir və bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun olaraq qeydiyyat-nəzarət vərəqəsinin doldurulmasına dair göstəricidə müəyyən edilmiş qaydada doldurulur.

**2.3.** Xarici dildə, habelə sekoqram formasında daxil olan müraciətlərdə müraciət edənə dair məlumatları əldə etmək mümkün olduqda belə müraciətlər qeydiyyata alındıqdan sonra, müraciət edənə dair məlumatların əldə edilməsi mümkün olmadıqda isə kargüzarlıq xidməti onları qeydiyyata almazdan əvvəl ən geci 3 iş günü müddətində tərcümə olunmasını təmin etməlidir.

**2.4.** Müraciətlərin qeydiyyatı zamanı onlara əlavə olunan sənədlərin tam olmadığı və yaxud korlandığı aşkar edilərsə, kargüzarlıq xidməti bu cür müraciətləri akt tərtib etməklə qeydə alır və müraciətdə göstərilən əlaqə məlumatlarından istifadə etməklə, müraciət edən şəxsi bu barədə ən geci 3 (üç) iş günü müddətində məlumatlandırır.

**2.5.** Əgər daxil olmuş müraciəti göndərən şəxsin ünvanını, habelə müraciətin göndərilmə (alınma) vaxtını yalnız zərfdə qeyd olunan ünvan və poçt ştempelinin tarixi əsasında müəyyənləşdirmək olursa, belə müraciətlərin zərfləri saxlanılır.

**2.6.** Anonim müraciətlər Qanunun 6.4-cü maddəsinə uyğun olaraq təşkilatlar tərəfindən qeydiyyata alınmır və onlara baxılmır. İstirahət, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü daxil olan müraciətlər növbəti iş günündən gec olmayaraq qeydiyyata alınır.

**2.7.** Vətəndaşların elektron müraciətləri kargüzarlıq xidmətində çap edilir (kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlar istisna olmaqla), bu Qaydaya uyğun olaraq qeydiyyata alınır və onlara dair tərtib olunan qeydiyyat-nəzarət vərəqəsində müraciətin elektron olması qeyd edilir.

**2.8.** Müraciətlərin qeydiyyata alınması üçün onların üzərinə vurulan qeydiyyat ştampında (2 nömrəli əlavə) müraciətin daxilolma nömrəsi və tarixi, habelə vərəqlərin sayı göstərilir. Daxilolma nömrəsi müraciət edən şəxsin soyadının baş hərfindən və daxil olmuş müraciətin sıra nömrəsindən ibarətdir (məsələn, D-401). Təşkilata daxil olmuş kollektiv müraciətlərin daxilolma nömrəsinin əvvəlinə "kollektiv" sözünün ixtisarı (Kol.) hərfləri əlavə edilir. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda müraciətin kollektiv olması elektron informasiya sistemində müvafiq qeyd aparılmaqla göstərilir. Vətəndaşların müraciətlərinin saxlanılmasını, təhlilini, axtarışını və sistemləşdirilməsini asanlaşdırmaq məqsədi ilə kargüzarlıq xidmətinin müraciətin daxilolma nömrəsinə digər işarələr əlavə etmək hüququ vardır.

**2.9.** Kollektiv müraciətlərin qeydiyyat-nəzarət vərəqəsinin "Qısa məzmun" qrafasında müraciətin məzmunu ilə yanaşı, onu imzalamış şəxslərin ümumi sayı və ən azı ikisinin soyadı və adı göstərilməlidir.

**2.10.** Müraciətlər qeydiyyata alındığı gün baxılmaq üçün təşkilatın rəhbərinə və yaxud müraciətin bilavasitə ünvanlandığı digər vəzifəli şəxslərinə təqdim olunur. Təşkilatın rəhbəri və yaxud müraciətin bilavasitə ünvanlandığı digər vəzifəli şəxsləri müvəqqəti işdə olmadıqda müraciət baxılmaq üçün onların səlahiyyətlərini icra edən şəxsə təqdim olunur. Təşkilatın rəhbərinin və yaxud müraciətin bilavasitə ünvanlandığı digər vəzifəli şəxslərinin müraciətə baxılması ilə bağlı dərkənarında icraçı, müraciətin daxilolma nömrəsi və tarixi qeyd edilir. Dərkənarda

bir neçə icraçı qeyd edildikdə, birinci icraçı müraciətə Qanunla müəyyən edilmiş qaydada və müddətlərdə baxılması üçün cavabdehdir.

**2.11.** Müraciətlər təşkilatın bir struktur bölməsindən digər struktur bölməsinə təşkilat rəhbərinin razılığı ilə müvafiq struktur bölmənin rəhbərinin imzaladığı məktubla, təşkilatın kargüzarlıq xidməti vasitəsilə, qeydiyyat-nəzarət vərəqəsində qeyd aparılmaqla təqdim olunur.

**2.12.** Müraciət edənin tələbi ilə ona müraciətin daxilolma nömrəsi və tarixi, habelə onun icraçısı barədə məlumat telefon vasitəsilə bildirilir.

**2.13.** Vətəndaşların təkrar müraciətləri (sahibkarlıq fəaliyyəti ilə bağlı olan şikayətlər istisna olmaqla) qeydiyyata alınarkən onlara ilkin müraciətin daxilolma nömrəsi verilir və kəsr işarəsi qoyulmaqla sıra sayı əlavə edilir (məsələn, D-401, D-401/2, D-401/3).

**2.14.** Eyni müraciət edən şəxsin eyni məsələ ilə bağlı digər təşkilata və ya onun vəzifəli şəxslərinə etdiyi müraciətlər, habelə vətəndaşların Qanunun 7.10-cu maddəsinə əsasən aidiyyəti üzrə göndərilən müraciətləri baxılmaq üçün eyni müraciətə baxan subyektə daxil olduqda, bu Qaydanın 2.13-cü bəndinə uyğun olaraq qeydiyyata alınır.

**2.15.** Təkrar müraciətin yuxarı sağ küncündə və qeydiyyat-nəzarət vərəqəsində "Təkrar" qeydi yazılır və bütün əvvəlki yazışmalar ona əlavə edilir. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda daxil olmuş təkrar müraciət elektron informasiya sistemində əvvəlki müraciətlərlə əlaqələndirilir.

**2.16.** Təkrar müraciətlərin qeydiyyat-nəzarət vərəqəsinin "Əvvəlki müraciətlər" qrafasında həmin vətəndaşın ilkin müraciətinin daxilolma nömrəsi və tarixi, ona nəzarətlə (nəzarətsiz) baxılmasına dair məlumat və müraciətin mövzusu göstərilməklə yanaşı, onun baxılmaq üçün kimə göndərilməsi barədə məlumat da qeyd olunur.

**2.17.** Sahibkarlıq fəaliyyəti göstərən vətəndaşların öz sahibkarlıq fəaliyyəti ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və onların struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verdikləri təkrar şikayətlərin qəbulu və qeydiyyatı bu Qaydanın 2.13-cü bəndinə uyğun olaraq aparılır.

**2.18.** Vətəndaşın ilkin müraciətinə Qanunun 10-cu maddəsi ilə müəyyən edilmiş baxılma müddəti bitmədən eyni təşkilata həmin məsələ ilə bağlı daxil olmuş növbəti müraciəti təkrar müraciət hesab edilmir, lakin bu Qaydanın 2.13-cü bəndinə uyğun olaraq qeydiyyata alınır və ilkin müraciətə əlavə edilir.

**2.19.** Eyni vətəndaşın Qanunun 6.2-ci maddəsinə uyğun olaraq təqdim edilmiş və ya göndərilmiş eyni məzmunlu yazılı müraciətləri təşkilata eyni tarixdə daxil olduqda, kargüzarlıq xidməti onlara eyni daxilolma nömrəsi verir və digər müraciətləri ilk daxil olan müraciətə əlavə edir.

**2.20.** Vətəndaşın eyni məsələ ilə bağlı eyni təşkilatın bir neçə vəzifəli şəxsinə müraciətlərinin qəbulu, qeydiyyatı və cavablandırılması müstəqil müraciət kimi bu Qaydaya uyğun olaraq həyata keçirilir.

**2.21.** Vətəndaşların canlı yayımlanan teleradio proqramları zamanı etdikləri müraciətlər bu Qaydanın 4.5-ci bəndinə uyğun olaraq qəbul edilir, qeydiyyata alınır və cavablandırılır. Bu cür müraciətlərin dərhal cavablandırılması mümkün olmadıqda, müraciətə baxan subyektin razılığı ilə onu həmin proqramda təmsil edən vəzifəli şəxs müraciətin qəbulunu, qeydiyyatını və cavablandırılmasını bu Qaydanın tələbləri nəzərə alınmaqla həyata keçirir.

### 3. Müraciətlərə baxılması və onların cavablandırılması

**3.1.** Müraciətdə göstərilən məsələyə Qanunla müəyyən edilmiş qaydada və müddətlərdə baxıldıqda və bu barədə vətəndaşa (kollektiv müraciətlərdə – müraciət edən şəxslərdən birinə) əsaslandırılmış cavab verildikdə, müraciət baxılmış hesab olunur.

**3.2.** Müraciətə baxılma müddətinin axımı müraciətin kargüzarlıq xidmətində qeydə alındığı gündən hesablanır.

**3.3.** Təşkilatların vətəndaşların müraciətlərini yazılı (o cümlədən elektron qaydada) və şifahi cavablandırmaq hüququ vardır.

**3.4.** Vətəndaşların yazılı müraciətlərinə təşkilatlar tərəfindən dövlət dilində cavab verilir. Vətəndaşın müraciəti ilə bağlı cavab məktubu xarici ölkə ərazisinə göndərildikdə, təşkilatın dövlət dilində yazılmış cavab məktubuna müraciətin daxil olduğu xarici dilə qeyri-rəsmi tərcüməsini də əlavə etmək hüququ vardır.

**3.5.** Vətəndaşların yazılı müraciətlərinə cavab məktubu icraçı tərəfindən hazırlanır. Müraciətə baxılmaya dair dərkənarda bir neçə icraçı olduqda, digər icraçılar müraciətə baxılma müddətinin bitməsinə ən geci 3 (üç) iş günü qalmış müraciətə baxılma ilə əlaqədar rəylərini yazılı və ya şifahi qaydada birinci icraçıya təqdim etməlidirlər. Bu zaman cavab məktubu birinci icraçı tərəfindən digər icraçılarla razılaşdırmaqla hazırlanır. Vətəndaşların yazılı müraciətlərinə cavab məktublarının mətni "Arial" 12 şrifti ilə A4 formatlı kağızda bir və ya bir yarım sətirarası intervalla yazılır və təşkilatın blankında çap olunur.

**3.6.** Vətəndaşın müraciətinə baxılmasına dair cavab məktubu təşkilatın rəhbəri və yaxud digər vəzifəli şəxsləri tərəfindən imzalanır. Cavab məktubunu imzalamalı olan vəzifəli şəxs müvəqqəti işdə olmadıqda, müraciəti onun səlahiyyətlərini icra edən şəxs imzalayır.

**3.7.** Bu Qaydanın 3.24-cü bəndinə uyğun olaraq, yuxarı dövlət orqanından baxılmanın nəticəsi barədə məlumat vermək tələbi ilə daxil olan müraciətlərə dair təşkilatın yuxarı dövlət orqanına cavab məktubunu təşkilatın rəhbəri, o, olmadıqda isə onun səlahiyyətlərini icra edən müavini imzalayır.

**3.8.** Vətəndaşların müraciətlərinə baxılmasına dair cavab məktubunda müraciətin daxilolma nömrəsi, müraciətdə göstərilən məsələlərin araşdırılması və görülən tədbirlər və ya həmin məsələlərlə bağlı aidiyyəti üzrə müraciət edilməli subyekt göstərilməlidir.

**3.9.** Vətəndaşın müraciətinin şifahi formada cavablandırılması bu Qaydanın 4.5-ci bəndinə uyğun olaraq həyata keçirilir.

**3.10.** Elektron müraciətlərə təşkilatlar tərəfindən müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron qaydada və ya müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə müraciət edənin elektron ünvanı göstərilmədikdə, müraciətə poçt vasitəsilə yazılı cavab verilir. Elektron sənəd formasında göndərilən cavab məktubu elektron imza ilə təsdiq edilməlidir.

**3.11.** Vətəndaşın təkrar müraciətinə bir təqvim ili ərzində 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verildikdə, eləcə də təkrar müraciətdə məsələnin həlli ilə bağlı yeni məlumatlar olmadıqda, müraciət baxılmamış saxlanılır və Qanunun 8.2-ci maddəsinə uyğun olaraq, müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsləri vətəndaşa bu barədə məlumat verir.

**3.12.** Təşkilatın bu Qaydanın 2. 19-cu bəndinə uyğun olaraq qeydiyyata alınmış müraciətləri vətəndaşın razılığı ilə bu Qaydanın 3.4-cü-3.6-cı və ya 3.10-cu bəndlərinə uyğun olaraq cavablandırmaq hüququ vardır.

**3.13.** Vətəndaşın bu Qaydanın 2.17-ci bəndində nəzərdə tutulan müraciətlərinə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Əsasnamə"yə və "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Əsasnamə"yə uyğun olaraq baxılır.

**3.14.** Vətəndaşın bu Qaydanın 2.18-ci bəndində nəzərdə tutulan müraciətlərini icraçı vahid cavab məktubu ilə cavablandırır.

**3.15.** Müraciətin baxılmamış saxlanılması üçün əsas olduqda, bu barədə müvafiq arayış tərtib edilir və həmin arayışın üzərində təşkilat rəhbərinin "Baxılmamış saxlanılsın" dərkənarı yazılmaqla, müraciət kargüzarlıq xidmətində işə alınır. Müraciətin baxılmamış saxlanılmasına əsas verən hallar aradan qaldırıldıqda, təşkilat ona baxılmanı təmin etməlidir.

**3.16.** Vətəndaşın müraciətində göstərilən məsələlər "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilir.

**3.17.** Təşkilatlar və ya onların vəzifəli şəxsləri, müraciətdə irəli sürülən məsələlərin həlli onların səlahiyyətinə aid olmadıqda, müraciəti 3 (üç) iş günündən gec olmayaraq aidiyyəti üzrə göndərir və müraciət edənə bu barədə məlumat verir. Müraciətdə göstərilən məsələ bir neçə müraciətə baxan subyektin səlahiyyətinə aid edildikdə müraciətin surəti 3 (üç) iş günündən gec olmayaraq həmin subyektlərə göndərilir.

**3.18.** Vətəndaşın müraciəti baxılmaq üçün aidiyyəti üzrə göndərildikdə, müşayiət məktubunda onun daxilolma nömrəsindən əvvəl müvafiq strukturun və ya vəzifəli şəxsin kargüzarlıq indeksi qeyd olunur və müşayiət məktubunun surəti təşkilatın kargüzarlıq xidmətinə həmin gün verilir.

**3.19.** Müraciətin baxılmamış saxlanılması, qismən təmin edilməsi və ya rədd edilməsi barədə qərar qəbul olunduqda, müraciət edənə cavab məktubunda həmin qərardan şikayət verilməsi qaydası izah edilir.

**3.20.** Müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciətdə göstərilən məsələnin həlli ilə əlaqədar əlavə məlumatların öyrənilməsi üçün aidiyyəti üzrə sorğu göndərdikdə, həmin sorğuya 7 (yeddi) iş günündən gec olmayaraq cavab verilməlidir.

**3.21.** Vətəndaş yuxarı dövlət orqanından şikayət verdiyi halda onun müraciətinin baxılmaq və cavablandırılmaq üçün aşağı dövlət orqanına göndərilməsinə yol verilmir.

**3.22.** Yuxarı dövlət orqanından vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərmək qadağandır.

**3.23.** Bu Qaydanın 3.22-ci bəndi ilə müəyyən edilmiş qadağaya görə vətəndaşın müraciətini aidiyyəti üzrə göndərmək mümkün olmadıqda, vətəndaşa qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ izah olunur.

**3.24.** Yuxarı dövlət orqanından baxılmanın nəticəsi barədə məlumat vermək tələbi ilə daxil olan müraciətlər, həmçinin müraciətə baxan təşkilatın rəhbərinin göstərişi ilə müraciətlər nəzarətə götürülür. Bu halda qeydiyyat-nəzarət vərəqəsinin bütün nüsxələrinə və müraciətin üzərinə "Nəzarətdədir" ştampı vurulur. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda müraciətin nəzarətdə olması elektron informasiya sistemində müvafiq qeyd aparılmaqla göstərilir.

**3.25.** Vətəndaşın müraciətinə mahiyyəti üzrə baxıldıqdan və baxılma nəticəsində onun təmin edilməsi, qismən təmin edilməsi, rədd edilməsi və yaxud baxılmamış saxlanılması barədə qərarlardan biri

qəbul edildikdə, vətəndaşa əsaslandırılmış cavab verildikdən sonra müraciət təşkilatın rəhbəri tərəfindən nəzarətdən çıxarılır. Əks halda, müraciətin nəzarətdən çıxarılmasına yol verilmir.

**3.26.** Vətəndaşların müraciətlərinə icraçılar tərəfindən mahiyyəti üzrə baxıldıqdan sonra həmin müraciətlər, onlarla əlaqədar toplanmış materiallar və qeydiyyat-nəzarət vərəqələri kargüzarlığın aparılması və bu Qaydanın 5.4-cü bəndində nəzərdə tutulan kartotekaların mərkəzləşdirilmiş şəkildə formalaşdırılması məqsədi ilə kargüzarlıq xidmətinə qaytarılmalıdır. Bu zaman həmin müraciətin üzərində qərarı qəbul edən vəzifəli şəxsin "İşə alınsın" dərkənarı, imzası və tarix olmalıdır.

### 4. Vətəndaşların qəbulu

**4.1.** Vətəndaşlar təşkilat rəhbərinin təsdiq etdiyi vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda bir dəfədən az olmayaraq, əvvəlcədən tərtib edilmiş qəbul siyahısına əsasən, qabaqcadan bildirilən günlərdə və saatlarda təşkilatın rəhbəri və ya digər vəzifəli şəxsləri tərəfindən qəbul edilirlər.

**4.2.** Vətəndaşların müraciəti ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülməsi tələb edildikdə, təşkilatın rəhbəri və ya digər vəzifəli şəxsləri onları dərhal qəbul etməlidirlər.

**4.3.** Vətəndaşlar təşkilat tərəfindən vətəndaşların qəbulu üçün ayrılmış qəbul otağına müraciət etmək və ya onun rəsmi internet saytında qeydiyyatdan keçmək yolu ilə Qanunun 11.4-cü maddəsinə uyğun olaraq qəbula yazılırlar. Hər iki qaydada qəbula yazılmış vətəndaş qəbul günü şəxsiyyət vəsiqəsini, müraciət edən vətəndaşın adından qəbula onun nümayəndəsi gəldikdə isə onun səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidir.

**4.4.** Vətəndaşın qəbul zamanı təqdim etdiyi yazılı müraciət bu Qaydanın 2-ci hissəsinə uyğun olaraq qəbul edilir və qeydiyyata alınır. Bu cür müraciətə bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq baxılır.

**4.5.** Vətəndaşın qəbul zamanı etdiyi şifahi müraciətilə bağlı qeydiyyat-nəzarət vərəqəsində qəbula dair qeyd aparılır. Şifahi müraciətdəki məsələnin həlli əlavə araşdırma tələb etmədikdə, vətəndaşın razılığı ilə müraciət qəbul zamanı şifahi qaydada cavablandırılır. Qəbul zamanı vətəndaşın müraciətini şifahi qaydada cavablandırmaq mümkün olmadıqda, müraciət yazılı qaydada təqdim olunur. Belə müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması bu Qaydanın 4.4-cü bəndinə uyğun olaraq həyata keçirilir.

**4.6.** Vətəndaşın qəbulu zamanı onun müraciətində qaldırılan məsələnin digər müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin səlahiyyətinə aid olduğu aşkar edilərsə, müraciət edən şəxsə aidiyyəti üzrə müraciətetmə qaydası izah olunmalıdır.

**4.7.** Təşkilatın rəhbəri və ya digər vəzifəli şəxsləri videoqəbullar, o cümlədən onlayn konfranslar keçirdikləri zaman vətəndaşlar tərəfindən edilən müraciətlər elektron fayl şəklində elektron informasiya sistemində qeydiyyata alınır. Bu cür müraciətlər üçün də qeydiyyat-nəzarət vərəqəsi tərtib edilir və onlara bu Qaydanın tələbləri nəzərə alınmaqla baxılır.

**4.8.** Təşkilatın rəhbəri və ya digər vəzifəli şəxsləri səyyar qəbul keçirdikləri zaman vətəndaşlar tərəfindən edilən müraciətlərin qəbulu, qeydiyyatı və onlara baxılması bu Qaydanın tələbləri nəzərə alınmaqla həyata keçirilir.

### 5. Yekun müddəalar

**5.1.** Vətəndaşların müraciətləri, onlara baxılması ilə əlaqədar toplanmış materiallar və verilmiş cavablar, həmçinin vətəndaşların qəbulu ilə bağlı sənədlər təşkilatların təsdiq edilmiş nomenklaturu əsasında əlifba sırası ilə iş qovluqlarında yığılır.

**5.2.** Hər bir müraciət, o cümlədən vətəndaşların təkrar və baxılmamış saxlanılan müraciətləri, onlara dair toplanmış materiallar və verilmiş cavablar da daxil olmaqla, iş qovluqlarında ayrıca yığılır. Müraciətin yığıldığı qovluğun iş və cild nömrələri, həmçinin müraciətin qovluqdakı vərəqlərinin nömrələri həmin müraciətin qeydiyyat-nəzarət vərəqəsində göstərilməlidir.

**5.3.** Müraciətlər iş qovluqlarına yerləşdirilərkən onların tam şəkildə olması (komplektliyi) və düzgün tərtib edilməsi yoxlanılmalıdır. Əks halda, müraciətlərin iş qovluqlarına yığılmasına yol verilmir.

**5.4.** Təşkilatlarda vətəndaşlardan daxil olmuş müraciətlərin axtarışını təmin etmək məqsədi ilə onlara dair tərtib edilmiş qeydiyyat-nəzarət vərəqələri təşkilatın kartotekalarında yığılır. Kartotekalar müraciət edənin soyadına və yaxud müraciətin mövzusuna uyğun olaraq əlifba sırası ilə tərtib edilir. Daxil olmuş müraciətlərin kartoteka üzrə axtarışını asanlaşdırmaq məqsədi ilə təşkilatın kargüzarlıq xidmətinin kartotekaların formalaşdırılmasında əlifba və digər təsnifat göstəricilərindən istifadə etmək hüququ vardır.

**5.5.** Vətəndaşların müraciətlərinə dair sənədlərin saxlanılma müddətləri "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla hər bir təşkilat tərəfindən ən azı 5 (beş) il olmaqla müəyyən edilir. Vətəndaşların müraciətlərinə dair sənədlərin qorunub saxlanmasına təşkilatın rəhbəri və kargüzarlıq xidməti cavabdehdirlər.

**5.6.** Vətəndaşların müraciətlərinə dair sənədlərin saxlanılması müddətləri bitdikdən sonra həmin sənədlər təşkilat rəhbərinin qərarı əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada məhv edilir.

*"Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na*
***1 nömrəli əlavə***

**Qeydiyyat-nəzarət vərəqəsinin**
**FORMASI**
(doldurulması barədə göstərici əlavə edilir)
(qeydiyyat-nəzarət vərəqəsinin üz tərəfi)

Təşkilatın adı

Təşkilatın müvafiq struktur bölməsi

**Qeydiyyat-nəzarət vərəqəsi**

(sənədin kodu) (təşkilatın kodu)

Müraciət edən________________________________
*(fiziki şəxsin (və ya onun nümayəndəsinin) soyadı, adı, atasının adı, ünvanı və ya işlədiyi yer, vəzifəsi, telefonu; hüquqi şəxsin adı və hüquqi ünvanı, telefonu)*

Daxilolma nömrəsi və tarixi, vərəqlərin sayı ____________________

Müraciətin forması, daxilolma yolu, növü ____________________

Kimə ünvanlanıb ______________________________

Əvvəlki müraciətlər ____________________________
*(daxilolma nömrəsi və tarixi, nəzarətlə (nəzarətsiz), mövzu, icraçı)*

Müşayiət məktubunu göndərən ________________________
*(təşkilatın adı və ya onun vəzifəli şəxsinin soyadı, adı və atasının adı, nömrəsi və tarixi)*

Qısa məzmun ______________________________

İcra edən ______________________________

Dərkənar ______________________________

İcraya verilmə tarixi ____________________________

İcra müddəti ______________________________

*(qeydiyyat-nəzarət vərəqəsinin arxa tərəfi)*

| Müraciətin icraçıya verildiyi tarix | İcraçı | İlkin cavab və ya əlavə sorğu haqqında qeyd | Nəzarət və ya xidməti qeydlər |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

İcranın (cavabın) tarixi, indeksi ____________________
Kimə göndərilib ________________________
Cavabın məzmunu ________________________

Nəzarətdən çıxarılmışdır (tarix)____________ Nəzarətçinin imzası ____________

| | | | |
|---|---|---|---|
| İş | Cild | Vərəqlər | Fond |
| | | | Siyahı |
| | | | İş |

**Qeydiyyat-nəzarət**
**vərəqəsinə əlavə**

**Qeydiyyat-nəzarət vərəqəsinin doldurulmasına dair**
**GÖSTƏRİCİ**

**Müraciət edən** – müraciət edən fiziki şəxsin (və ya onun nümayəndəsinin) soyadı, adı, atasının adı, ünvanı və ya işlədiyi yer, vəzifəsi, telefonu; hüquqi şəxsin adı və hüquqi ünvanı, telefonu.

**Daxilolma nömrəsi və tarixi, vərəqlərin sayı –** müraciətin təşkilata daxil olduğu tarix və ona verilən qeydiyyat nömrəsi, müraciətdə və ona əlavə olunan sənədlərdəki vərəqlərin ümumi sayı.

**Müraciətin forması** – məktub, elektron məktub, teleqram, faks.

Müraciətin daxilolma yolları – poçtla, elektron poçtla, teleqramla, faksla, qəbul zamanı, təşkilatın poçt qutusundan.

**Müraciətin növü** – təklif, ərizə, şikayət.

**Kimə ünvanlanıb** – müraciətin ünvanlandığı şəxsin vəzifəsi, soyadı, adı və atasının adı.

**Əvvəlki müraciətlər** – müraciət edənin bu müraciətdən əvvəl göndərdiyi (verdiyi) müraciətlərin daxilolma nömrələri və tarixləri, nəzarətlə (nəzarətsiz) baxılması, müraciətin mövzusu və icraçı haqqında məlumatlar.

**Müşayiət məktubunu göndərən** – məktubu göndərən təşkilatın adı, məktubun daxilolma nömrəsi və tarixi.

**Qısa məzmun** – müraciətdə qaldırılan məsələnin (məsələlərin) qısa məzmunu.

**İcraçı** – müraciətin baxılıb həll olunmasına cavabdeh olan təşkilatın və ya struktur bölmənin adı, onun rəhbərinin soyadı, adı, atasının adı, müraciətin icraçıya verilmə tarixi və icra müddəti (müraciət aidiyyəti üzrə digər təşkilata göndərildikdə bu qrafa eyni qaydada doldurulur).

**Dərkənar** – təşkilatın dərkənar qoymuş vəzifəli şəxsinin vəzifəsi, soyadı, adı və atasının adı, müraciətin üzərindəki dərkənarın məzmunu, tarixi, icraçının (icraçıların) soyadı, adı, atasının adı və vəzifəsi.

**İcraya verilmə tarixi** – müraciətin onu icra edən təşkilata (struktur bölməyə) verildiyi tarix.

**İcra müddəti** – Qanunla müəyyən edilmiş icra olunma müddətlərinə və ya dərkənara uyğun olaraq göstərilir. Müddət dəyişildikdə, yeni müddət göstərilməklə sətrin növbəti qrafasında əvvəlki müddətin dəyişdirilməsi barədə qərarı qəbul edən vəzifəli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı qeyd olunur. Qeydiyyat-nəzarət vərəqəsinin yuxarı sol küncündə onun ölkə üzrə idarəedici sənəd kodu və sağ küncündə həmin vərəqənin açıldığı təşkilatın kodu göstərilir. Təkrar müraciətlərin qeydiyyatı zamanı qeydiyyat-nəzarət vərəqəsinin yuxarı sağ küncünə "Təkrar" ştampı vurulur.

(qeydiyyat-nəzarət vərəqəsinin arxa tərəfinə dair)
**İcranın gedişi**

**Müraciətin icraçıya verildiyi tarix** – bu qrafada müraciətin onun bilavasitə icraçısına verildiyi tarix göstərilir (boş qrafalar müraciətin icrasının gedişində onun hər bir yerdəyişməsi zamanı doldurulur).

**İcraçı –** bu qrafada bilavasitə icraçının vəzifəsi, soyadı, adı, atasının adı və telefonu (boş qrafalar müraciətin icrasının gedişində onun hər bir yerdəyişməsi zamanı doldurulur).

**İlkin cavab və ya əlavə sorğu barədə qeyd** -ilkin cavabın və ya sorğunun qısa məzmunu, ünvanı, tarixi və qeydiyyat nömrəsi (indeksi).

**Nəzarət və ya xidməti qeydlər** – icranın vəziyyəti və sair barədə yadasalma haqqında qeydlər.

**İcranın (cavabın) tarixi, indeksi** – müraciətdə qoyulan məsələnin həlli üzrə son qərarı əks etdirən sənədin tarixi və qeydiyyat indeksi.

**Kimə göndərilib** – müraciətdə qoyulan məsələnin həlli üzrə son qərarı əks etdirən sənədin göndərildiyi bütün ünvanlar.

**Cavabın məzmunu** – müraciətdə qoyulan məsələnin həlli üzrə qəbul olunmuş son qərar göstərilməklə cavab sənədinin başlığı ("təmin edilmişdir", "qismən təmin edilmişdir", "rədd edilmişdir", "baxılmamış saxlanılmışdır" və ya "izah edilmişdir").

**Nəzarətdən çıxarılmışdır** – müraciətin nəzarətdən çıxarılması barədə qərarı qəbul edən rəhbərin və ya digər vəzifəli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı.

**Nəzarətçinin imzası** – vətəndaşların müraciətləri üzrə nəzarətə cavabdeh olan vəzifəli şəxsin imzası.

**İş, cild, vərəqlər** – nomenklatur üzrə işin indeksi, cildin (qovluğun) nömrəsi, komplektləşdirilmiş sənədlərin saxlanıldığı qovluqdakı vərəqlərin nömrələri (iş başa çatdıqdan və işə tikildikdən sonra qeyd olunur).

**Fond, siyahı, iş** – bir-biri ilə əlaqəli olan sənədlərin məcmusu, onların siyahısı və nomenklatur üzrə işin indeksi (iş arxivə təhvil verildikdən sonra doldurulur).

**Qeyd:**

**1.** Qeydiyyat – nəzarət vərəqələrinin tövsiyə edilən ölçüləri: A5/148x210 və ya A4/210x297.

**2.** Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasında istifadə olunan qeydiyyat-nəzarət vərəqələri yalnız kompyuter vasitəsilə və ya mətbəə üsulu ilə yuxarıda göstərilən rekvizitləri özündə əks etdirməklə çap olunur.

*"Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na*

***2 nömrəli əlavə***

| |
|---|
| Qeydiyyat ştampı<br><br>Təşkilatın adı<br><br>Daxilolma №-si ________________<br><br>______vərəq<br><br>"_______"____________ _____il |

Ölçüləri

5.5x2.5 sm

| |
|---|
| NƏZARƏTDƏDİR |

4x1.0 sm

| |
|---|
| T Ə K R A R |

4x1.0 sm